www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 iyun 2015-ci il Cümə № 127 (6155) Qiyməti 40 qəpik

**Xəbər**

## Bu gün I Avropa Oyunlarının açılışıdır

yazısı səh.6-da

**Gündəm**

### Ölkə rəsmilərindən Avropa Oyunları ilə bağlı brifinqdə önəmli açıqlamalar



**Əli Həsənov:** "Təəssüflər olsun ki, Azərbaycana qarşı kampaniya aparılır; bununla bağlı bizdə faktlar var"

yazısı səh.3-də

*Aynur Camalqızı:*

### "Müxalifətin zəif olması hakimiyyətin ziyanınadır"

yazısı səh.4-də

### Xələcdəki məhkum üsyanı haqda yeni xəbərlər

yazısı səh.10-da

### Partiya sədrləri açılış mərasiminə xüsusi avtobusda aparılacaq

yazısı səh.5-də

### Elektrik enerjisinin qiyməti ilə bağlı müəmma

yazısı səh.12-də

### Ali Məhkəmə sədri dələduzlara qarşı mübarizədən danışdı

yazısı səh.7-də

### Satışda hələ də GMO məhsulları var

yazısı səh.12-də

### Bakı Avropadan gələn basqılara qarşı

Rəsmi şəxslərdən sərt reaksiyalar, parlamentarların və siyasilərin bəyanatı, etiraz aksiyaları...

yazısı səh.9-da

### Siyasi məhbuslar azad olunsaydı...

yazısı səh.7-də

### Ekspert "ölkənin ehtiyat aktivləri tükənir" iddiasından danışdı

yazısı səh.8-də

### Türkiyənin yeni baş naziri azərbaycanlı olacaq?

yazısı səh.2-də

**"Kredit işi" ilə bağlı yeni sensasion məlumatlar**

# BEYNƏLXALQ BANKDA İTƏN MİLYONLAR DUBAYDAN TAPILDI

Cahangir Hacıyevin poladəritmə biznesi necə "əriyib"; Beynəlxalq Bankın filial müdirinin tikintisinə rəhbərlik etdiyi zavodda çeçen iş adamının da payı olub



yazısı səh.10-da

# Türkiyə və Azərbaycana yeni İmralı təhlükəsi

İki qardaş ölkə ziddiyyətli bir dönəmə girir; bu gün Türkiyədə təzə parlament öz işinə başlayır; millət vəkilləri and içəcək, ancaq hamı ona sonadək sadiq qalacaqmı? HDP Azərbaycana görə qapadıla da bilər, əgər...

yazısı səh.9-da



### Tahir Süleyman rinqə kürd bayrağı ilə çıxan idmançıya haqq qazandırır

yazısı səh.5-də



### Şeyxin Tərtərə helikopterlə qəfil səfərinin şok təfərrüatları

yazısı səh.11-də



### Rizvan Vahabov vətəndaşların mülkiyyətini mənimsəməkdə suçlanır

yazısı səh.11-də

# Əflatun Amaşov Azərbaycan jurnalistlərinə müraciət etdi

## "Biz onların "məqsədinin" reallaşmasına yol verməyəcəyik..."



**Mətbuat Şurasının sədri Əflatun Amaşov Bakıda keçiriləcək Avropa Oyunları ilə bağlı Azərbaycan jurnalistlərinə müraciət edib. Musavat.com-a daxil olan müraciətdə bildirilir ki, iyunun 12-də Azərbaycan öz şanlı tarixinin yeni ilkinə imza atacaq və Bakıda I Avropa Oyunları start götürəcək.**

Oyunların işıqlandırılmasında hər bir jurnalistə uğurlar arzulayan MŞ sədri daha sonra aşağıdakıları bildirib: "I Avropa Oyunları xalqımız və dövlətimiz üçün son dərəcə mühüm hadisə, qürurverici olaydır. Belə anları bölüşmək təkcə sevincimizin ifadəsi deyil, eyni zamanda mühüm vətəndaşlıq missiyamızdır. Bu missiyanın zəruriliyini şərtləndirən amillər sırasında bizim işimizə peşəkar kimi yanaşmaq məsuliyyətimizlə yanaşı, həm də vətənvərvərliyimiz dayanır. Çünki I Avropa Oyunları ilə bağlı Azərbaycana qarşı başladılan xoşagəlməz kampaniya ümumən ölkəmizə qarşı total informasiya müharibəsi xarakteri daşımaqdadır. Mərkəzi ofisi Kanadanın Toronto şəhərində yerləşən Beynəlxalq Söz Azadlığı Mübadiləsi Şəbəkəsinin (İFEX) dünyada yerləşən jurnalist qurumlarına və insan hüquqları təşkilatlarına ünvanladığı müraciət də fikrimizi qətiləşdirməyə əsas verir. Müraciət I Avropa Oyunlarının Azərbaycanda keçirilməsinə qarşı twitter kampaniyasına qoşulmağa çağırış mahiyyəti daşımaqdadır. Kampaniyanın iyunun 12-də saat 15.00-da oyunların rəsmi twitter səhifəsində, #Baku2015 Hashtag-da aparılması nəzərdə tutulur. İnanırıq ki, Azərbaycan jurnalistləri həmin Hashtag-da ölkəmizlə bağlı əsl həqiqətlərin yayılmasında fəallıq göstərəcək, Beynəlxalq Söz Azadlığı Mübadiləsi Şəbəkəsinin (İFEX) «məqsədinin» reallaşmasına yol verməyəcəklər".

**Ə.Amaşov bildirib ki, I Avropa Oyunları ilə bağlı bu sayaq xoşagəlməz kampaniyalar indiyədək də aparılıb. Belə halların davamlı xarakter daşıyacağı da istisna deyil:** "Beynəlxalq Söz Azadlığı Mübadiləsi Şəbəkəsi kimi qurumların əsl niyyətindən xəbərsiz olan dünya QHT-lərinin reallığı bilmədən ölkəmiz haqqında neqativ ictimai rəyin formalaşmasında rol oynamaları mümkündür. Buna görə də Sizləri mötəbər idman hadisəsi müddətində xüsusilə diqqətli olmağa, həssaslıq nümayiş etdirməyə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması prosesində daha yaxından iştiraka çağırırıq. Əminik ki, Azərbaycan ictimai rəyinin avanqardı olan mediamız sınaqdan layiqli şəkildə çıxacaq".

❑ SEVİNC

## Prezident Gürcüstanın baş nazirini qəbul edib



**Prezident İlham Əliyev I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Gürcüstanın baş naziri İrakli Qaribaşvilini qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, I Avropa Oyunlarının ölkəmizdə keçirilməsinin önəmi qeyd edilib və bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə xidmət edəcəyi bildirilib.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Hacı İbrahim "Bakı-2015"dən sonraya çoxlu sürpriz hazırlayıb



**"Bu layihəni başlatmışamsa, təbii ki, davam etdirəcəm. Bu layihə dünyaca məşhurdur və Azərbaycanın adıdır. Bu layihəyə nə qədər investisiya qoyanlar və qoymaq istəyənlər var. Layihəni dayandırsam, həm mənim üçün, həm də Azərbaycan üçün biabırçılıq olar. Bu layihəni dayandırmaq olmaz..."**

Virtualaz.org bildirir ki, "Avesta Concern"nin rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli bunu publika.az-a müsahibəsində özünün "Xəzər adaları" layihəsi haqda danışarkən deyib.

Bir müddət əvvəl Azərbaycan Beynəlxalq Bankına olan borcuna görə saxlanılmış iş adamı bildirib ki, artıq həş şey qaydasındadır: "İndi hər şey yavaş-yavaş qaydasına düşür, heç bir problem yoxdur. İnşallah, Avropa Oyunları başa çatandan sonra gələn ay böyük bir təqdimat keçirəcəyik. İki ay dalbadal sürpriz açılışlar edəcəyik".

## Bakıda məhkəmədə qan töküldü

**Bakı Ağır Cinayətlər Məhkəməsində iyunun 11-də dəhşətli hadisə baş verib.**

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçən məhkəmə prosesində ittiham olunan Xəyyam adlı şəxs məhkəmə zalında, kamerada ülgüclə özünə xəsarət yetirib.

Əldə etdiyimiz məlumata görə, həmin şəxs Cinayət Məcəlləsinin 181-ci maddəsi ilə ittiham olunub və törədilən cinayətdə sürücü qismində iştirak edib.

Prokuror ona 13 il 6 ay iş istədiyinə görə özünə xəsarət yetirib.

Məsələnin maraqlı olan tərəfi odur ki, ittiham olunan şəxs həmin ülgücü hansı vasitə ilə kameraya keçirib. (Femida.az)

## Kəmaləddin Heydərovdan xüsusi tapşırıq

**İyunun 11-də Fövqəladə Hallar Nazirliyində (FHN) "Bakı-2015" I Avropa Oyunlarının açılış mərasiminə aidiyyəti üzrə hazırlıq işləri ilə əlaqədar fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun sədrliyi ilə müşavirə keçirilib.**

FHN-dən bildiriblər ki, müşavirədə ilk Avropa Oyunları ilə əlaqədar nazirlikdə yaradılmış Əməliyyat Qərargahının rəhbəri, fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin Avropa Oyunlarının açılış mərasimi ilə bağlı aidiyyəti üzrə təhlükəsizliyin təmin edilməsi sahəsində görülmüş işlər barədə geniş məruzəsi dinlənilib.

Sonra nazirliyin Dövlət Yanğından Mühafizə, Dövlət Yanğın Nəzarəti, Dövlət Sularda Xilasetmə, Xüsusi Riskli Xilasetmə xidmətləri, Mülki Müdafiə Qoşunları, Aviasiya dəstəsi, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və Rabitə idarəsinin rəhbərləri görülən işlər haqqında məruzələr ediblər.

K.Heydərov Avropa Oyunlarının açılış mərasimi ilə əlaqədar aidiyyəti üzrə təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi üçün müvafiq tapşırıqlarını verib.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## Saakaşvili 268 dollar maaş alacaq

**Odessanın yeni qubernatoru Mixail Saakaşvilinin aylıq maaşı açıqlanıb.**

Avropa.info xəbər verir ki, sabiq Gürcüstan prezidentinin maaşı 5644 qrivna (268$) dollar olacaq.

Avropa.info xəbər verir ki, bu haqda rəsmi sənədi politoloq Qleb Kanevsko öz bloqunda çap edib.

Xatırladaq ki, Ukrayna prezidenti Pyotr Poroşenko 30 may tarixində Saakaşvilinin qubernator təyin edilməsi haqda qərar imzalamışdı.

## Azərbaycan əhalisinin sayı açıqlanıb

**Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 34,9 min nəfər və ya 0,4% artaraq bu il may ayının 1-i vəziyyətinə 9 mln. 627,9 min nəfərə çatıb.**

"APA-Economics"in Dövlət Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 111 nəfər olub. Hazırda hər 1000 nəfər kişiyə 1009 nəfər qadın düşür. Ümumi əhalinin 53,1%-i şəhər, 46,9%-i isə kənd sakinləridir.

Bu ilin yanvar-aprel ayları ərzində ölkədə 53,5 min körpə doğulub və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 17,1 təşkil etmişdir. Doğulanların 53,6%-i oğlan, 46,4%-i qızlardır.

Bu ilin 4 ayı ərzində ölkədə 19,1 min ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə ölüm səviyyəsi 6,5-dən 6,1-ə qədər azalıb.

## Erməni idmançılar Bakıdan razıdır



**Azərbaycanın paytaxtında təhlükəsizlik yüksək səviyyədə təşkil edilib. Oxu.az xəbər verir ki, bu barədə news.am müxbirinə Birinci Avropa Oyunlarında çıxış edəcək Ermənistan yığmasının mətbuat katibi Karen Giloyan bildirib.**

"Ermənistan heyəti Qraçya Rostomyanın rəhbərliyi altında artıq Bakıdadır. Komandada 6 nəfər var. Mən Oyunların sonuna qədər Bakıda qalacam. Burada təhlükəsizlik yüksək səviyyədə təşkil edilib.

İdmançılarımızın valideynlərini və qohumlarını əmin etmək istəyirəm ki, təhlükəsizliklə bağlı problem çıxmayacaq. Bizimlə eyni binada tərkibində bir erməninin də olduğu İsveç yığması yerləşir.

Qonşuluqda isə Hollandiya, Finlandiya, Portuqaliya, İsveçrə, Türkiyə və Macarıstan yığmaları yerləşir. Hər şey yaxşıdır və narahatçılığa səbəb yoxdur", - Karen Giloyan deyib.

## Tovuzda toyu olan 18 yaşlı qız intihar edib



**Tovuz rayonunda intihar hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə dünən səhər saatlarında Tovuz mərkəzi bazarının yaxınlığında yerləşən dəmir yol körpüsündə qeydə alınıb.**

Rayonun Bozalqanlı kənd sakini, 1997-ci il təvəllüdlü Aytən Nəzərova özünü körpüdən yerə atıb. Yaralı vəziyyətdə tapılaraq dərhal Tovuz Rayon Mərkəzi Xəstəxanasına çatdırılan A. Nəzərovanı xilas etmək mümkün olmayıb.

Məlumata görə, A. Nəzərova 15 gün əvvəl ailə qurmaq məqsədi ilə qaçırılıb. Ailələr razılığa gələrək dünən toy şənliyi təşkil ediblər. Toydan sonra Aytən Nəzərova yoxa çıxıb. Dünən səhər isə o özünü dəmir yol körpüsündən ataraq intihar edib.

Faktla bağlı Tovuz Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma gedir.



Ekmələddin İhsanoğlu

## Türkiyənin yeni baş naziri azərbaycanlı olacaq?

**Milliyətçi Hərəkat Partiyasından (MHP) Türkiyə parlamentinə üzv seçilmiş Ekmələddin İhsanoğlu Türkiyə baş naziri seçilə bilər.**

ANS PRESS-in məlumatına görə, hazırda müxalifət düşərgəsində bu barədə danışıqlar aparılır. Böyük ehtimalla seçkilərdə 40 faiz səs toplamış AKP hökuməti formalaşdıra bilməyəcək. Müxalifət partiyalarının hansısa birinin AKP ilə koalisiyaya getməsi inandırıcı görünmür. Çünki həm AKP, həm də MHP-nin hakim AKP qarşısında qoyduqları şərtlər partiya təmsilçiləri tərəfindən qəbul edilmir.

Hər iki partiya prezident Rəcəb Tayyib Ərdoğanın yalnız konstitusiya çərçivəsində fəaliyyət göstərməsini, daxili siyasətə qarışmamasını, həmçinin AKP-nin prezident üsul-idarəsinə keçmək sevdasından əl çəkilməsini tələb edirlər. AKP rəhbərləri isə bunu qəbul etmirlər və "Ərdoğan bizim liderimizdir, ona qarşı uzanan istənilən dili kəsərik" deyərək müxalifəti hədələyirlər.

Seçkilərdə təxminən 25 faiz səs toplamış və ikinci olmuş CHP isə böyük ehtimalla, digər müxalifət partiyası MHP (17 faiz) ilə koalisiyaya gedəcək. Hər iki partiya 2014-cü ilin prezident seçkilərində Ekmələddin İhsanoğlunun namizədliyi ilə vahid namizədlə çıxış etmək barədə razılığa gəlmişdilər. Onların budəfəki namizədinin də İhsanoğlu olacağı düşünülür. Müxalifətçi HDP-nin isə onlara kənardan dəstək verəcəyi gözlənilir.

2005-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının rəhbəri olmuş Ekmələddin İhsanoğlu əslən Azərbaycanın Şamaxı şəhərindəndir və Bakıya hər səfərində Şamaxıya gedərək babalarının məzarını ziyarət edir. 1943-cü ildə Qahirədə anadan olmuş Ekmələddin İhsanoğlu türk dili ilə yanaşı, ingilis, fransız, ərəb və fars dillərini də mükəmməl bilir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**





# Ölkə rəsmilərindən Avropa Oyunları ilə bağlı brifinqdə önəmli açıqlamalar

## Əli Həsənov: "Təəssüflər olsun ki, Azərbaycana qarşı kampaniya aparılır; bununla bağlı bizdə faktlar var"

## Azad Rəhimov: "Dünyada hansısa bir audit şirkəti Gənclər və İdman Nazirliyinin büdcəsindən bir manatın kənara xərclənməsini sübut edərsə, mən öz vəzifəmdən istefa verməyə hazıram"

**İyunun 11-də Bakıda Birinci Avropa Oyunları ilə əlaqədar mətbuat konfransı keçirildi. Çoxsaylı yerli və xarici media mənsublarının suallarını Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla gənclər və idman naziri Azad Rəhimov cavablandırdı. Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev öncə bildirdi ki, Avropa Oyunları ilə əlaqədar jurnalistlər dövlət rəsmilərinə çoxsaylı suallar ünvanlayıb və prezident İlham Əliyevin şəxsi tapşırığı əsasında geniş mətbuat konfransının keçirilməsi, suallara ətraflı cavab verilməsi qərara alınıb.**

İlk sualın müəllifi olan "Əl-Cəzirə"nin təmsilçisi oyunlara hazırlıqda korrupsiya iddialarının olması və siyasi məhbusla bağlı suallara cavab istədi. Nazir Azad Rəhimov bu yarışların Azərbaycanın tarixində ən önəmli hadisə olduğunu və hazırlıqların yüksək səviyyədə başa çatdırıldığını dedi. Avropa Oyunlarında korrupsiyanın olması iddialarını cavablandıran A.Rəhimov dedi ki, bu fikirlər əsassızdır: "Azərbaycanın idman büdcəsi ildə 10 milyon avro təşkil edir. Bu vəsait bütün idman növləri üzrə müxtəlif yarışlarda iştirak etmək üçün xərclərə, təlimlərə, idman avadanlıqlarının alınması, dərman təchizatı və digər məsələlərə sərf olunur. Dünyada hansısa bir audit şirkəti Gənclər və İdman Nazirliyinin büdcəsindən bir manatın kənara xərclənməsini sübut edərsə, mən öz vəzifəmdən istefa verməyə hazıram. Avropa Oyunlarının büdcəsinə gəlincə isə büdcə 960 milyon manat idi və sonradan 1 milyon 74 min manat sərf olundu. Ancaq biz xərclərimizi azaltmışıq. Çünki manat 31 faiz devalvasiya olunub. 134 milyon manat da manatın devalvasiyası nəticəsində əmələ gəlib. Maaşların əsas hissəsi xarici mütəxəssislərə ayrılıb. Xərcləri açıq şəkildə təqdim edə bilərik".

**"Azərbaycan çağırışlara uyğun olaraq siyasi məhbusları azad edəcəkmi" sualına cavabında prezident köməkçisi Əli Həsənov bildirdi ki, son vaxtlar Azərbaycanda azad medianın mövcud olmadığı, siyasi məhbusların olduğu ciddi şəkildə gündəmə gətirilir:** "Azərbaycan 15 ilə yaxındır Avropa Şurasının üzvüdür. Azərbaycan məhkəmələrinin qərarından kimsə razı deyilsə, bu qərardan Avropa İnsan Haqları Məhkəməsinə şikayət edə bilər. Deməli, Azərbaycan məhkəmələri heç kəsi Avropa prinsiplərindən kənar mühakimə edə bilməz. Biz Azərbaycan hakimiyyəti olaraq o iddiadayıq və buna da tam əsasımız var ki, Azərbaycanda siyasi məhbus yoxdur. Ayrı-ayrı əməllərə görə barəsində cəza çıxarılan şəxslər var. Azərbaycan hüquqi dövlətdir, burada tam siyasi fəaliyyət azadlığı mövcuddur. 55 rəsmi qeydiyyata alınmış siyasi partiya var, onlar kütləvi tədbirlər keçirməkdə, seçkilərdə iştirakda tam azaddır. Avropanın bəzi dairələri tərəfindən deyilən Azərbaycanda "siyasi məhbus var, ölkədə mətbuat azadlığı mövcud deyil" fikirləri yanlışdır". **Ə.Həsənov qeyd etdi ki, bəzi Qərb dairələri idmanı siyasiləşdirməyə çalışırlar:** "Bizdə də belə faktlar mövcuddur ki, Azərbaycanın yürütdüyü siyasətə subyektiv yanaşaraq onu başqa istiqamətə yönəldən qüvvələr var. Bunu ayrı-ayrı beynəlxalq təşkilatların fəaliyyətində müşahidə edirik. Biz müstəqil şəkildə öz yolumuzla getməyə, əməllərimizin mahiyyətini dünyaya çatdırmağa çalışırıq. Təəssüf ki, Azərbaycana qarşı kampaniya aparılır. Bununla bağlı bizdə faktlar var. Biz bundan təəssüflənirik, onları bu yoldan çəkilməyə çağırırıq".

**Administrasiya rəsmisi xarici mətbuatda yazılanların arxasında dayanan qüvvələrdən də bəhs etdi:** "Azərbaycan əleyhinə müxtəlif xarici KİV-də işıq üzü görən yazılara Bakıdan və Prezident Administrasiyasından baxanda bu, özbaşına aksiyaya oxşamır. Bizə görünən odur ki, bu prosesin arxasında duran qüvvələr var, bilərəkdən istiqamətləndirilir. Bunun nəyə görə belə olduğunu müəyyənləşdirməyə çalışırıq". **Ə.Həsənov bildirdi ki, bu dairələr Azərbaycan kimi gənc dövlətlərin belə uğur qazana bilməyəcəyi görüntüsü yaratmağa çalışır:** "İkincisi, bu qüvvələr erməni lobbisi və onun təsir dairəsində olan QHT, KİV və siyasətçilərdir. Onlar istənilən məsələ ilə bağlı dərhal anti-Azərbaycan kampaniyasını reallaşdırmağa çalışırlar. "Eurovision" yarışmasında da bunu müşahidə etdik. Üçüncüsü, Azərbaycanı davamlı təsir dairəsində saxlamağa çalışan qüvvələr var və onlar da bu kampaniyanı dəstəkləyir. Obyektiv informasiyalar almaq istədiyimiz xarici KİV, məsələn, "The Guardian", BBC kimi nəşrlər də təəssüf ki, "London platforması"nın təşkilatçılığı ilə belə kampaniyaya cəlb olunub. Diqqətdən qaçırmaq olmaz ki, bu kampaniya tək Azərbaycana deyil, həm də Avropaya, Avropa ictimaiyyətinə, Avropa Olimpiya Komitəsinə qarşı yönəlib. Bu kampaniya bir müddət sonra dayanacaq, ancaq tarixdə qalacaq, tərəqqipərvər ictimaiyyət özü buna qiymət verəcək. Azərbaycanın dostları dünyada çalışırlar ki, bu anti-Azərbaycan kampaniyası effektsiz olsun".

**A.Rəhimov da idmanın əslində sülhün bərqərar olunmasına xidmət etdiyini bildirdi:** "Bu gün Olimpiya kəndində 50 ölkənin idmançılarının birgə yaşaması bunun sübutudur. İdmanı siyasiləşdirmək istəyən təşkilatlar öz məqsədlərinə nail ola bilməyəcək". Bakıda təhlükəsizlik tədbiri və nəqliyyat sistemindəki vəziyyətlə bağlı danışan A.Rəhimov dedi ki, idmançıların tıxaclarda qalmaması, rahat şəkildə idman kompleksinə gedib çatması üçün tədbirlər görülüb: "Mümkün qədər az narahatlıq yaratmağa çalışdıq. Nəqliyyat məsələlərini həll etmək üçün 200-dən yuxarı ən müasir avtobuslar alınıb. Eyni zamanda Nəqliyyat Nazirliyi 440 yeni London taksisi almağı nəzərdə tutmuşdu. Təhlükəsizlik sahəsində isə dünyadakı ən yeni texnologiyadan istifadə olunub".

**"Komsomolskaya pravda"nın əməkdaşı oyunlara Ermənistandan olan idmançıların dəvət olunmasını xatırlatdı. "Siz onlarla necə əlaqə saxlayırsınız və Bakıdakı şahmat olimpiadasına dəvət edəcəksinizmi" sualına cavabında A.Rəhimov öncə dedi ki, 20 ildir Azərbaycan əraziləri işğal olunub. Ancaq 2008-ci ildə də Bakıdakı güləş üzrə dünya çempionatında ermənilər 41 idmançı ilə iştirak edib:** "Avropa Oyunlarında iştirak edəcək Ermənistan nümayəndə heyətinə 25 nəfər daxildir. Bundan əvvəl boksçular da bu yarışlara qatılıb. Beynəlxalq təşkilatın üzvü olan ölkələr keçirilən yarışlarda iştirak etmək hüququna malik olmalıdır. Onların təhlükəsizliyinə təminat verilməsi ilə bağlı məktub yazılıb və ermənilər də iştirak edib. 2016-cı il iyul ayında Formula-1 yarışları keçiriləcək. Orda ermənilər iştirak etməyəcək. Amma şahmat yarışlarına gələcək. Amma İslam oyunlarında ermənilər iştirak etməyəcək. 2020-ci il futbol üzrə Avropa çempionatında iştirak da onların komandasının nəticələrindən asılı olacaq".

**A.Rəhimov dedi ki, Avropa Oyunlarına hazırlıq dövründə yaradılan idman infrastrukturu artıq imkan verir ki, müxtəlif idman yarışları keçirilsin.**

**CNN-in əməkdaşının "Amnesty İnternational" təşkilatının təmsilçisinin ölkəyə buraxılmaması barədə suala cavab verən Ə.Həsənov dedi ki, bununla bağlı şəxsən araşdırma aparıb:** "Amnesty İnternational" təşkilatı adından heç kim Azərbaycana daxil olmaq üçün müraciət etməyib. Bu təşkilatdan kimsə Avropa Oyunları ilə bağlı akkreditasiyadan keçməyib. "Amnesty İnternational" təşkilatının nümayəndəsi olaraq Azərbaycana gələcək şəxslərlə bağlı nə Olimpiya Komitəsinə, nə də Xarici İşlər Nazirliyinə müraciət olmayıb: "Araşdırmalarımız zamanı bəlli olub ki, bu təşkilatın bəzi mütəxəssisləri dolayı yollarla Azərbaycana daxil olmaq istəyiblər. Yəni onlar rəsmi olaraq təşkilat adından müraciət edərək deyil, dolayı yolla, məsələn, müxtəlif qəzet və jurnalların nümayəndəsi kimi ölkəyə daxil olmağa cəhd göstəriblər. Ona görə də "Amnesty İnternational" adından yayılan bəyanatın əsası yoxdur".



**Ə.Həsənov dedi ki, Avropa Oyunları Azərbaycan və erməni xalqlarının yaxınlaşmasında pozitiv rol oynayacaq:** "Dağlıq Qarabağ əhalisi faktiki olaraq Ermənistandakı bəzi separatçı rəhbərlərin, separatçı düşüncəli şəxslərin girovuna çevrilib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti başlayandan bəri 25 ildən artıqdır ki, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Bu münaqişə ilə bağlı BMT-nin 4 qətnaməsi qəbul edilib, amma Ermənistan tərəfindən yerinə yetirilmir. Bu dövlət BMT-yə meydan oxuyur. Ermənistan yenə də təhdidləri davam etdirir. Biz zamanında xəbərdar etdik ki, əgər Dağlıq Qarabağda separatçılığın qarşısı alınmasa, oxşar hadisələr davam edəcək. Sonuncu, Ukraynada baş verən hadisələr, ondan əvvəl MDB-də baş verən hadisələr göstərdi ki, separatizmə şərait yaratmaq olmaz. Ona görə də nə qədər ki, Dağlıq Qarabağ münaqişəsi var, dünyada və bölgədə sülhün tam bərqərar olmasından danışmaq olmaz".

**Latviya qəzetinin əməkdaşı Azərbaycanda buz üstə xokkey idman növünün inkişaf edib-etməyəcəyi barədə soruşdu. A.Rəhimov dedi ki, maddi-texniki baza, mənzil qərargah olmalıdır:** "Deyək ki, biz Bakıda bir xokkey komandası yaratdıq, o, kiminlə yarışacaq. Gərək regionlarda da yaradaq, bu isə böyük xərclər tələb edir. Bakıda buz meydançası var idi, onun buzunu saxlamaq çox çətin idi. Şahdağda, Qəbələdə bu idman növünü inkişaf etdirməyə imkan var".

Avropa Oyunlarının büdcəsi ilə bağlı növbəti dəfə səslənən sualın cavabında A.Rəhimov milyardların sərf olunması barədə iddiaları qəbul etmədi. Niderlandın İkinci Avropa Oyunlarından imtina etməsindən bəhs edən jurnalistlərdən biri "450 milyard dollarlıq büdcəyə sahib olan bir ölkə necə olub 57 milyon tapa bilməyib ki, İkinci Avropa Oyunlarını keçirsin" soruşdu. A.Rəhimov dedi ki, Niderlandın büdcəsini şərh etmək hüququna malik deyil: "Amma əvvəl Niderland razılıq vermişdi, sonra fikrini dəyişdi".

**Son günlər Qərbdən artan təzyiqlər fonunda Azərbaycanın xarici siyasəti ilə bağlı sualı cavablandıran Ə.Həsənov isə bunları söylədi:** "Biz bölgədə balanslı, qarşılıqlı faydalı münasibətlərə yönələn partnyorluq siyasəti yürüdürük. Azərbaycan SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış 15 ölkədən biri oldu. O zaman qarşımızda 3 yol vardı - biri yalnız postsovet ölkələri ilə münasibətləri davam etdirmək, digəri Qərb, demokratik inkişaf, Avropa İttifaqı prinsipləri, Avropa dəyərləri istiqamətində fəaliyyət göstərmək və üçüncüsü, Asiya ölkələrinin Qoşulmamaq Hərəkatına qoşulub müstəqil siyasət yürütmək. Hər üç seçim cəlbedici görünürdü. Lakin problemləri də var idi. 1990-93- cü illərdə Azərbaycanda vətəndaş qarşıdurması, xaos yaşanırdı. 1995-ci ildə konstitusiya qəbul edildi. Azərbaycan prezidenti açıq-aşkar bəyan edib ki, biz öz yolumuzla gedirik. Siyasətimizin əsas mahiyyəti Azərbaycan xalqının maraqları üzərində köklənib. Avropa İttifaqının qonşuluq siyasəti proqramında iştirak etmək, Avrasiya İqtisadi Birliyinə qatılmaq, digər tərəfdən Qoşulmamaq Hərəkatına yönəlmək kimi cəlbedici təkliflər var. O yerdə ki Azərbaycanın maraqlarına uyğun yürüdülən siyasət var, orada Azərbaycan da var. Azərbaycan qarşılıqlı, faydalı, ikitərəfli münasibətlərə üstünlük verir. Kollektiv öhdəlik, kollektiv birlik münasibətlərinə tənqidlə yanaşır. Ona görə həm İran, həm ABŞ, həm İsrail, həm Türkiyə ilə münasibətlər qururuq. Azərbaycanın maraqlarına söykənən, lakin kimsənin maraqlarına kölgə salmayan istənilən yol bizim marağımıza uyğundur və bu regionda ən keçərli siyasətdir".

**Azərbaycana təzyiqlərin səbəblərindən bəhs edən Ə.Həsənov qeyd etdi ki, Avropa Oyunlarının qısa müddətdə Azərbaycanda təşkili bəzi qüvvələrə cəlbedici görünür və bu tədbiri qaralamaq istəyirlər:** "Erməni lobbisi, erməni dairələri də neçə illərdir istənilən məsələ ilə bağlı anti-Azərbaycan kampaniysı aparırlar. Azərbaycanın siyasətini qəbul etməyən dairələr var ki, onlar da Azərbaycanı öz yanında görmək istəyirlər".

**"Qardian"ın müxbirinin Azərbaycana daxil olmasına icazə verilməməsi barədə suala cavabında isə hər iki dövlət rəsmisi bildirdi ki, bu məsələnin rəsmi Bakıya aidiyyəti yoxdur.**

"Bu gündən başlayaraq, Azərbaycana dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri gəlməkdədir. Onların 15-20 nəfəri dövlət və hökumət başçısı, 35-40 nəfər isə dövlətləri təmsil edən yüksək vəzifəli hökumət nümayəndəsi olacaq". Ə.Həsənov Avropa Oyunlarında iştirak edəcək xarici ölkə rəsmiləri barədə danışarkən bunları bildirdi. Prezident köməkçisi Avropa Oyunlarının yüksək səviyyədə keçəcəyini vurğuladı.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT

N 127 (6155) 12 iyun 2015

**"Teleqraf" Media Qrupunun rəhbəri, sabiq deputat Aynur Camalqızı "Yeni Müsavat"ın qonağı olub gündəmin aktual mövzuları ilə bağlı suallarımızı cavablandırıb. Onunla müsahibənin 2-ci hissəsini təqdim edirik.**



# "Müxalifətin zəif olması hakimiyyətin ziyanınadır"

## Aynur Camalqızı: "Azərbaycanda YAP-dan başqa heç bir partiya seçkiyə hazır deyil"

*(əvvəli ötən sayımızda)*

***- Avropa Oyunlarından sonra Azərbaycanın əsas gündəm mövzusu, hər halda, parlament seçkiləri olacaq. Seçkilərlə bağlı ictimai-siyasi prosesləri necə proqnozlaşdırırsınız? Sizcə, seçki ili sönükmü keçəcək, yoxsa ölkənin siyasi həyatında qaynama müşahidə olunacaq?***

- Siz çox düzgün vurğuladınız ki, Avropa Oyunlarından sonra Azərbaycanda seçki ilinin qaynarlığı hiss olunmağa başlayacaq. Mən təbii ki, prosesləri izləyirəm və görürəm ki, siyasi partiyalar arasında Yeni Azərbaycan Partiyasını çıxmaq şərtilə, heç bir təşkilatda seçki əhval-ruhiyyəsi hiss olunmur. Siyasi partiyalar seçkiyə yalnız seçki ilində hazırlaşmamalıdır. Seçkiyə hazırlıq bir seçki başa çatdıqdan sonra dərhal, bütöv beş il ərzində həyata keçirilməlidir. Azərbaycanda YAP-dan başqa heç bir partiya bunu etmir. Partiyalar seçkiyə bir neçə ay qalmış hazırlığa başlayırlar ki, bunun da effekti ya az olur, ya olmur. Diqqət edirsinizsə, seçkiyə cəmi 5 ay qalıb, müxalifət partiyalarında seçkilərlə bağlı bir cəhd hiss olunmur. Ona görə də düşünmürəm ki, Avropa Oyunları bitdikdən sonra bu vəziyyət kəskin dəyişəcək. Yəqin ki, ötən parlament seçkilərində olduğu kimi sakit bir şəraitdə seçki kampaniyasının gedişini müşahidə edəcəyik. Soruşa bilərsiniz ki, bu yaxşıdır, yoxsa pisdir. Mən bütün hallarda düşünürəm ki, Azərbaycan müxalifətinin bu qədər zəif olması istər Azərbaycan dövlətinin, istər Azərbaycan hakimiyyətinin, istərsə də cəmiyyətimizin çox ziyanınadır. Müxalifətin missiyası sadəcə hakimiyyətə gəlmək deyil. O, həm də hakimiyyətdə olan siyasi qüvvələri daha yaxşı işləməyə sövq etməlidir. Çox təəssüf ki, bu missiyanı Azərbaycan müxalifəti ya yerinə yetirmək istəmir, ya bacarmır, ya da bunu etmək gücündə deyil. Münasibətləri sadəcə qaraqışqırıq, söyüş səviyyəsinə gətirib çıxarıblar ki, artıq Azərbaycan müxalifətinin hətta haqlı dediyi söz də sanballı görünmür...

***- Amma Prezident Administrasiyasının təşəbbüsü ilə iqtidarla siyasi partiyaların dialoqu keçirilir. Ötən ilin dekabrından başlayıb və artıq üç görüş olub. Hakimiyyət bir proses başladıb və bu prosesdə müxalifətin də ən müxtəlif simaları iştirak edir. Müsavat və AXCP isə dəvətə baxmayaraq iştirak eləmədilər. Sanki bu iki partiyanın iştirak eləməməsi bu prosesin legitimliyinə bir az şübhə toxumu səpir. Bu prosesin əsas aparıcı siması ölkə prezidentinin köməkçisi, administrasiyanın şöbə müdiri Əli Həsənovdur. Prezidentin köməkçisinin bu prosesdə əsas rol alması isə hakimiyyətin bu məsələdə kifayət qədər ciddi olduğunu göstərir. Bu prosesi necə qiymətləndirirsiniz və bununla hara varılacaq?***

- Mən istənilən halda ölkədə siyasi qüvvələr arasında dialoq mühitinin olmasını çox müsbət qiymətləndirirəm. Müzakirələr ümumiyyətlə ölkədə demokratiyanın, demokratik dəyərlərin və siyasi mədəniyyətin oturuşmasına xidmət edir. Tərəflər bu siyasi mədəniyyəti nümayiş etdirmək üçün özlərində güc tapmalıdırlar. Mən o prosesdə Müsavat və AXCP-nin iştirak etməməsini çox mənfi qarşılayıram. Düşünürəm ki, istənilən fürsətdən istifadə edib siyasi qüvvələr bir araya gəlməlidirlər və sözlərini məhz masa ətrafında deməlidirlər. Yəqin ki, onlara xaricdəki havadarları icazə vermir ki, dialoqda iştirak etsinlər. Mən başqa söz tapa bilmirəm. Həmişə ölkədə siyasi dialoqun vacibliyinin davasını edib sonra da dialoqdan imtina etmək məntiqsizdir...

***- Müsavatı və AXCP-ni hakimiyyətin rəsmi təbliğatı həmişə Qərbə bağlı, Qərbdən sifariş alan qüvvələr kimi təqdim edir. Maraqlıdır ki, siz indi onları Rusiyanın sifarişi ilə hərəkət etməkdə ittiham edirsiniz. Rusiya ilə bağlı olan kimdir, konkretləşdirə bilərsinizmiz?***

- Mən ilk növbədə AXCP-nin də təmsil olunduğu Milli Şuranı nəzərdə tuturam. Şübhəsiz ki, Qərbdən, Avropadan da dəstək alıb Azərbaycan hakimiyyətinə qarşı mübarizə aparan siyasi qüvvələr mövcuddur. Bu cür mübarizə aparanlar daha çox AXCP-də təmərküzləşib.

***- Siz 2005-2010-cu illərdə Milli Məclisin üzvü olmusunuz. Builki seçkidə deputatlığa namizədliyinizi irəli sürəcəksinizmi?***

- Mən beş il parlamentdə təmsil olunduğum müddəti həyatımın ən gözəl illəri kimi xatırlayıram. Düşünürəm ki, insanlarla işləmək, 40 min insanın təmsilçisi olmaq, onların sözünü parlament kimi bir ali tribunadan deyə bilmək, onları təmsil eləmək çox gözəldir, şərəfdir. Hazırda mən bir media qrupunun rəhbəriyəm. Bu media qrupunun fəaliyyəti üçün var gücümlə çalışıram, çox ciddi hədəflərimiz var. Parlament seçkilərində iştirak edib-etməyəcəyimə isə Avropa Oyunları başa çatandan sonra qərar verməyi düşünürəm. Çünki ölkədə gedən proseslərə, öz imkanlarıma baxacağam. Qələbə qazanacağıma əmin olsam, parlament seçkilərində iştirak edəcəyəm.

***- Nəzərinizdə tutduğunuz dairə varmı?***

- Qeyri-təvazökarlıq kimi səslənsə də düşünürəm ki, mənim imzam kifayət qədər tanınır və ona görə də Azərbaycanın istənilən bölgəsindən seçkiyə qatılsam, uğur qazana bilərəm. Bakının rayonları da ola bilər, hər hansı bölgə də.

***- Sanki əvvəllər deputatı olduğunuz dairəni istisna edirmiş kimi danışdınız...***

- Xeyr. Mən heç nəyi istisna etmirəm. Onu demək istəyirəm ki, hələ dairə barədə düşünmürəm. Çünki seçkidə iştirak edib-etməmək barədə qərar verməmişəm.

***- Namizədliyinizi versəniz və seçilsəniz hazırkı işiniz necə olacaq?***

- Təbii ki, hazırkı işimiz də davam edəcək. Kifayət qədər güclü redaktor korpusumuz var ki, mən heç ölkədə olmayanda belə, onlar öz işlərini kifayət qədər uğurlu şəkildə görürlər. Mən təbii ki, rəhbərlikdə qalacağam.

***- Mətbuatdan söz düşmüşkən, ümumi tendensiyanı necə hesab edirsiniz? Milli mətbuatın 140 ili gələn ay tamam olur və bununla bağlı ölkə prezidenti İlham Əliyev sərəncam verib, toplantı olub, dövlət bu təqvimə ciddi diqqət göstərir.***

- Dövlətin, cənab prezidentin milli mətbuatımızın 140 illiyinə diqqət göstərməsini, bu yubileyin xüsusi olaraq qeyd edilməsi istiqamətində atılan addımları, verilən sərəncamı çox yüksək qiymətləndirirəm. Biz də daxil olmaqla, bütün mətbuat işçiləri bunu sevinclə qarşılayırlar. Azərbaycan mediasına dəstəyə və mediada bir sıra islahatlara ehtiyac var. Ümumiyyətlə, Azərbaycan mediasında hazırkı durumu o qədər də uğurlu saymıram. Azərbaycan mediasında sağlam rəqabət çox təəssüf ki, yoxdur. Media sektorunda daha çox qeyri-peşəkarlar cəmlənib. Qeyri-peşəkarların isə fəaliyyəti peşəkarların gördüyü işə çox zaman kölgə salır. Düşünürəm ki, ümumiyyətlə bu sahədə bir xeyli işlər görülməlidir. İstər administrativ formada, istər qanunlara müəyyən əlavələr, düzəlişlər eləməklə müəyyən addımlar atılmalıdır ki, Azərbaycan mediasında bir təmizlənmə baş versin. Bu gün online mediada qeyri-peşəkarlıq xüsusilə hökm sürür. Az qala hər yerindən duran bir sayt açır. Qeydiyyatdan keçirmək və sayt yaratmaq asan olduğu üçün bu sahədə əməlli başlı bir xaosa bənzər situasiya mövcuddur. Nəticədə bizim kimi böyük kollektivlərin əməyi istismar olunur, həmin qeyri-peşəkarlar özlərini media patronu kimi təqdim eləməyə çalışırlar. Çox zaman da reket fəaliyyəti ilə məşğul olurlar, məmurları, iş adamlarını şantaj edib pul qoparmaq vasitəsilə həmin saytları saxlayırlar. İnternet mediasında çox acınacaqlı bir durumdur. Bu sahədə bir təmizlənmənin olması üçün "KİV haqqında" Qanuna müəyyən müddəalar daxil edilməlidir. Azərbaycanda sayt adı ola biləcək söz qalmayıb, hamısını domen kimi qeydiyyatdan keçiriblər. Bir şəxsin əlində 30-40 domenin olduğu hallar var. Özü də bu domenlər istifadəsiz saxlanır. Mən özüm yeni saytlar yaradarkən bunun əziyyətini çəkirdim, domen adı tapa bilmirdik. Hətta bəzən biz onu satın almağa məcbur olduq və fantastik qiymətlər oxuyurdular adama. Birinci növbədə bu problemin həlli üçün qanunlara xüsusi əlavələr olmalıdır. Azərbaycanda telekanallarla bağlı qanunda belə bir tələb var ki, telekanal təsis edən şəxslər həmin telekanalın fəaliyyəti üçün lazım olan bir illik maliyyənin olduğu bank hesabını göstərməlidirlər. Saytlar haqqında belə bir tələb yoxdur. Bir kompüteri olan sayt yarada bilir. Nəticədə isə yuxarıda qeyd etdiyimi vəziyyət ortaya çıxır.



**"Bu gün xüsusilə də online mediada qeyri-peşəkarlıq hökm sürür. Az qala hər yerindən duran bir sayt açır"**

***- Mətbuat Şurası neçə ildir reket jurnalistikaya qarşı mübarizə aparır, reket qəzetlərin adı qara siyahıya daxil edilir, onlara qarşı müəyyən cəza tədbirləri görülür. İndi belə görünür ki, həmin qəzetləri yaradanlar, işlədənlər qəzet formatından elektron varianta, sayta keçiblər. Özlərini indi də bu sahədə rahat hiss edirlər. Sizcə, Mətbuat Şurası onlarla mübarizə istiqamətində hansısa təsirli üsullara əl atmalıdırmı?***

- Mən yuxarıda bir sıra təkliflər, fikirlər səsləndirdim. Sayt yaradılarkən ofisi, rəsmi ünvanı, kollektivi olmalıdır. Ən azından bu tələblərə əməl olunub-olunmadığı araşdırıla və qanuni tədbirlər görülə bilər. Mətbuat Şurası və normal medianın nümayəndələri birlikdə təsadüfi adamlara, mediaya reketçilik vasitəsi kimi baxanlara qarşı mübarizə aparmalıdır və aparır. Sadəcə, bu işi daha da gücləndirmək lazımdır. Bütövlükdə isə mən Mətbuat Şurasının fəaliyyətindən razıyam. Əflatun Amaşov Mətbuat Şurasının sədri kimi medianın problemlərinin öz həllini tapması üçün əlindən gələni edir.

***- Medianın kağız variantı getdikcə zəifləyir, populyarlığını itirir. Bununla bağlı məsələ redaktorların ölkə prezidenti ilə görüşündə də müzakirə oldu. İlham Əliyevin də bəzi fikirləri və göstərişləri oldu. Amma vəziyyət ciddi şəkildə yaxşılığa doğru dəyişmədi Qəzetlərin satışının rentabelliyini artırmaq üçün hansı işlər görülməlidir?***

- Mən klassik mətbuatın yetirdiyi bir media təmsilçisi olduğum üçün print mediaya üstünlük verirəm. Amma bu da bir qaçılmaz gerçəklikdir ki, online media print medianı üstələyir. Bu problem var. Ona görə də düşünürəm ki, print medianın ayaq üstə qalmasının bir formasını tapmaq lazımdır. Print mediada elə materiallar dərc olunmalıdır ki, operativ xəbərçilik xarakteri daşımasın. Köhnəlməyən materiallar dərc olunmalıdır. Yollardan biri budur. Digər yolları da müzakirələrlə tapmaq olar. Qəzetə marağın azalmasını mən həm də təhsilin problemi kimi düşünürəm. Cəmiyyət savadsızlaşdıqca, onun oxumağa ehtiyacı azalır. Rusiyada "Komsolskaya Pravda" qəzeti milyonlarla tirajla çıxır və dərhal satılır. Türkiyədə çoxlu sayda qəzetlər var ki, heyrətamiz səviyyədə yüksək tirajla çıxır və satılır. Azərbaycanda insanlar köşkdən siqaret alır sağlamlığını zəhərləyir, ancaq qəzet alıb maariflənmir. Bu, savadsızlaşmanın təzahürləridir. Qəzetlərin kəndlərdə satışı üçün layihələr həyata keçirilə bilər ki, insanlarda oxumağa maraq artsın. Qəzetlərin maddi durumunun yaxşılaşmasının dünya təcrübəsində ən optimal variantı qəzetlərə reklam verilməsidir. Təəssüf ki, Azərbaycanda print mediaya heç bir şirkət reklam vermək istəmir...

***- Əlamətdar günlərdə, bayramlarda iqtidar qəzetlərində çoxlu sayda reklamlar gedir. Müstəqil qəzetlərə isə reklam verilmir. Bu, açıq-aşkar reklam ayrı-seçkiliyi deyilmi?***

- Bəli. Çox təəssüf ki, bu da var. Bir çox şirkətlər yalnız özlərinin şəxsi əlaqələri olan media orqanlarına o reklamları verirlər. Fikrimcə, dövlət, müvafiq qurumlar bu problemin həlli üçün addımlar atmalıdır.

❑ **Hazırladı: Etibar SEYİDAĞA**

**Əlbəyaxa döyüş üzrə 4 qat dünya çempionu Anar Süleymanovun arenaya Şimali İraq kürd administrasiyasının bayrağı ilə çıxması media və sosial şəbəkələrdə müzakirə mövzusudur. Yayılan fotolarda idmançının yaxasında sol tərəfdə Azərbaycan bayrağı, sağ tərəfdə isə İraq kürd muxtariyyətinin bayrağı var.**



# "Bu, ümumi olaraq bütün kürdlərin bayrağı hesab olunur"

## Tahir Süleyman səhnəyə kürd bayrağı ilə çıxan idmançıya haqq qazandırır

İdmançı özü də mətbuata açıqlamasında öz addımına haqq qazandırıb. Yarışlarda hər zaman Azərbaycanı təmsil etdiyini deyən idmançı iştirak etdiyi bütün döyüşlərdə köynəyinin sağ tərəfində kürd bayrağı olduğunu deyib. Laçın kürdü olduğunu deyən idmançı bu hərəkətini "millətinə hörmət" adlandırıb. Ancaq eyni zamanda A.Süleymanov PKK-ya dəstək vermədiyini, onlardan xoşu gəlmədiyini deyib.

Gənclər və İdman Nazirliyindən isə məsələnin araşdırılacağını və idmançının cəzalanacağını deyiblər. Ekspertlərə görə, idmançı üçün bu əməlinə görə hüquqi cəza nəzərdə tutulmasa da, oyunlardan kənarlaşdırılması mümkündür.

Qeyd edək ki, idmançının yaxasında asılan bayraq İraqın şimalında yerləşən və faktiki olaraq dövlət olan kürd muxtariyyətinə məxsusdur. Yaxın Şərq regionunun 4 ölkəsinə - Türkiyə, İran, İraq və Suriyaya - yayılan kürdlərin hələlik yeganə tanınmış muxtar ərazisi məhz Şimali İraqdadır. Ancaq maraqlıdır ki, son günlər mətbuatda A.Süleymanovun Azərbaycanda tanınmış kürd fəallardan olan



Tahir Süleyman

"Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın qohumu olması ilə bağlı iddialar ortaya atılıb.

**Ancaq "Yeni Müsavat"a açıqlamasında T.Süleyman bu iddiaları təkzib elədi. Adıçəkilən idmançını şəxsən tanımadığını desə də, onun bu əməlini normal qarşıladığını bildirdi:** "Bu haqda mətbuatdan oxudum və şərhlərimi də yazmışam. Fəxrimizdir, Azərbaycanın fəxridir. Azərbaycanda belə oğullarla fəxr edirəm. Amma onunla heç bir qohumluq əlaqələrimiz yoxdur. Anar Süleymanov Laçındandır, mən isə Qərbi Azərbaycandanam".

**T.Süleyman deyir ki, idmançının kürd bayrağı daşımasını normal qarşılayır:** "Mən dəfələrlə İraqda Azərbaycanın mənafeyini müdafiə etmişəm, Xocalı soyqırımını, heç kimin etmədiyi işləri gündəmə gətirmişəm. Azərbaycan bayrağını burdan aparıb İraqda Kürdüstan bayrağı ilə yanaşı asıb çıxış etmişəm. Mən Azərbaycan vətəndaşı olaraq bu ölkənin çörəyini yeyirəmsə, onun çətin günündə, şad günündə oluramsa, bir kürd olaraq bayrağı da gəzdirməm normaldır. Bu, həmin adamın milli sevgisidir, öz millətinə verdiyi dəyərdir. Bu nöqteyi-nəzərdən o cavan oğlanın hərəkətini normal qarşılayıram".

**Ancaq idmançının Azərbaycan vətəndaşı olduğu, ölkəmizi təmsil etdiyi halda İraq kürdlərinin bayrağını təbliğ etməsinin anlamı nədir? T.Süleyman deyir ki, idmançının yaxasından asdığı bayraq yalnız İraq kürdlərinin deyil, bütövlükdə dünya kürdlərinin simvolu kimi qəbul olunur:** "Bu, ümumi olaraq bütün kürdlərin bayrağı hesab olunur. Təkcə İraq kürdləri deyil, bütün dünya kürdləri bunu belə qəbul edir. Bu, həm Suriya, həm İraq, həm İran kürdlərinin bayrağıdır. Bu bayraq ilk dəfə 1946-cı ildə İran ərazisində yaradılmış kürd dövlətinin (Mahabad Respublikası) bayrağı olub. Sonradan bu bayrağı bütün dünya tanıyıb və dünya kürdlərinin bayrağı kimi qəbul edib".

❑ **KƏNAN**

# Partiya sədrləri açılış mərasiminə xüsusi avtobusda aparılacaq

## Onlar üçün xüsusi qonaqlar lojasında yer ayrılıb

**Azərbaycan hakimiyyəti ilə dekabr ayından başlanan və üç dəfə keçirilən görüşlərdə iştirak edən siyasi partiyaların sədrləri Avropa Oyunlarının açılış mərasiminə rəsmi dəvət olunublar. Srağagün həmin partiyaların sədrlərinə dəvətnamələr gəlib. Onlardan bəziləri, o cümlədən "Azadlıq-2015" seçki blokuna daxil olan siyasi partiyaların rəhbərləri həmin gün toplantı keçirərək dəvəti qəbul etdiklərini və oyunların açılış mərasiminə qatılacaqlarını bildiriblər. Bəziləri isə dəvət aldıqları barədə mediaya məlumat belə verməyiblər.**




Həmin partiyalardan biri ADP-dir. Partiyanın sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirdi ki, dəvətnamə məsələsini xüsusi hay-küylə ona görə qabartmağa lüzum görməyib ki, bunu normal bir hadisə sayır: "Bu məsələni biz Əli Həsənovla sonuncu görüş zamanı razılaşmışdıq. Əli Həsənov da demişdi ki, Avropa Oyunlarına siyasi partiyaların rəhbərləri də dəvət olunacaq. Dediyi kimi də oldu. Dialoqda iştirak eləyən bütün partiyaların rəhbərlərinə, o cümlədən mənə və "Qarabağ" blokundakı müttəfiqimiz Ümid Partiyasının sədri İqbal Ağazadəyə dəvətnamə gəlib. Biz Avropa Oyunlarının açılışına dəvət olunmamızı ona görə dərhal mediaya xüsusi bir xəbər kimi yaymadıq ki, bu hadisəni normal, adi bir hadisə olaraq qəbul edirik. Azərbaycanda iqtidar-müxalifət münasibətlərində o qədər qeyri-normal münasibətlər, hadisələr olub ki, indi normal bir hadisə baş verəndə insanlar qeyri-adi reaksiyalar verirlər, təəccüblənirlər, eyni zamanda sevinirlər. Kimlərsə bunu çox böyük qeyri-adi hadisə hesab edibsə, hərənin bir baxışı var".

**S.Cəlaloğlu qeyd etdi ki, müttəfiqi İqbal Ağazadə ilə bu məsələ ilə bağlı söhbəti olub:** "Hər ikimiz Avropa Oyunlarının açılış mərasiminə gedəcəyik. Siyasi partiyaların rəhbərlərini biletlə yox, qonaq qismində xüsusi dəvətnamə ilə dəvət ediblər. Bizi deputatlarla birlikdə Milli Məclisin qarşısından xüsusi avtobuslarla aparacaqlar mərasim keçirilən arenaya. Xüsusi qonaqlar üçün ayrılmış yerlərdə oturacağıq".

**S.Cəlaloğlu Müsavatla AXCP-yə dəvət gəlməməsinə belə münasibət bildirdi:** "Onlar əgər Avropa Oyunlarını boykot eləmək çağırışı ediblərsə, bu oyunların əleyhinə olan mövqe ortaya qoyublarsa, onlara dəvət göndərməyin nə əhəmiyyəti olardı. Onların özləri getməzdilər".

Qeyd edək ki, hakimiyyət təmsilçisi Əli Həsənovla görüşlərdə iştirak edən siyasi partiyaların rəhbərlərinin Avropa Oyunlarının açılış mərasiminə dəvət ediləcəyini iki ay öncə "Yeni Müsavat" özəl informasiya olaraq yaymışdı.

❑ **Etibar SEYİDAĞA**

# Əcnəbilərə dəyərli məsləhət



**Samir SARI**

**Bakı-2015-in təşkilatçılarından olan Fivecurrent şirkətinin ölkəmizə gələn turistlərə payladığı "məsləhət vərəqələri"nin içində yer alan bəzi-para sözlər bizim həssas, yuxa, mərhəmətli qəlbimizi yaralamışdır.**

Adam o məsləhətləri oxuyur, düşünür ki, gör, bu şirkət bizi avropalıların gözündə necə tanıdır.

Hayıf o milyardlara, o əziyyətlərə. Bu qədər zülm-zillət, xərc-xəsarət çək ki, avropalılar gəlib burda bizi mədəni adam sayacaqlar, məsləhətli vərəqədəki tövsiyələrdən isə elə çıxsın ki, biz barbar-zadıq, tökülüşüb əcnəbiləri yortacağıq.

O məsləhətlərin içindəki bir çox müddəalarla qətiyyən razılaşmaq mümkün deyil. Hərçənd yola, piyada keçidlərinə dair verilən məsləhətin həqiqiliyi ilə razılaşmamaq olmaz. Həmin məsləhət belədir: "Yolu keçərkən keçiddən istifadə edin. Piyada keçidindən keçəndə maşınların duracağını fikirləşməyin, çünki dayanmırlar. Yerli insanlar harda necə gəldi yolu keçir, amma siz bunu etməyin, çünki təhlükəlidir".

Burası gerçəkdir, doğrudan da qırıq xətləri olan, "zebra" adlandırılan piyada keçidlərinin üstünə çıxan adamlara yol vermək ənənəsi bizdə hələ yeni-yeni yaranır. Onu da yol polisi sürücüləri cərimələyə-cərimələyə, müşahidə kamerası ilə çəkib başlarına oyun aça-aça əmələ gətirir. Yoxsa doğrusu, bizdə piyadaya yol vermək əskik iş sayılır.

Olur ki, bir qanacaqlı, qanunlara riayət etmək istəyən sürücü piyadaya yol vermək istəyir və avtomobini qırıq xətlərin önündə saxlayır. Arxadan gələn sürücülər dərhal siqnalın belinə minir, hələ başlarını pəncərədən çıxarıb aşağıdakı kimi incə ifadələrlə ondan hərəkəti davam etdirməsini tələb edirlər: "Ə, kazyol, sür də"; "Sənə prava verəni belə-belə olsun, tupoy ... qol"; "Kişinin oğlu centlmen çıxıb ey, ə, sür, cəhənnəm ol" və sair və ilaxır.

Əgər piyadaya yol verən sürücünün əvəzinə arxada siqnal verən sürücü olsaydı, yol verməzdi, ya adamı vurub kənara atardı, ya da möhkəm qorxudardı. Belə sürücülərə görədir ki, şəhərin müxtəlif yerlərində yol polisləri qarovul təşkil ediblər, 30-40 metr aralıda dayanıb gözləyirlər, sağa-sola burularkən piyadaya yol verməyən sürücüləri tutub Kostroma inəyi kimi sağırlar. Məsələn, Bülbül küçəsindən Axundov kitabxanasının qarşısına burulan, Rəşid Behbudov küçəsinə çıxan yolda 7/18 sağım prosesi gedir, aqreqat necə lazımdır işləyir.

Belə görünür ki, avropalılar da bu xasiyyətimizi bilirlər, ona görə turistlərə xəbərdarlıq edirlər ki, gedib qərib eldə aborigenlər *(yəni yerli insanlar)* kimi yolu necə gəldi keçərkən cip təkərinin altına düşməsinlər.

Ancaq "bilin ki, Bakıda "hə" həmişə "hə" demək deyil" söhbətində qələt edirlər. Biz də "yes"in, "no"nun nə olduğunu bilirik, hətta bunu uşaqdan böyüyə bilməyən yoxdur. Hər halda hamımızın mobil telefonunda "yes" düyməsi də var, "no" düyməsi də. Dil bilməyə qalsa, Bakıda yüz minlərlə adam çulunu sudan çıxaracaq səviyyədə ən azı 3 (rus, ingilis, ana dili), Anadolu türkcəsini də saysaq, 4 dil bilir.

"Azəri kişilər şortik geyinmirlər" töhmətinin də əsası yoxdur. Kifayət qədər geyənlər var. Hətta keçən il iki gənc bizdə də işə şortiklə gəlmişdilər, güldən ağır söz demədik, dedik, istəsəniz, geyə bilərsiniz, amma ta güllü-müllü olmasın (eləydi), kişi şortiki olsun. Hərçənd o şortikə şeir qoşanlar da oldu, bir-iki misrası beləydi:

"Geyinib güllü şortiki,
Həmkar, xoş gəldin, xoş gəldin".

O həmkarlarımızdan biri işə indi də şortiklə gəlir, əynini dəyişib şalvar geyir, iş vaxtı qurtarandan sonra təzədən şortikini geyib çıxır şəhərə. Düzü, işdə şortiklə alınmır, şikayətçilər çox gəlir, bizi son instansiya hesab edirlər, onlar görsələr ki, şortikdə hərlənirik, xarizmamız cızıq-cızıq olar.

Azərbaycanlı qızların axşam saat 9-dan sonra küçəyə çıxmasının qadağan olmasına gəlincə, belə bir şey yoxdur axı. Bəs gecə saat 11-12-də işdən-gücdən evinə tək-tənha qayıdan qızlar, qadınlar kimlərdir, azərbaycanlı deyillərmi? Gecə saat 4-də şəhərin mərkəzində müşahidə kamerasının videolarına çəkilənlər var.

Bununla belə, əcnəbi turistlər bəzi məsələləri öncədən bilsələr, yaxşıdır. Əgər onlar bura lotuluğa gəlirlərsə, gərək lotuluq üçün nəzərdə tutulmuş yerdən qıraqda lotuluq eləməsinlər. Camaatın anası, bacısı var.

# Avropaya doğru, Azərbaycan!

## İdmançılarımız bu yarışların sonunda qalib gəlməsələr belə, udan Azərbaycandır! Avropaya doğru irəliləyən Azərbaycan!

**2012-ci ilin 8 dekabrı. Roma şəhəri. Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar gizli səsverməyə çıxarılır. Səsvermə nəticəsində 38 səs lehinə, 8 səs əleyhinə, 2 ölkə bitərəf qalmaqla ilk Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilir. Ermənistan məlum: düşmən ölkə gizli səsvermədə iştirakdan imtina etmişdi.**




Azərbaycanın əleyhinə səs vermiş 8 Avropa ölkəsinin adı isə bu günəcən də bilinmir. Alternativsiz bir seçkidə niyə 8 ölkənin idman yetkililəri əleyhimizə səs versin ki? Ya bizi Avropa hesab etmirdilər, ya bu mötəbər yarışı təşkil etməyimizə şübhələri vardı, ya da...sadəcə, qərəz... İnanmaq olmur ki, Avropa Olimpiya Komitəsinin 8 rəhbəri Azərbaycandakı "ictimai-siyasi vəziyyəti" düşünərək bu qərarın əleyhinə səs vermişdilər. Hər halda, Avropa Oyunları ətrafında siyasi təlatümlərin də elə bu səsverməməkdən başladığını da söyləmək olar...




### Niyə Bakı? "Yeganə", "qabiliyyətli", "ölkə..."

Sarı xətti keçdiyi üçün cərimələnən, tıxacda qalan, avtobusdan yarıyolda düşürülən, eləcə də bu tarixi hadisədən qəlbən sevinən sadə azərbaycanlı "niyə məhz Bakı" sualını mütləq heç olmasa bir dəfə özünə verib. Cavab müxtəlifdir. Onların sırasında hakimiyyətin özünü dünyada daha yaxşı tərəfdən tanıtmadan tutmuş, Azərbaycan həqiqətlərini Avropaya yaymağadək sadalanır. Amma ən doğrusunu bu möhtəşəm yarışın açılışına saatlar qalmış Avropa Olimpiya Komitəsinin baş katibi, Avropa Oyunlarının keçirilməsi ideyasının müəllifi olan Patrik Hikki dedi: "O vaxt Avropada iqtisadi geriləmə başlamışdı və Azərbaycan oyunların keçirilməsi üçün imkanı olan yeganə həyat qabiliyyətli ölkə idi..." Bir daha eşitməyə dəyər: yeganə, qabiliyyətli, ölkə...

Hikkinin nə dərəcədə səmimi olduğunu 2012-ci ilin statistikasına qısaca nəzər yetirməklə görmək mümkündür. Ən vacib faktdan başlayaq: Azərbaycan neftinin orta qiyməti 114 dollar idi... "Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2012-ci ilin 9 ayında *(dekabra hələ üç ay vardı-N.S.)* xarici ticarət dövriyyəsi 24.6 mlrd. dollar təşkil etmişdir ki, bunun da 17.8 mlrd. dolları ixracın, 6.8 mlrd. dolları isə idxalın payına düşmüşdü. Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 10% artaraq 11.5 mlrd. dollar olmuşdu. Qeyri-neft sektorunda artım 10.2% təşkil etmişdir...

2012-ci ilin ikinci rübündən etibarən dünya iqtisadiyyatında artım templərinin zəifləməsi müşahidə edilib. 2011-ci ilin əvvəllərindən etibarən iqtisadi artım templərini itirən Avrozona iqtisadiyyatı 2012-ci ilin III rübündə 0.2% azalıb. Xüsusi diqqət çəkən məqam zonaya daxil olan Almaniyada cəmi 0.3%-lik artımın müşahidə olunmasıdır. Portuqaliya (-1.2) və Finlandiya (-1.1) zonada ən çox geriləyən, İsveç (1.4), Norveç (1.2) isə zonanın ən sürətlə artan iqtisadiyyatları olmuşlar" *(daha ətraflı bu linkdə: http://www.cbar.az/assets/2507/PSI_2012_3R.pdf ttp://www.cbar.az/assets/2507/PSİ_2012_3R.pdf).*

### Məsuliyyət və inad

Azərbaycan hakimiyyəti də hansı məsuliyyətin altına girdiyinin fərqində idi. 30 aya Avropa Oyunlarına hazırlaşmaq asan iş deyil, təkcə pula bağlı da iş deyil, həm də təşkilati işdir, ən çətini. Heç nəyi xaricdən hazır gətirib burada qurmadılar, bütün idman arenaları - Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və Olimpiya Stadionu gözümüzün qarşısında tikildi. Toz-torpaqlı Dərnəgül yolu modern yol qovşağına çevrildi, yeni yollar-körpülər salındı, mehmanxanalar tikildi. Çeynənmiş tezis olsa da yeri var: Bunları Avropa Oyunlarından sonra söküb aparmayacaqlar, burda qalacaq və elə o yarışın keçirilməsini istəməyənlərin də qohum-əqrəbası gedib könlü istəyəndə hovuza girəcək, idmanla məşğul olacaq, müasir stadionda futbola baxacaq. O "sarı xətlər" də nəhayət, Avropadakı kimi təcili yardım, yanğınsöndürən maşınları üçün olacaq...

Hakimiyyət bu yarışa ev sahibliyi etdikdən sonra hansı təzyiqlərlə üzləşəcəyini bilməmiş deyildi. Bəlkə bu qədər total təzyiqlərin olacağını proqnozlaşdırmırdı. Azərbaycan iqtidarı Avropa Oyunlarına hazırlaşdığı inadla da bu təzyiqlərə qarşı dayandı. Heyrət və təəccüb etməmək mümkün deyil bu inada! Yəni üst-üstə Avropanın azadlığını istədiyi 15 məhbusu buraxmaq olmazdımı? Avropa və Amerikanı söyənlər xoru bir dəfə demir ki, bəlkə bu məhbusları buraxaq, sonra görək Şults, Merkel, lap Hitler nə deyir? Axı bu avropalıların başbilənləri niyə bizə düşmən kəsilsin ki? Niyə paxıllıqdan partlasınlar, niyə heç kimə bir pisliyi dəyməyən Azərbaycanı "qara siyahı"lara salsınlar ki? Erməni barmağı var bu təzyiqlərdə, bu kampaniyalar da, buna şübhə yox. Harada, hansı beynəlxalq təşkilatda bircə erməni varsa, orda artıq qərəz var, Azərbaycan əleyhinə iş var. İndi ayağı qırılmış, Azərbaycan əleyhinə kampaniyanın təşkilatçısı kimi təqdim edilən ABŞ dövlət katibini də, lap deyək ki, müsəlmanların Allahı yıxdı. Amma Avropa Ermənistan da deyil axı ki, bu qədər bizə qarşı qərəzli, düşmən mövqedə olsun.

Beynəlxalq təşkilatların guya İrəvanda siyasi azadlıqların olduğu barədə hesabatlarına inanmayın, Ermənistan bu işğalçı siyasətlə hələ uzun müddət Avropanın heç dümbəyi də olmayacaq. Amma Azərbaycan da əlinə bəlkə də tarixi şans kimi düşən, bu qədər zəhmət, xərc hesabına başa gələn Avropa Oyunlarından arzuedilən səviyyədə yararlana biləcəkmi? Bura gələn minlərlə idmançı, turist, idman komitələrinin məmurları, siyasət adamları özləri ilə bir parça Azərbaycan aparacaq. Amma Azərbaycan Avropanı necə, buraya istədiyi səviyyədə gətirə biləcəkmi? Ümid edək...

### Avropa Azərbaycana inanmalı və güvənməlidir

Bu yarışma bir ilkdir, Avropa Azərbaycanı hələ indi tanıyır. Bundan sonra Azərbaycana inanmalı və güvənməlidir. Elə Azərbaycan da kürəyini çevirdiyi Avropadan gərək bıçaq zərbəsi yox, dost dəstəyi görsün. Azərbaycan Asiya və Avropanın qovşağında yerləşsə də, yönü "köhnə qitə"yədir. Azərbaycanlılar antropoloji quruluşca da, ruh və qəlbən də daha çox avropalıdır. Bu, Mirzə Cəlilin dövründə də belə olub, indi də. Azərbaycan getdikcə daha çox Avropa və sivil dünyanın bir parçası olacaq. Azərbaycan Avropanın insan üçün olan ən yaxşı dəyərlərini seçməli və tətbiq etməlidir. Hər şey insan və yenə də insan üçün! Gələcək belə yarışlarda inanın ki, "sarı xəttə" ehtiyac qalmayacaq, hamı öz işini biləcək. Bu qədər səbirsizlik, anlaşılmazlıqlar, qadağalar da olmayacaq... Avropanın bizi anlaması, bizim Avropaya qovuşmamız üçün zaman da lazım bir az...

### Qərblə "qurşaq tutmaq" doğru deyil

Dostlar irad bildirir: "Niyə Avropa və dünya çempionatında hər gün yazırdın, indi isə..." İndi idmandan az, siyasətdən çox danışırlar deyirəm. Avropa Oyunları ərəfəsi idmançıların səsindən daha çox siyasət adamlarının bəyanatlarına yer vermək, meydanı QHT təmsilçilərinin və jurnalist birliklərinin dünya ilə "muskul yarışına" çevirmək əvvəldən yanlış taktika idi. Avropa Oyunlarını Vaşinqton-Bakı, Avropa-Azərbaycan qarşıdurmasına çevirmək, Avropanı "qara yara" kimi təqdim etmək, Amerikanın isə qara dərililərə divan tutduğunu hər gün car çəkmək, bir sözlə, Qərblə "qurşaq tutmaq" doğru deyildi. Bəli, bir sürü düşmənimiz var, həm Avropada, həm Asiyada, lap belə uzaq Argentinada da. Amma biz Avropa Oyunlarını "qoca qitə" ilə, dünya ilə düşmən olmaq üçün deyil, sivilizasiya ilə bütünləşmək, bütövləşmək, anlaşmaq və dostlaşmaq, dünyaya açılan pəncərə olmaq üçün təşkil etmişik. Bizə "gözünüz üstə qaşınız var" da deyəcəklər, evimizdə necə durub-oturmağımıza diqqət də yetirəcəklər, bacamızdan çıxan tüstünün rəngini də araşdırıb danışacaqlar. Bu, paxıllıqdan da doğan söz olacaq, qərəzdən də, təbii ki, əsl dost iradı da, qınağı da olacaq. Tənqidə də öyrəşmək lazımdır.

### Braziliyada da futbola qarşı çıxmaq olursa...

Braziliyada futbol üzrə son dünya çempionatında etiraz aksiyaları ara vermirdi. Sadə braziliyalıların bir qismi belə hesab edirdi ki, bu xərci çəkməyə ehtiyac yox idi, çünki ölkənin özü ciddi iqtisadi böhran keçirirdi. Braziliyada futbola qarşı çıxmaq müqəddəs Məryəmə qarşı çıxmaqdan da betərdir.

Amma yəqin orada hökumətdə heç kimin ağlına gəlmədi ki, bu etiraz aksiyasına çıxanları ölkəsini sevməyənlər sırasına yazsınlar. Azərbaycanda da Avropa Oyunlarının keçirilməsini ən müxtəlif səbəblərdən istəməyənlər təbii tapılacaqdı. Onların sırasında pensiyaçı da, müxalifətçi də, qaçqın da olacaqdı... Elə bilirsiz, Azərbaycanda hamı Qarabağın qaytarılmasını, elə Ermənistanda da, hamı Azərbaycanın məğlubiyyətinimi istəyir?

### Yarışların qalibi: könüllülər...

Etirazlar bir qırağa, baxın, yarışlara minlərlə könüllü qatılıb, hər gün avtobusda-metroda qarşımıza çıxırlar. Bu adamlar kimin nə deməsindən, nə yazmasından asılı olmayaraq şəxsən məndə




ancaq və ancaq rəğbət doğurur. Çünki onlar heç bir təmənnasız, heç bir siyasi konyuktura güdmədən yalnız Azərbaycan üçün işləyirlər. Kimi təcrübə yığır, kimi üçün sadəcə maraqlıdır, kimi öz vətəndaşlıq borcunu belə xidmətdə görür... Bu gənclər gələcək Azərbaycan, gələcək Avropadır. Avropa qurumlarının nə deməsindən, iqtidarın nə düşünməsindən asılı olmayaraq bu gənclər Azərbaycanı Avropaya, sivil dünyaya dartıb aparacaqlar. Onların sırasında gələcəyin parlaq siyasətçiləri, zəki politoloqları, tərcümanları, idmançıları, məşqçiləri yetişəcəkdir...

Avropa Oyunlarının ən böyük tapıntısı və qalibi, məncə, bu könüllülərdi.

***

**Yarışlar başlayır... Siyasət sussun, meydanlardan idmanın səsi gəlsin nəhayət. İdmançılarımız komanda hesabında bu yarışların qalibi olmasa belə, udan Azərbaycandır! Avropaya doğru irəliləyən Azərbaycan!**

**❑ Nazim SABİROĞLU**



**Bu gün ölkəmizdə ilk Avropa Oyunlarına (AO) start verilir. Həmişə olduğu kimi, siyasi məhbuslar məsələsi yenidən gündəmə gəlib. Çoxları hesab edirdi ki, yarışma öncəsi Azərbaycanda əfv sərəncamı imzalanacaq, siyasi məhbusların böyük əksəriyyəti azadlığa buraxılacaq. Gözlənilənlərin tam əksi baş verdi. İqtidar AO-ya siyasi məhbuslarla getdi...**

# Siyasi məhbuslar azad olunsaydı...

## İqtidar AO-ya siyasi məhbuslarla getdi; Fəzail Ağamalı: "Azərbaycan diktə ilə idarə olunan ölkə deyil"

**İqtidaryönlü deputat Zahid Oruc hesab edir ki, Qərbin fəaliyyəti gərginliyin artmasına səbəb oldu:** "Faktiki olaraq, Qərb dairələrinin insan haqlarına indekslənmiş fəaliyyəti hakimiyyətlə Avropa strukturları arasında gərginliyi artırdı. Azərbaycan tərəfindən yumşaldıcı işlər həyata keçirilsə də, görünən bu idi ki, ölkəmizi siyasi küncə qoymaq, müxtəlif beynəlxalq məsələlərə yönəlik qərarlar almaq idi. Düşünmürəm ki, əfv sərəncamı mühiti dəyişəcəkdi. Çünki açıq şəkildə görünən budur ki, Azərbaycan və Qərb arasında bir sıra məsələlərdə kəskin, köklü fərqlənən münasibətlər var. Xüsusilə burada Rusiya amili böyük önəm daşıyır. Azərbaycanı Qərb koalisiyasına qoşaraq, Rusiya əleyhinə savaşlara qatmaq istəyirlər. Putin Bakıya gəlir. Bir sıra əməkdaşlıq müqavilələri imzalanacaq. Bunlar həmin resurslara ehtiyacı olan Avropa ölkələrinin marağındadır? Qətiyyən yox. Onlar istəyirlər ki, Azərbaycan Rusiya ilə toqquşsun. Bu, onlar üçün bir tərəfdən qazın qiymətinin aşağı düşməsinə, eləcə də Rusiya əleyhinə olan təbliğatın effektli olmasına səbəb ola bilər".

**Deputat münasibətlərin pisləşməsində Azərbaycanın maraqlı olmadığını qeyd etdi:** "Azərbaycan xarici dairələrlə münasibətlərin pisləşməsində maraqlı deyil. Əminəm ki, bu yarışmanı idman müstəvisində qiymətləndirənlər Bakıda olmalı idilər. Əlbəttə, Merkel və Ollandsız da yarışma yüksək səviyyədə gerçəkləşəcək. Sanki biz Rusiya, İran və Asiya İttifaqının maraqlarına cavab verən idman yarışlarını keçirirmiş kimi, üzərimizə bütün müstəvilərdə gəlindi. Bunun başlıca səbəbi insan haqları deyil. Gələcək zamanlarda Avropa dairələri görəcəklər ki, Azərbaycanla münasibətlərinə yenidən baxmasalar, regional balans dəyişə bilər. Ölkəmizi qütb dəyişikliyinə vadar edə bilər. Bunu mesaj kimi söyləmirəm. Görünən budur ki, Rusiyanın Ukrayna üzərindən xarici dövlətlərlə münasibəti dəyişdikcə, MDB-dəki ölkələrin xarici siyasəti dəyişir. Qərb bunu görür, amma yüz il əvvəlki səhvini təkrarlayır".




**Zahid Oruc düşünür ki, məhbuslar buraxılsaydı belə, vəziyyət dəyişməyəcəkdi:** "İndi bəzi sayt və qəzetlərin baş manşetinə çevrilən həmin siyasi vitrin bütünlüklə bağışlansa, sabah həbsxanadan cəmiyyətə dönsələr, Azərbaycana yönəlik iddialarından əl çəkməyəcəklər. Bu qətiyyən o anlama gəlmir ki, biz kiminsə məhbus ömrünün davamlı olmasını istəyirik. Tofiq Yaqublu məsələsində bir parlament üzvü kimi biz də bildirmişdik ki, yaşadığı ailə faciəsi ilə əlaqədar onun əfvi gerçəkləşə bilər. Bu mövqeyimizi hələ də saxlayırıq. Əminəm ki, bu reallaşacaq. Amma məsələ fərdlərin üzərində deyil. Əsas məqsəd Riqa sammitinə getməyən ölkəni cəzalandırmaqdır".

**Digər iqtidaryönlü deputat Fəzail Ağamalı Azərbaycanın diktə ilə idarə olunan ölkə olmadığını söylədi:** "Azərbaycan kənar qüvvələr tərəfindən idarə olunmur. Dövlətimiz konstitusiyaya uyğun olaraq, ölkə prezidenti tərəfindən idarə olunan bir ölkədir. Qərbdən gələn bəyanatlarda daha çox ermənilərin agenti kimi tanınan Leyla Yunus, onun həyat yoldaşı Arif Yunus və onlarla eyni dərəcədə ermənilərə xidmət edən Xədicə İsmayıl daha çox önə çəkilir. Özünə hörmət edən ölkə dövlət maraqlarını satan vətəndaş barəsində cinayət işi qaldırmalıdır. O şəxs ifşa olunmalıdır. Azərbaycan bu yolla gedir. Ölkəmiz heç zaman Qərbin Azərbaycanda yaratdığı "beşinci kolon"un fəaliyyətinə imkan verməyəcək".

**Deputat Azərbaycana olan təzyiqlərdən də söz açdı:** "Ölkəmizə təzyiqlər edilir. Hətta siyasətə dəxli olmayan yarışmada Avropa ölkələrini iştirak etməməyə çağırırlar. Çox şadam ki, dövlətimiz bu cür təzyiqlərin qarşısında duruş gətirə bilir. Tutmuş olduğumuz xətdən geri çəkilmirik. Dövlətimizin maraqları hər zaman öndədir. Dövlət başçısının dediyi kimi, Azərbaycan heç kəsin diktəsi ilə idarə olunmayıb, olunmayacaq da. Çox təəssüf edirəm ki, bəzi media orqanları, hüquq müdafiə təşkilatları bildirirlər ki, gərək yarışmadan öncə məhbuslar azad olunardı. Tarixə baxsaq görərik ki, ulu öndərimizin vaxtından bu yana nə qədər əfv sərəncamları verilib. Amnistiya aktları qəbul olunub. Çoxlu sayda insan ailələrinə qovuşub. Cinayət edən cəzasını almalıdır. Elə ola bilərmi ki, kimsə cinayət etsin, beynəlxalq təşkilatların 5-10 nəfər deputatı qarşısında dövlətimiz ağ bayraq qaldıraraq onları azad etsin. O zaman Azərbaycan idarə olunan ölkə olar. Necə ki, Ermənistan Rusiya tərəfindən idarə olunur. Azərbaycan heç bir dövlətin asılılığında olmayacaq".

❑ **Cavanşir ABBASLI**

# Ali Məhkəmə sədri dələduzlara qarşı mübarizədən danışdı

## Ali Məhkəmənin Plenumu keçirilib

**İyunun 11-də Ramiz Rzayevin sədrliyi ilə Ali Məhkəmənin növbəti Plenumu keçirilib. Apelyasiya, Ağır Cinayətlər və bir sıra rayon məhkəmələri sədrlərinin və hakimlərinin iştirak etdiyi plenumda Ali Məhkəmənin sədri bildirib ki, insan hüquqlarının və azadlıqlarının təmin edilməsinin tərkib hissəsi kimi əhalinin digər hüquqları kimi mülkiyyət hüququnun toxunulmazlığı da dövlət tərəfindən qorunur və müdafiə olunur.**


Ramiz Rzayev

Mülkiyyətin mühafizəsi sahəsində konstitusion müddəalar mülkiyyətə qarşı cinayətkar qəsd edilərkən mülkiyyətin növündən asılı olaraq belə əməllərə fərqli hüquqi qiymət verilməsi barədə əvvəllər mövcud olan təcrübəni aradan qaldırmağa imkan verib. Mülkiyyət əleyhinə yönəlmiş cinayətlərin ən çox yayılan növlərindən biri də dələduzluqdur.

Xatırladılıb ki, Cinayət Məcəlləsinin 178-ci maddəsinə əsasən dələduzluq - etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etməkdə ifadə olunur. Təqsirkar zərərçəkmiş şəxsi aldadaraq və ya onun etibarından sui-istifadə edərək sonuncunu yanılma dərəcəsinə çatdırmaqla əmlakın könüllü surətdə ona verilməsinə nail olur.

Plenumda "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" məsələ geniş müzakirə olunub, təhlillər aparılıb.

Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində müəyyən edilib ki, bu kateqoriyadan olan cinayət işlərinə məhkəmələr tərəfindən baxılarkən qanunvericiliyin tələblərinə əsasən əməl edilir. Bununla yanaşı, bir sıra hallarda həm ibtidai araşdırma orqanları, həm də məhkəmələr tərəfindən işin bütün faktiki hallarının araşdırılmasına lazımi diqqət yetirilmir. Plenumda vurğulanıb ki, bəzi hallarda faktiki rüşvətxorluq cinayətinin törədilməsində vasitəçi qismində iştirak etmək vəzifəsini üzərinə götürmüş şəxslərin əməllərinə düzgün hüquqi qiymət verilməsi, təqsirləndirilən şəxslər barəsində cəza tədbirinin seçilməsi, cinayət nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş zərərin ödənilməsi məqsədilə verilmiş mülki iddiaların həlli məsələlərində səhvlərə yol verilir, mülki mühakimə icraatı qaydasında həll edilməli olan mübahisələr dələduzluq kimi qiymətləndirilərək cinayət mühakimə icraatı qaydasında həll edilir.

Plenumda ədliyyə naziri Fikrət Məmmədov, baş prokuror Zakir Qaralov və Prezident Administrasiyası Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov iştirak ediblər.

# Şeir yazmaq olar, amma...



**Hüseynbala SƏLİMOV**

**Sovetlərin vaxtında məşhur bir jurnalist-yaponşünas vardı. Soyadı da, deyəsən, V.Ovçinnikov idi. Bir dəfə verilişlərin birində o, şeir yazdığını etiraf etdi. Amma nə qədər xahiş-minnət etdilər, xeyri olmadı. Həmin jurnalist şeirlərini oxumadı ki, oxumadı...**

Əvəzində isə çox müdrik bir fikir dedi. Dedi ki, insanlar ədəbiyyata iki cür xidmət edirlər - bir hissəsi bunu öz əsərlərini dərc etməklə, bir hissəsi də bunu etməməklə...

O vaxtdan bu fikir mənim üçün bir mədəniyyət kredosuna çevrilib: hər dəfə əcaib bir şeir görəndə dərhal bu fikir yadıma düşür, deyirəm ki, axı bunu dərc etməmək də olardı...

Mən ədəbiyyatşünas, ədəbiyyat tənqidçisi deyiləm. Sadəcə tələbkar oxucuyam. Burada bir fikir deyəcəm, amma ola bilsin ki, o, yaxşı qarşılanmayacaq, çünki biz tərifi sevən xalqıq. Tərifi sevdiyimizdən də epitetə çox həssasıq...

Belə epitetlərdən biri də "şair xalq" ifadəsidir. Bunu bizə tərif kimi də, qınaq kimi də çox deyiblər. Amma bir dəfə oxudum ki, sorğulara görə amerikalıların 60-70 faizi şeir yazır, yəni onlar da "şair xalq"dır, amma bizdən fərqli olaraq onlar bunu ciddi qəbul etmirlər, buna hətta yumorla yanaşırlar...

Biz isə hər şeyi ciddi qəbul edirik... Sarılırıq qələmə. Hamımız yazırıq. Bu, azmış kimi, hamımız da öz yazdıqlarımızı dərc edirik. İşin tərsliyindən də indi bunun qarşısında bir maneə yoxdur, beş-altı yüz dollar tapıb hamı bir kitab dərc edir və bu kitabı ona-buna oxutdurmağa başlayır...

Beləcə, məlum olur ki, dünyasını dəyişmiş akademik sən demə, həm də "böyük şair" imiş və yaxud da məlum olur ki, bütün ömrü boyu kolxozda sürücü-traktorçu işləmiş adamın sinəsinin altında "əsl şair ürəyi" çırpınırmış...

Bəs vəziyyətdən çıxış yolu nədir? İnsanlara şeir yazmağı yasaq edəkmi? Yox, bu fikirdə bulunmuruq, baxmayaraq ki, bəzi ölkələrdə, məsələn, fəlsəfənin yasaq edildiyi vaxtlar olub. Amma bu, çoxdan olub və həm də ən yaxşı çıxış yolu deyil. Qərəz, insanlara şeir yazmağı yasaq etmək, hətta şeir dəftərçələri tutmağı qadağan etmək olmaz...

Biz hamımız həm də oxucuyuq. Mən hamının şeir yazmasının bir səbəbini də onda görürəm ki, bizim çoxumuz pis oxucuyuq... Yaxşı oxucu olsaydıq, hamı şeir yazmazdı, şeirlə bağlı hamının yüksək standartları, bir sözlə, yüksək zövqü olardı. Amma yoxdur. Niyə? Ona görə ki, zövqü də təhsil və dünyagörüşü formalaşdırır. Görünür, onlar ölkədə çox aşağı bir səviyyədədir... Adam zəif şeirlər oxuyur, ona elə gəlir ki, şeir elə belə də olmalıdır. Sonra da başlayır özü yazmağa... Buradan da bizim faciəmiz başlanğıc götürür. Bir də görürük ki, zövqsüzlük baş alıb gedir...

Burada yaşının az qala ahıl çağlarında "istedadı" parlayanları qeyd etməsək bir qədər natamamlıq alınar. Əslində hər şey sadədir. Bir cızma-qara edirsən və onu normal bir şairə və ya redaktora verirsən. O da sənin ya mövqeyinə və vəzifənə görə, ya da bilavasitə puluna görə onlara əl gəzdirərək ala-babat bir şeyə çevirir. Beləcə, bir də görürük ki, kimsə əlli yaşından sonra dönüb istedadlı şair olub. Bu, ona öz ictimai statusunu bir az artırmaq üçün lazımdır.

Ortada uduzan isə biz oxucular oluruq, çünki həmin cızma-qaralar bizə də gəlib çatır və biz də onları oxumağa məcbur oluruq. Oxuyuruq və əsəbiləşirik.

Bir məsələ də var ki, onu da gərək qeyd edək. Bizim dünya ədəbiyyatı ilə təmaslarımız son vaxtlar xeyli zəifləyib. Əvvəllər heç olmasa, rus ədəbiyyatını və rus tərcüməçilərinin sayəsində dünya ədəbiyyatını izləyə bilirdik...

İndi Rusiya ilə mədəni əlaqələr zəifləyib. O mənada yox ki, dövlətlər arasında hansısa problem var. Yox, bunu demirik. Problem üfüqi əlaqələrin, təmasların, birbaşa oxucu-yazar kontaktlarının zəifləməsidir...

Həm də o vaxt çox ciddi və yüksək səviyyədə orijinaldan tərcümələr vardı. İndi bu, yoxdur. Azərbaycanda hələ peşəkar tərcümə institutu formalaşmayıb. Nə vaxt formalaşacağı da bəlli deyil. Tərcüməçi minimum iki dili-öz ana dilini və xarici dili mükəmməl bilməlidir. İndi ölkədəki tərcümələrin 90 faizi rus dilindən tərcümələrdir. Onlar isə adamı elə də cəzb etmir-düşünürsən ki, imkan olar, elə rus dilində oxuyuram də ...

Elə bu səbəbdən də o qədər də ürəkaçan mənzərə görünmür-təbii ki, ədəbiyyatla bağlı... Sözsüz ki, bir qəbilə kimi də mövcud olmaq, yalnız özümüzünkülərin qaya üstünə çəkdikləri və yazdıqları ilə kifayətlənmək olar. Amma biz qəbilə deyilik axı!..



# Səmimiyyət zamanı

Zamin HACI
zaminhaci@gmail.com

"Sarısaçlı başını yellədi: - Bu adadır. Hər halda, mənə belə gəlir. Orda isə mərcan qayaları var. Ola bilsin, burada heç böyük yaşlı adamlar yoxdur"

**(Uilyam Qoldinq, "Milçəklərin hökmdarı")**

**Uca millətimiz çox safdır, uşaq kimi sadəlövhdür. O səbəbdən, 30 ildir hər cür şərə-şürə qulluq edən, hər sifətə düşən bəzi şəxslərin Avropa Parlamentinə "Bizdə siyasi dustaq yoxdur" müraciətini oxuyub şoka düşmüşdülər. Bu, həm də o deməkdir ki, millətimizin içində işıq ölməmişdir, hətta ən axırıncı yaramazların belə haçansa düzələcəyinə, adam olacağına ümid edirlər.**

Örnək üçün, yapistlərin əlindən milyardlarla neft pulunun gəlib-getdiyi, dayanmadan "hər kəsi satın ala bilərik, bizim pulumuz çoxdur" ədasıyla dolaşdıqları bir neftokratiya dövründə yaltağa döndərə bilmədikləri yüzlərlə insan oldu. O insanlar zindanlara düşdülər, ailəlikcə min cür əzablar gördülər, öldürülənlər belə oldu, xaricə qaçanlar da var idi - amma sınmadılar. Şərə xidmət etmək istəmədilər. Gözgörəsi həqiqəti tapdalamağa qıymadılar. Əgər neft pulunun zibil kimi çox vaxtında zibilə dönməyən insanlar yüzlərlə idisə, əmin olun ki, pul azaldıqca minlərlə olacaqdır. İndi bizim bir İlqar Məmmədov, bir Rəşad Həsənovumuz, bir Xədicə İsmayılımız varsa, rejim zəiflədikcə belə qorxmaz insanlarımızın sayı artacaqdır. Adi riyazi hesablama belə deyir.

Eyni zamanda baxırsan iqtidar yaltaq tapmaqda da çətinlik çəkmir. Mən pafoslu, yuxarıdan getmək tərəfdarı deyiləm və pis proqnozumu da yazmaq istərdim. Ola bilər ki, rejim bizim hamımızı "1984" romanının qəhrəmanı Uinston Smitin gününə salsın. Bunun əlamətləri var. Örnək üçün, dünən Bakıda bəzi yerlərdə hakimiyyət Avropa əleyhinə piketlər düzəltmişdi. Belə piket və aksiyaları davamlı etmək, ATƏT-in ardıyca ABŞ səfirliyini də qovub Şimal kommunist günəşi Rusiyanın bayrağı altında anti-Qərb isteriyalarını sürətləndirmək, hətta yaxın gələcəkdə balaca, mini-Şimali Koreya qurmaq olmazmı? Tamamilə mümkündür. Yaltaq ağsaqqallar, debil gənclər, repressiv polis aparatı və hırreypatriotik-hərbi kompleks - hər şey var, yağlanıb-piylənib hazır vəziyyətdə durur. Azərbaycanda elə bir "çuçxe" rejimi qurmaq olar ki, Kim Çen İn həsəddən inildəyər. Niyə də olmasın? Niyə səmimi şəkildə öz müstəqil və suveren inkişaf yolumuzu tapmayaq? Kim bizə mane olur? Bəlkə ayda bir dəfə "Məhsul" stadionuna yığışan bir qrup gülməli adamlar? Lətifə danışmayaq. Səmimiyyətimizə mane olacaq heç nə yoxdur. Məncə bu oyunları yola verəndən sonra cənab prezident yeni kursu tam elan etməlidir. Avropa bizi bəyənmirsə, biz onu dünəndən bəyənmirik.

Kimsə iddia edə bilər ki, axı Azərbaycanın iqtisadi imkanları "dəmir pərdə" çəkməyə, öz qınına girməyə çatmaz. Boş şeydir. Elə həmin Şimali Koreyada aclıqdan nə qədər adam ölürdü, BMT yardım edirdi, bəyəm xalqın ümummilli lider Kim Çen İr-ə məhəbbəti azalırdı? Uzağa getməyək, guya bizim özümüzdə 1993-2003 arası çox pul var idi? Şou ilə, qara halqaya salmaqla, zəhmətkeş məktubları ilə, AzTV ilə hamını fırladırdılar. İndi də o potensial yerində durur, heç yerə getməyib. Anara barmaq göstər, səhərisi əli aftafalı-qılınclı 1500 yazıçı ilə tində hazır olsun. Müəllimlər, həkimlər, JEK işçiləri, it boğuşduranlar, xoruz dalı yağlayanlar, jurnalist qırıqları və sairə qoşun-moşun hissələri də öz yerində.

2-ci Avropa Oyunlarını zor-xoş Hollandiyanın boynuna qoymuşdular, amma onlar bundan imtina elədi. Deyiblər 57 milyon dollar xərc çəkməyə, hansısa idmançılara pul verməyə həvəsimiz yoxdur. Bunu deyən Hollandiya təkcə gül ixracından ildə 10 milyard avro qazanır. Amma demokratik dövlətdir, hər qəpiyinin qədrini bilən, kişi kimi yaşayan milləti var. Hərçənd, bizdə Hollandiya deyəndə camaat ağzını büzür, deyirlər orda kişi yoxdur, hamısı "mavidir".

İndi bəlkə bu "filin dişisi də gəlsin" - ikincini də biz qayıraq? Ümumiyyətlə, ölkəni stadion elan edək, biz ancaq bunu bacarırıq. Şərqin bazarı var - Dubay. Bizimki də idman meydançası olsun.

O uşaqlara verilən vəsiqələri yığmaq lazım deyil.

# Dindarların dini müdafiə etməsi suçdurmu?

## Fazil Mustafa: "Mən efirdən inanclı qadınların təhqir olunmasının da əleyhinəyəm, bu təhqirin müəllifinin efirdən qovulmasının da"

**ANS-in efirində yayımlanan "İncə maraqlar" verilişinin aparıcısı Elnarə Təhməzovanın hicablı xanımları təhqir etməsindən sonra məsələ ilə bağlı başlayan ictimai müzakirələr səngimək bilmir.**

Qeyd edək ki, E.Təhməzova hicablıların qara geyinməsinə etiraz edərək, belə geyinən xanımları "bayquş"a bənzətmiş, onların neqativ enerji yaydığını bildirmişdi. Bundan qəzəblənən bir qrup dindar ANS rəhbərliyinə etirazlarını bildiriblər. Məsələyə din xadimləri də qarışaraq insanların geyiminə görə təhqir olunmasını qəbuledilməz adlandırıblar.

Daxil olan müraciətlər əsasında ANS-in Yaradıcılıq Şurası aparıcı Elnarə Təhməzovanı efirdən kənarlaşdırıb və onun müəllifi olduğu "İncə Maraqlar" və "İncə+" verilişlərinin yayımının dayandırılması barədə qərar verib.

Din və hicab məsələsi kimi həssas bir mövzu sosial şəbəkələrdən də yan keçməyib. Bəzi tanınmışlar facebook sosial şəbəkəsindəki səhifələrində dindarların bu cür etiraz bildirməsini qəbul etmədiklərini yazıb, onları digər ictimai məsələlərə qarşı laqeyd olmaqda, yalnız din təəssübü çəkməkdə ittiham ediblər.

**Məsələn, yazar Aysel Əlizadə facebookdakı statusunda bu fikirlərini paylaşıb:** "Dindarlar dini motivi olmayan heç bir problemə görə bir araya gəlib fikir bildirmirlər. Məsələn, heç vaxt təhsildəki problemə etiraz etmirlər. Demirlər ki, peyğəmbər "bir gün oxumaq ömrü boyu ibadətə bərabərdir" söyləyib. Ayrı-ayrı fərdlər olur, ancaq onlar da ictimai çəkisi olan adamlardır. Tutaq ki, biri siyasətçidir, həm də dindardır, hansısa problemi səsləndirib çıxış yolu təklif edir. Bütövlükdə isə bu zümrənin tək davası dindir. Sanki cəmiyyətdəki ədalətsizlik, qüsurlar, köklü sorunlar, mədəniyyət, ədəbiyyat, elm nədənsə onlara dəxli olmayan alayı bir şeydir".

Bu status sosial şəbəkə istifadəçiləri tərəfindən müzakirə olunub, A.Əlizadəni dəstəkləyənlərlə yanaşı onun bu mövqeyini bölüşməyənlər də olub.



**"Yeni Müsavat" qəzetinin baş redaktorun birinci müavini Azər Ayxan dindarların etirazına haqq qazandırıb:** "Qəzetçilərin haqqı pozulanda, həkimlərin, müəllimlərin maaşı kəsiləndə, pilotların əmək haqqı artırılmayanda necə etiraz edirlərsə və bu, cəmiyyətdə normal sayılırsa, dindar kəsimin, inanclı insanların da tapındıqları dəyərlər təhqir olunanda onların etirazı təbii qarşılanmalıdır. Aparıcı Mətanətin ATV-də dediklərinə, ən yaxşı cavabı siz verdiniz, Aysel Əlizadə o yazını təkcə musavat.com saytında 25 minə yaxın adam oxudu. ANS aparıcısının da təhqiredici sözləri eyni mahiyyət daşıyır. Açığı, dindarlara bu cür münasibət adamı heyrətə salır. Sanki bu kəsimin etiraz etmək haqqı yoxdur. Haqlarını tələb edən kimi cahillik, çadra, baş örtüsü və s. yada düşür. Müqayisə üçün dindar bacı-qardaşlarımdan üzr istəyirəm, amma cinsi azlıqlar etiraz edəndə, aksiya keçirəndə bu, insan haqqı sayılır. Dəyərlərimizə saygıyla yanaşaq: kimi övladının başını bağlayacaq, kimi qızının açıq-saçıq geyiminə bir söz deməyəcək, kimi saqqal saxlayacaq - buraxaq buna insanlar özləri qərar versin. İnsanların dəyərlərinə, azadlıqlarına niyə qarışaq ki? Məncə bu ölkənin, cəmiyyətin dərdi hicab geyinən qadınlar deyil. Hansısa TV-yə etiraz edən dindarlar da deyil. Əksinə, ölkəmizdə nə qədər inanclı insan olsa, bir o qədər yaxşıdır. Allaha inanmaqdan, Onu sevməkdən, hətta Yaradandan qorxmaqdan gözəl nə ola bilər ki..."

**"Yeni Müsavat"a açıqlamasında cəmiyyətdə gedən bu müzakirələrə münasibət bildirən millət vəkili Fazil Mustafa isə bildirib ki, inanclıların hicabla bağlı fikirlərə etiraz bildirməsini tənqid etmək doğru deyil:** "Hər kəs öz yaşam tərzinə görə geyim seçimində azaddır. Kimi şalvar, kimi mini ətək, kimi isə hicab geyinə bilər. Buna görə onu təhqir etmək və ya xoşagəlməz bənzətmələr etmək ən azı qanunsuzdur. Aparıcının efirdən səsləndirdiyi ifadə də mənəvi dəyərlərdən əlavə, hüquqa ziddir. Bu, inanclı insanların geyimini məsxərəyə qoymaqdır. Dindarların buna etiraz etməsinə və öz inanclarını müdafiə etmələrinə də irad bildirmək sadəcə hüquqa saygısızlıqdır. İstərsən ateist, istərsən dinsiz, istərsən də başqa bir dinin mənsubu ol, başqasının inancını ifadə edən geyim sənə mane olmursa, sənin həyatına müdaxilə etmirsə, bu haqda ictimai tribunadan o cür fikir səsləndirmək olmaz. Dini inancı müdafiə edənlərə təzyiq göstərənlər də haqsızdır. Məsələyə islahedici kontekstdən yanaşmaq lazımdır. Lakin mən aparıcının efirdən qovulmasını da yanlış hesab edirəm, o da insandır və səhv edə bilər".

**Fazil Mustafa bu məsələdə insanların aqressiv yanaşmasını qəbul etmədiyini və məsələyə islahedici yanaşmanın doğru olduğunu vurğuladı:** "Ümumiyyətlə, dindarların bu məsələyə dindar adı ilə reaksiya verməsi yanlışdır. Sosial şəbəkələrdə kimlərsə, həmin aparıcını təhqir edir, söyüş söyür, onların böyük əksəriyyəti dinçilərdir, dindarlar deyillər. Çünki İslam əxlaqına sahib olan insanlar başqasının səhvi üzərində elə davranış ortaya qoyurlar ki, onu islah etsinlər. Onu təhqir etmək, aşağılamaq isə bütün hallarda İslam əxlaqına ziddir. Peyğəmbərin karikaturası çəkiləndə də bəzi dinçilər gedib haranısa yandırmağa, partlatmağa cəhd etdilər. Vəhşiliyə vəhşiliklə cavab vermək İslam əxlaqına ziddir. Bu baxımdan irad bildirilsə daha doğru olardı".

❑ **Nərgiz LİFTİYEVA**

# Ekspert "ölkənin ehtiyat aktivləri tükənir" iddiasından danışdı

## Rövşən Ağayev: "Son 7-8 ildə ilk dəfədir tədiyə balansının ümumi saldosunda ardıcıl 2 rüb ərzində kəsr qeydə alınır"

**Son 7-8 ildə ilk dəfədir tədiyə balansının ümumi saldosunda ardıcıl 2 rüb ərzində kəsr qeyd alınır. İqtisadçı ekspert Rövşən Ağayev ümumi saldoda defisitlə bağlı statistikaya münasibət bildirərkən belə deyib.**

Onun sözlərinə görə, Mərkəzi Bank gec də olsa ilin 1-ci rübü üzrə ölkənin tədiyə balansının göstəricilərini açıqlayıb. "Diqqəti cəlb edən əsas məqam budur ki, son 7-8 ildə ilk dəfədir tədiyə balansının ümumi saldosunda ardıcıl 2 rüb ərzində kəsr qeydə alınır. Metodologiyaya görə, ümumi saldo da defisit ölkənin ehtiyat aktivlərinin əriməsini ifadə edir".

Ekspert qeyd edib ki, 2015-ci ilin ilk 3 ayının nəticələrinə görə, ölkənin ehtiyat aktivləri 4.590 milyard dollar azalıb. Halbuki ötən ilin yanvar-mart aylarında aktivlərdə 2.782 milyard dollar artım olmuşdu: "Həmçinin



Azərbaycan vətəndaşlarının xaricilərdən aldığı xidmətlərə görə 2.2 milyard dollar ödəyib. Ötən il bu, 2.5 milyard dollar idi. Həmin vəsaitin 626 milyon dolları turizmlə bağlı olub. Azərbaycana isə xaricilərin ödədiyi xidmət haqlarının məbləği isə ötənilki qədər olub- 1.1 milyard dollar. Xaricdən gələn şəxslərin Azərbaycanda xərclədiyi vəsaitlərin 542 milyon dolları turist səfərləri, 171 milyon dolları isə işgüzar səfərlərlə bağlı olub".

**R.Ağayevin sözlərinə görə, neftin qiymətinin azalması xarici neft şirkətlərinin ölkədən çıxardığı vəsaitlərin də həcminə təsir edib:** "3 ayda əcnəbilər 326 milyon dollar neft qazancı çıxarıb. Ötən ilin ilk 3 ayında həmin göstərici 815 milyon dollar olmuşdu. Amma xaricilərə ödənilən əmək haqqı 30 milyon dollardan çox artaraq təxminən 87 milyon dollar olub".

**Xaricdən Azərbaycana göndərilən pul transfertləri 234 milyon dollar olub- ötən ilin ilk 3 ayında 351 milyon dollar olmuşdu. Azərbaycandan kənara investisiya, depozit, nağd valuta formasında çıxan vəsaitlərin həcmi ötən ilin yanvar-mart ayına nisbətən 2 dəfəyədək artaraq 6.3 milyard dollar təşkil edib.**

"Əvəzində ölkəyə valyuta axını isə 1 milyard dollara qədər azalıb. Neft sektoruna birbaşa investisiyalar 100 milyon dollara qədər artaraq 774 milyon dollar təşkil edib. Qeyri-neft sektoruna birbaşa investisiyalar 10 milyon dollara qədər azalaraq 243 milyon dollar olub. Xarici portfel investisiyalar təxminən 500 milyon dollar azalmaqla 750 milyon dollar təşkil edib. Xarici kreditlər və depozitlər formasında ölkəyə daxil olan xarici valyutanın həcmi 5 dəfədən çox azalaraq 114 milyon dollar təşkil edib. Ötən ilin ilk 3 ayında 600 milyon dollara yaxın olmuşdu",- deyə ekspert fikirlərinin ümumiləşdirərək bildirib.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 127 (6155) 12 iyun 2015

# Türkiyə və Azərbaycana yeni İmralı təhlükəsi

## İki qardaş ölkə ziddiyyətli bir dönəmə girir; bu gün Türkiyədə təzə parlament öz işinə başlayır; millət vəkilləri and içəcək, ancaq hamı ona sonadək sadiq qalacaqmı? HDP Azərbaycana görə qapadıla da bilər, əgər...

**Qardaş Türkiyədə 7 iyun parlament seçkilərindən sonra yaranan yeni və yetərincə mürəkkəb situasiya bu gün növbəti fazasına adlayacaq. Yeni parlamentin ilk toplantısı olacaq, bundan öncə isə millət vəkilləri and içəcək.**

Təbii ki, Türkiyə gündəminin əsas müzakirə mövzusu koalisiyon hökumətin necə və hansı prinsiplər əsasında formalaşması ilə bağlıdır. Seçkilərdə ən çox səs qazanan AKP-nin rəhbərliyi, prezident Rəcəb Tayyib Ərdoğan bu xüsusda artıq öz mövqeyini açıqlayıb: koalisiya qurmaq istəyən qüvvə şərtsiz gəlməlidir.

Bir çox müşahidəçilərə görə, yaranmış durumda ən çox mümkün sayılan AKP-MHP ittifaqı ola bilər. Lakin az ehtimal edilsə də, AKP ilə PKK-nın siyasi qanadı sayılan, ilk dəfə olaraq Türkiyə parlamentinə düşən, faktiki, MHP ilə eyni saya (80 yer) almış HDP-nin ortaq hökumət qura biləcəyindən söz edənlər də var. Bəzi təhlilçilərə görə, HDP birbaşa yox, kənardan AKP-ni müdafiə eləməklə də yeni hökumətin təşkilinə yardımçı ola bilər - təbii ki, öz şərtləri qarşılığında.



***

Bu şərtlərin isə ağır olacağı gözlənilir - Abdulla Öcalanın azad edilməsindən tutmuş, Türkiyəni federativ dövlətə çevirmək tələblərinədək. Nəzərə alsaq ki, Türkiyəni sözəbaxan eləmək üçün Avropanın müəyyən dairələri HDP və onun lideri Səlahəddin Dəmirdaşı ciddi müdafiə edir, o zaman qardaş ölkənin qat-qat ağır bir təhdid və imtahanla üz-üzə qalacağı şübhə doğurmur. O üzdən qəti şübhə yox ki, HDP koalision hökumətdə təmsil olunsa da, olunmasa da, hədəflərinə doğru yürüyəcək - anda-filana baxmadan.

“Dəmirdaş və onun partiyası parlamentdə yer aldıqdan sonra Türkiyəyə Öcalanın rəhbəri olduğu PKK-nın yaşatdığı dövrdən daha acı bir zaman yaşadacaq”. Bu sözləri axar.az-a şərhində **politoloq Qabil Hüseynli** deyib. Onun sözlərinə görə, HDP tezliklə Türkiyədən federasiya tələb edəcək, parlamenti bir növ döyüş meydanına çevirəcək.

**Əlbəttə ki, bizi düşündürən həm də HDP-nin nə dərəcədə iki qardaş ölkənin arasını vura biləcəyidir.** Bacaracaqmı? Qabil Hüseynli: “Bu partiya Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığı dəyərləndirə bilmir. Azlıqda olan bir xalqın nümayəndəsi olsa da, Dəmirdaş Türkiyə vətəndaşıdır. O, Türkiyə əvəzinə Ermənistanı müdafiə etməli deyil. Belə hesab edirəm ki, onun Qarabağın Türkiyənin məsələsi olmaması, ermənilərdən və Ermənistandan ”soyqırım"a görə üzr istənilməsi ilə bağlı çıxışlarına görə partiyanın bağlanması haqqında məsələ qaldırılmalıdır. Çünki bu, konstitusiyaya ziddir və Türkiyənin milli, strateji maraqlarına qarşı yönəlib. Yəqin ki, iqtidarın içindən bir nəfər çıxıb, Dəmirdaşın cavabını verəcək. Əks halda o, daha uzağa gedəcək və Ankaradan federasiya, kürd dilinə dövlət dili statusu istəyəcək. Bu tələb partiyanın proqramında da var. Onun qarşısının alınması üçün indidən tədbir görülməlidir".

**Q.Hüseynli Qərbin indiyə qədər kürdlərdən Türkiyəyə qarşı istifadə etməyə çalışdığını yada salaraq deyib:** “Bu günədək ermənilərlə bərabər, hər zaman bu coğrafiyada kürdlərin hislərindən yararlanaraq onlardan istifadə etməyə çalışıblar. Qərbin çox ölkəsi bundan istifadə etməkdədir”.

***

HDP isə indi üstəlik, parlament partiyasıdır, böyük bir tribuna qazanıb. Doğrudur, onun sıralarında mandat almış kökəncə azərbaycanlılar da var. Şərqi Anadoludan millət vəkili seçilmiş, Güney Azərbaycan əsilli Kıznaz Türkel kimi. Fəqət çox sevinməyə dəymir, çünki həmin azərbaycanlı deputatların Azərbaycan-Türkiyə strateji müttəfiqliyinə, Dağlıq Qarabağ, Ermənistanla sərhədlər və saxta soyqırım məsələlərinə baxışları, yumşaq desək, ziddiyyətlidir.

Bunu Türkelin BBC-yə müsahibəsindən görmək olar. Diqqət edin, xanım azərbaycanlı ola-ola yuxarıdakı abzasda qoyulan məsələlərlə bağlı kifayət qədər yayğın ifadələr işlədir, tutaq ki, Azərbaycan kökənli MHP-li deputat Atilla Kaya kimi dərhal və birmənalı mövqe sərgiləmir, “işğala son verilməmiş sərhədlər açıla bilməz”, “saxta soyqırım tanına bilməz”, “Azərbaycan-Türkiyə əlaqələri bütün hökumətlərin və siyasi maraqların fövqündədir” söyləmir, israrla suallardan yayınır; “Azərbaycan kökənli millət vəkili kimi İqdırın maraqlarını müdafiə edəcəksiz, yoxsa HDP-nin” sualına isə belə cavab verir: “Yeri və zamanı gələndə oturub baxacağam, ona uyğun qərar verəcəyəm”.

***

Bu, hələ HDP-dən olan azərbaycanı deputatın ürkək mövqeyidir, gör indi həmin partiyanın qeyri-azərbaycanlı millət vəkilləri, erməni deputatlar hansı düşüncə sahibidir. Yeri gəlmişkən, bu gün - andiçmədən öncə Səlahəddin Dəmirdaş İmralıya gedəcəyini bildirib. Yəqin ki, böyük siyasi savaş öncəsi ondan xeyir-dua almaq üçün.

**Demək, Türkiyə-Azərbaycan strateji müttəfiqliyini doğrudan da ciddi sınaq gözləyir. Onu yeni İmralı təhlükəsi də adlandırmaq olar. Bu sınağın, yaxud əngəlin aşılması zamanı çox “başlar gedə”, andlarını pozanlar mandatını itirə, HDP isə hətta qapadıla da bilər. Çünki ələhəzrət TÜRK toplumunun iradəsi məsələsi var.**

❑ **Siyasət şöbəsi**

# Bakı Avropadan gələn basqılara qarşı

## Rəsmi şəxslərdən sərt reaksiyalar, parlamentarların və siyasilərin bəyanatı, etiraz aksiyaları...

**Azərbaycan hökuməti ilə Avropanın bir sıra aparıcı qurumları arasında yaşanan gərginlik davam edir. Beynəlxalq təşkilatların I Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycanı daxildəki problemlərə görə tənqid etməsi rəsmi Bakının sərt etirazına səbəb olub.**

İyunun 8-də Avropa Parlamentində bir qrup deputat Azərbaycana qarşı aksiyasına, ayın 10-da isə Avropa Parlamentində Azərbaycanda insan haqlarının durumu ilə bağlı dinləmələr keçirilməsinə baş nazirin müavini, YAP icra katibi Əli Əhmədov münasibət bildirib. AzərTAc-ın xəbərinə görə, Ə. Əhmədov qeyd edib ki, Avropa Parlamentinin oyunların başlanmasına 2 gün qalmış Azərbaycanda insan haqları məsələsini müzakirəyə çıxarması, nə qədər qəribə görünsə də, təəccüblü deyil: “Azərbaycan bugünlərdə tarixdə ilk Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi qayğısı ilə yaşayır. Avropa Olimpiya Komitəsinin baş katibi Patrik Hikkin ”New York Taymş" qəzetinə verdiyi müsahibəsində açıq-aşkar bildirir ki, Avropa iqtisadiyyatı gerilməyə başladığından, Azərbaycan oyunların keçirilməsi üçün imkanı olan yeganə həyat qabiliyyətli ölkə idi. Deməli, Azərbaycan ilk Avropa Oyunlarının keçirilməsi məsuliyyətini öz üzərinə götürməsəydi, həmin oyunların taleyi başqa cür ola bilərdi. Görəsən, Avropa idman hərəkatı tarixində önəmli hadisə ərəfəsində Azərbaycanı saxta ittihamlarla tənqid edən Avropa Parlamentinin üzvləri bu hərəkətlərinin nə demək olduğu barədə fikirləşirmi?"

**Azərbaycan Milli Məclisinin bir qrup deputatı isə iyunun 10-da Avropa Parlamentində keçirilmiş dinləmələrlə bağlı bəyanat verib.** “Biz, birinci Avropa Oyunları ilə bağlı 2015-ci il iyunun 10-da Avropa Parlamentində keçirilmiş dinləmələri Avropa Parlamentinin sədri cənab M.Şults və sədr müavini xanım U.Lunaçek başda olmaqla, bəzi siyasi qruplar tərəfindən ölkəmizə qarşı aparılan qərəzli və məqsədyönlü kampaniyanın davamı kimi qiymətləndiririk” - deyə, bəyanatda qeyd olunur.




Bildirilir ki, əsrlər boyu idman müxtəlif mədəniyyətləri və sivilizasiyaları təmsil edən insanları daha da yaxınlaşdıran bir amil rolunu oynayıb: “İdmanın siyasətlə qarışdırılması, yaxud siyasi proseslərdə bir alət kimi istifadə edilməsi yolverilməzdir. BMT Baş Məclisinin 2014-cü il oktyabrın 31-də qəbul etdiyi ”İdman təhsilin, sağlamlığın, inkişafın və sülhün dəstəklənməsi vasitəsi kimi" A/Res/69/6 saylı Qətnamədə də idmanın, idman oyunlarının və Olimpiya hərəkatının təşkili üçün məsuliyyət daşıyan qurumların müstəqil olması zərurəti təsbit edilmişdir. Bu müstəqilliyə hökumətlər, beynəlxalq siyasi qurumlar və ayrı-ayrı siyasət adamları tərəfindən hörmət bəslənilməsi vacibdir. İdmanın siyasətdən ayrı bir sahə kimi mövcudluğuna müxtəlif siyasi mülahizələr ilə xələl gətirilməməsinə və idman yarışlarının bundan sonra da ölkələr və xalqlar arasında birləşdirici körpü rolunu davam etdirməsinə xüsusi diqqət yetirilməlidir". Deputatlar qeyd ediblər ki, belə kampaniyalar həm ölkəmizin, həm də bütövlükdə Avropanın idman həyatında mühüm hadisəyə çevriləcək I Avropa Oyunlarının yüksək səviyyədə keçməsinə manea törədə bilməyəcək.

Bəyanatı Ziyafət Əsgərov, Bahar Muradova, Valeh Ələsgərov, Siyavuş Novruzov, Asim Mollazadə, Fazil Mustafa, İlyas İsmayılov, İqbal Ağazadə, Sabir Rüstəmxanlı, Sabir Hacıyev, Xanhüseyn Kazımlı, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Fərəc Quliyev, Səməd Seyidov, Sahibə Qafarova, Fuad Muradov, Sevinc Fətəliyeva, Gülçöhrə Məmmədova, Məlahət İbrahimqızı, Jalə Əliyeva, Sevinc Hüseynova və Sədaqət Vəliyeva imzalayıb.

İyunun 11-də isə bu gün bir qrup gənc, QHT nümayəndələri Avropa İttifaqının Bakıdakı ofisi qarşısında etiraz aksiyası keçirib (APA). Aksiya iştirakçıları Aİ-nin Azərbaycana qarşı mövqeyinin qərəzli olduğunu vurğulayıb, aparılan siyasətə etiraz ediblər. Bu qurumu ikili standartlardan əl çəkməyə çağırıblar. Etirazçılar Avropa Parlamentində Azərbaycanla bağlı dinləmələrin keçirilməsinə etiraz ediblər.

Digər bir qrup gənc isə Böyük Britaniyanın Azərbaycandakı səfirliyi qarşısında etiraz aksiyası keçirib. Aksiya iştirakçıları “İngiltərə, ikili standartlardan əl çək!”, “İngiltərə, ermənilərlə iş birliyin mübarək!”, “London platformasının insan hüquqlarına nə aidiyyatı?!”, “Azərbaycanda zor yox, hüquq işləyir!” və sairə şüarlar səsləndiriblər.

**AVP sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a bildirdi ki, Bakı bu vaxta qədər Avropa ilə münasibətləri qorumaq üçün kifayət qədər təmkin göstərdi, səbir nümayiş etdirdi:** “Hətta biz Milli Məclisdə Avropa Parlamenti ilə bağlı çox sərt çıxışlar etsək də, bu qurumla münasibətlərə son qoymaqla bağlı çağırışlar olsa da, rəsmi şəkildə addım atılmadı, indi də Bakı Avropa Parlamenti ilə münasibətlərin yüksək səviyyədə qurulması ilə bağlı addım atmaqda davam edir. Əgər Azərbaycanın bu addımları düzgün başa düşülmürsə və onun nüfuzuna qarşı təhdidlər olursa, Azərbaycanın imicinə zərbə vurulmasına cəhdlər olursa, rəsmi Bakı heç olmasa cavab xarakterli addımlar atmaq zorunda qalır. Nəhayət, bizim avropalı dostlarımız da başa düşməlidir ki, erməni çətirindən çıxmalı, vicdanları qarşısında hesabat verməlidirlər. Onlar öz-özlərinə hesabat verməlidirlər ki, biz Azərbaycandan nə istəyirik? Deməli, Azərbaycanı Liviyaya, Yəmənə döndərmək istəyirlər. Lakin Azərbaycan prezidenti və xalqı buna heç vaxt imkan verməyəcək”.

***

**Bu mövzuda danışan “125-lər” siyasi klubunun sədri İlhamiyyə Rza bildirdi ki, Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin Avropaya tək siyasi deyil, həm də mədəni inteqrasiyasıdır:** “Bu baxımdan tədbirə ev sahibliyi edəcək ölkəmizi dəstəkləyir və uğurlar arzu edirik. Avropa Parlamenti və bir sıra beynəlxalq qeyri-hökumət qurumlarının Azərbaycanda keçiriləcək oyunları boykot etmək çağırışları, aksiyalarını təqdir etmirik və təcrübə də göstərir ki, onlar pozitiv nəticə vermir. Əlbəttə ki, ölkədə insan haqları ilə bağlı bir sıra problemlər mövcuddur. Bununla da bağlı ”125-lər" siyasi klubu olaraq dəfələrlə bəyanatlar vermişik, xüsusi aktual mövzularda dinləmələr keçirmişik, ölkə prezidentinə müraciətlər ünvanlamışıq. Belə problemlərin həlli müstəqil dövlətlərin öz üzərinə düşür. Biz ölkə daxilində mövcud olan problemlərin həllinin kənarda axtarılmasını məqsədəuyğun hesab etmirik".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 127 (6155) 12 iyun 2015

# "Kredit işi" ilə bağlı yeni sensasion məlumatlar



# Beynəlxalq Bankda itən milyonlar Dubaydan tapıldı

## Cahangir Hacıyevin poladəritmə biznesi necə "əriyib"; Beynəlxalq Bankın filial müdirinin tikintisinə rəhbərlik etdiyi zavodda çeçen iş adamının da payı olub

**"Kredit işi"nə görə həbs olunmuş, hazırda Bakı istintaq təcridxanasında saxlanılan Beynəlxalq Bankın Dubay filialının müdiri Adil Hüseynovun barəsində yeni təfərrüatlar məlum olub. Xatırladaq ki, "Qara polkovnik" ləqəbli polis polkovniki Fətulla Hüseynovun oğlu Adil Hüseynov ötən ay həbs olunub. Mətbuatda yayılan məlumatlara görə, A.Hüseynov Beynəlxalq Bankdan götürdüyü 318 milyon manat krediti mənimsəməkdə ittiham olunur.**

Adil Hüseynovun vəkili Kamandar Nəsibov deyib ki, müvəkkili pulları almadığını və ayrılan kreditlərin köçürülmə yolu ilə şirkətlərə köçürüldüyünü deyib. Vəkil deyib ki, Adil Hüseynov iddia olunduğu kimi tekstil və metaltökmə zavodunun sahibi deyil. Sitat: "Həmin zavodların sahibləri hazırda «İntermet» şirkətidir. Həmin şirkətin də 50 faizi Hüseyn Marayev (çeçen əsilli Rusiya vətəndaşıdır) adlı bir şəxsin 100 faizli sahibi olduğu "Golden Bat" şirkətinə, digər 50 faizi isə Fransa vətəndaşı Xəqani Bəşirovun 100 faiz sahibi olduğu Böyük Britaniyada qeydiyyatdan keçmiş "Camelot Oil and Gaz" şirkətinə məxsusdur".

Bugünlərdə redaksiyamıza Adil Hüseynovun Dubaydakı fəaliyyəti, qurduğu zavodlarla bağlı bəzi məlumatlar daxil olub. Məlumatı redaksiyamıza ötürən mənbə deyir ki, "kredit həbslərində" Dubay "izi" göründüyündən xeyli dərindir və orta-da çox böyük pullardan söhbət gedir. Mənbə bildirir ki, Adil Hüseynovun adı Beynəlxalq Bankın Dubay filialının direktoru kimi getsə də, o, əslində Cahangir Hacıyevin Dubaydakı biznesini idarə edib. Daha dəqiqi, haqqında söhbət açılan iki zavodun meneceri olub. Söhbət "İntertekstill" fabrikindən və eləcə də "İnterstell", yaxud da "Unaytetstell" (bu şirkətin keçmiş adı olub) poladəritmə zavodundan gedir.

Onu da öyrəndik ki, əslində haqqında bəhs olunan iki zavoddan biri, yəni tekstil zavodu fəaliyyət göstərib. İkinci zavod isə metallurgiya zavodu olub və həbslərə qədər tikintisi davam edirmiş. Əsas pul maxinasiyası da məhz bu zavod üzərindən həyata keçib. Belə ki, tikintisinə 2008-ci ildə başlanan zavodun ilk sahibi Ukrayna şirkəti ilə H.Marayev olub. Ancaq tikinti yarımçıq qalıb və yarımçıq tikilini Xəqani Bəşirov və Cahangir Hacıyev alıb. Eyni zamanda, çeçen əsilli biznesmen Hüseyn Marayev də zavodda kiçik də olsa payını qoruyub saxlaya bilib. Bundan sonra zavodun tikintisinə "Baku Steel Compani" cəlb olunub və Azərbaycandan poladəritmə üzrə mütəxəssislər Dubaya göndərilib.

Lakin mənbənin bildirdiyinə görə, bir müddətdən sonra "Baku Steel Compani" ilə C.Hacıyev arasında münaqişə yaranır və zavod öz işçilərini Dubaydan geri çağırır. Yalnız 50-dək mütəxəssis Adil Hüseynovun müraciəti ilə Dubayda qalaraq zavodun tikintisini davam etdirir. Mənbə bildirir ki, Adil Hüseynov həmin vaxtdan həbs olunana qədər zavodun inşasına rəhbərlik edib və formal olaraq 6 min dollar əmək haqqı alıb. Ancaq Azərbaycanda olduğu kimi Dubayda da zavod tikintisi böyük maxinasiyalarla müşayiət olunub. Mənbəmiz bildirir ki, A.Hüseynov həbs olunana qədər bazar qiyməti 200 milyon dollar hesablanan zavodun tikintisinə ümumilikdə 350 milyon dollar xərclənib, ancaq zavod işə salınmayıb. Mənbə bildirir ki, zavodu işə salmaq üçün təxminən 50 milyon dollara ehtiyac var. Aydın olduğu kimi, zavodun tikintisində böyük miqdarda yeyinti olub. Mənbəmiz bildirir ki, zavodun tikintisinə pullar Beynəlxalq Bankdan İsveçrədə X.Bəşirovun şirkətinə, oradan da Dubaydakı hesablara transfer olunub. Bu zaman tikintinin meneceri kimi A.Hüseynovun da böyük miqdarda pul mənimsədiyi aydın olur.

Adil Hüseynovun qəfil həbsindən sonra zavodun tikintisi dayanıb. Mənbəmiz bildirir ki, hazırda zavod satışa çıxarılıb. Ancaq mütəxəssislərə məlum olan səbəblərə görə, poladəritmə sexlərinin avadanlıqları uzun müddət fəaliyyətsiz qalanda keyfiyyətini itirdiyi üçün uzun müddət işə salınmadan qalacağı təqdirdə alınan avadanlıqlar da sıradan çıxa bilər. Mənbəmiz bildirir ki, hazırda zavodun Dubayda ən yaxşı halda yarımçıq tikili kimi 100 milyon dollara satılması ehtimalı var.

Və nəhayət, hər bir bu tip hadisə zamanı olduğu kimi ən ağır zərbə Dubayda zavod tikintisinə cəlb olunmuş 50-dək azərbaycanlı işçiyə dəyib. Dubayda qaldıqları üçün "Baku Steel Compani" tərəfindən işdən çıxarılan azərbaycanlı poladəritmə mütəxəssisləri hazırda işsizdilər. Adil Hüseynovun həbsindən sonra işçilər Azərbaycana qayıtmaq üçün tikintinin maliyyə müdiri Yaşar Quliyevdən qanuna uyğun olaraq 3 aylıq təzminat istəsələr də, X.Bəşirovun nümayəndəsi olan bu şəxs işçilərə hesablaşma ödənişi etməkdən imtina edib. "Baku Steel Compani"də işlərini itirən azərbaycanlı işçilər hazırda işsizdirlər və ödəniş almaq üçün Azərbaycanın dövlət başçısına, BƏƏ-dəki səfirə müraciət etsələr də nəticə olmayıb. Yalnız səfirlikdən bildiriblər ki, qanunla şirkəti məhkəməyə verib təzminat ala bilərlər, ancaq bu iş ən azı 3 ay uzana biləcəyindən işçilər Bakıya qayıtmalı olub.

❑ **KƏNAN**

# Xələcdəki məhkum üsyanı haqda yeni xəbərlər

## Ombudsman Aparatı 5 saylı cəzaçəkmə müəssisəsində apardığı araşdırma haqda niyə məlumat vermir?

**İyunun 6-da Ombudsman Aparatının bir qrup əməkdaşı Ədliyyə Nazirliyinin Salyan rayon Xələc qəsəbəsindəki 5 saylı cəzaçəkmə müəssisəsinə baş çəkib. "Trend"in məlumatına görə, onlar həmin müəssisənin rəhbərlərinə əvvəlcədən məlumat vermədən dustaqların şikayətlərini araşdırıblar. Amma belə kütləvi şikayətin mahiyyəti və araşdırmanın nəticələri barədə hələlik rəsmi məlumat verilmir.**

Yada salaq ki, mayın 13-də Salyanın Xələc qəsəbəsində yerləşən 5 saylı cəzaçəkmə müəssisəsinə qoşun yeridilib, 10-dan çox məhkumu qara maskalılar döyə-döyə oradan çıxarıblar. Sonradan bəlli olub ki, məhkumları Bakıya, Binə qəsəbəsindəki Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə ("Tubzon") aparıblar. Redaksiyamıza daxil olan məlumatda deyilirdi ki, cəzaçəkmə müəssisəsində rəhbərlik dəyişdirilib. Yeni rəisin tətbiq etdiyi sərt qaydalar məhkumlar arasında ciddi narazılığa səbəb olub. Nəticədə müəssisə əməkdaşları ilə məhkumlar arasında mübahisə yaranıb, ciddi narazılıq olub. Məhkumlar elementar haqlarının tapdanmasına son qoyulmasını tələb etsələr də, qoşun yeridilməklə onların narazılığı zorakılıqla dəf edilib. Bundan sonra 10-dan çox məhkum "Tubzon"a köçürülüb.

İndi Ombudsman Aparatının apardığı yoxlamanın həmin müəssisədə mayın 13-də baş vermiş kütləvi etiraz, yoxsa başqa hadisə ilə bağlı olduğu məlum deyil.

**Bu barədə nə Ədliyyə Nazirliyi, nə də Ombudsman Aparatından rəsmi məlumat vermir.**



**Ombudsman Aparatı mətbuat xidmətinin rəhbəri Zemfira Məhərrəmli AzadlıqRadiosuna bildirib ki, onların əməkdaşları nə görüblərsə, onu Ədliyyə Nazirliyinə yazıblar:** "Ombudsman Aparatının Milli Preventiv Qrupu işgəncələrə qarşı mübarizə ilə bağlı həbsxanaya yoxlamalara gedirlər. Nə görüblərsə, məlumatda yazılıb. Buna əlavə şərh verilmir."

**Hüquq müdafiəçisi Oqtay Gülalıyev isə hesab edir ki, Ombudsman Aparatı həbsxanalardan gələn şikayətlərlə bağlı ictimaiyyəti məlumatlandırmalıdır:** "Praktika onu göstərir ki, Ombudsman Aparatının istər bu, istərsə də digər məsələlərlə bağlı təsir imkanları yoxdur. Bir neçə ay öncə 14 saylı CÇM-də məhbus Elşad Babayev işgəncə ilə öldürüldü. Bu işin araşdırılması ilə müəyyən qədər Ombudsman Aparatı da məşğul oldu. Ortaya heç bir nəticə çıxmadı".

Qeyd edək ki, 5 saylı cəzaçəkmə müəssisəsindən qara maskalılar tərəfindən naməlum istiqamətə aparılanlar sırasında hicab məhbusları Surac Ağayev və Elimxan Hüseynov da var. Yada salaq ki, ötən ilin dekabrında 14 saylı cəzaçəkmə müəssisəsində məhkum Elşad Babayevin öldürülməsi məhkumların kütləvi etirazına səbəb olmuşdu. Bu olaydan 4 gün sonra müəssisəyə xüsusi təyinatlılar yeridilmiş, məhkumlar kütləvi şəkildə döyülmüşdülər. Onlardan 11 nəfəri "Tubzon"a köçürülmüşdü. O vaxt "Yeni Müsavat"a açıqlama verən məhkum İsa Yaqubovun anası Aynur Yaqubova "Tubzon"u Gestapoya bənzətmişdi.

**Sitat:** "Elşad Babayevin öldürülməsindən sonra onları "Tubzon"a köçürüblər. Ora işgəncə yeridir. Oranın rəisi Nizami Quliyev uşaqlara işgəncə verdirib. Onların əllərinə 4 qandal vurdurmaqla, 10 gün əli bağlı vəziyyətdə karsda saxlayıblar.

10 gün ərzində tualetə getməklərinə belə şərait yaradılmayıb. Deyiblər ki, saxlandığınız yer elə tualetinizdir. Təsəvvür edin ki, o vəziyyətdə 10 gün uşaqlar qalıb. Üzləri havasız şəraitdə saxlandıqlarına görə şişkindir, rəngləri ağarıb. O qədər vurublar ki, İsanın ağzında dişləri qalmayıb. Belə Allahsızlıq olar? Belə müsəlmançılıq olar? Xocalıda, Şuşada azərbaycanlılara qarşı vəhşilik edən erməni ilə bu adamların arasında nə fərq var? Uşaqlarımızı "Tubzon"a döyməyə aparıblar, onları orada möhkəm döyüblər. Ora işgəncə zonudur. Məhkumun əlinə 4 qandal vurub döydürən Nizami Quliyevdir. Ora gestapodur, bu da gestapo şefidir. Allah onu etdiklərinə görə heç bağışlamasın".

Məlum olmuşdu ki, vərəm olmayan məhkumları "Tubzon"a köçürüb onları əl-qolları bağlı vəziyyətdə döyüb işgəncələrə məruz qoyur, ağır şəraitdə saxlayırlar. Məhkumların yaxınlarının Azərbaycanda fəaliyyətdə olan Qırmızı Xaç Cəmiyyətinə, Ədliyyə Nazirliyi yanında İctimai Komitəyə müraciətləri də cavabsız qalmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 127 (6155) 12 iyun 2015

# Rizvan Vahabov vətəndaşların mülkiyyətini mənimsəməkdə suçlanır

## Neft Kəmərləri İdarəsinin sabiq rəisi 7 nəfərin haqqına girməkdə ittiham olunur; "Guya onun vaxtilə süpürgəçi işləmiş 80 yaşlı qayınanası 4 milyona yaxın pulu verib o obyektləri alıb"

**Neft Kəmərləri İdarəsinin sabiq rəisi Rizvan Vahabovun adı yeni qalmaqalda hallanır. Redaksiyamıza müraciət edən Sevinc Rəcəbova, Təranə Hüseynova, Anar Əsədov, Vüsalə Xamıyeva, Zamik Əhmədov, Əhliman Alıyev və Adil Kazımov deyirlər ki, keçmiş məmurun qanunsuz hərəkətləri bu gün də davam edir.**

**Şikayətçilər 2011-ci ildə Murtuza Muxtarov 145 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. A.Əsədovun sözlərinə görə, onunla birgə Zamiq Əhmədov həmin binanın 1-ci mərtəbəsində qeyri-yaşayış sahəsi alıb:** "Bütün alqı-satqı əməliyyatı bank üzərindən həyata keçdi. Mənim də, Zamiqin də aldığı əmlaklar İlqar adlı şəxsə məxsus idi. Qanunun tələb etdiyi kimi sənədlər BTİ-yə təqdim olundu, 2 ay ərzində bizə təzə "kupça" (mülkiyyət haqda çıxarış) verildi. Heç bir problem olmadı. Az sonra Yasamal Rayon Məhkəməsindən çağırış gəldi. Məlum oldu ki, 80 yaşlı Anna Sergeyevna Qoloveşkina Zamiqlə mənə və həmin ünvanda olan bütün obyekt sahiblərinə qarşı iddia qaldırıb. İddiasında göstərib ki, binada olan bütün qeyri-yaşayış sahələri və bəzi mənzilləri müqavilə əsasında "Volbak" MMC-dən alıb. Buna görə MMC-yə 3 milyon 682 min dollar ödəyib. İddia 8 nəfərə qarşı qaldırılmışdı. Yasamal məhkəməsinin hakimi Abbas Rzayev dövlət orqanlarından bizə verilən sənədlərə baxmayıb A.Qoloveşkinanın iddiasını təmin etdi".

**Şikayətçilər deyirlər ki, A.Qoloveşkina milyonçu, keçmiş Dövlət Yanacaq Komitəsinin 1-ci müavini, sonradan ARDNŞ-in Neft Kəmərləri İdarəsinin baş direktoru işləmiş Rizvan Vahabovun qayınanasıdır. Bu baxımdan vaxtilə süpürgəçi işləmiş A.Qoloveşkinanın arxasında məhz R.Vahabovun dayandığına da şübhə etmirlər:** "Məhkəmə prosesinin gedişində bizə aydın olub ki, obyekt aldığımız həmin binanın tikintisini "Volbak" MMC həyata keçirib. Bu MMC-nin sahibi Əflatun Piriyev olub. Faktiki isə binanın tikintisini və satışını Hümbət Məmmədovla Rizvan Vahabov həyata keçiriblər. Əflatun Piriyev öldürüldükdən, bu qətlə görə Hümbət Məmmədov həbs olunduqdan sonra Rizvan Vahabov baş verənləri fürsət bilərək bizə qarşı qanunsuz iddialarla çıxış etməyə başladı. O, özü birbaşa deyil, qayınanası A.Qoloveşkinanı qabağa verməklə yaşlı qadını da yalan danışmağa sövq edir. Yasamal Rayon Məhkəməsinin çıxardığı qanunsuz və əsassız qətnamədən apelyasiya şikayəti verdik. Hakim Mehdi Əsədov apelyasiya şikayətini obyektiv araşdırdı. Məhkəmədə R.Vahabovun qayınanasının yalanı çılpaqlığı ilə üzə çıxdı.

A.Qoloveşkinanın vəkili məhkəmədə deyirdi ki, pulu 80 yaşlı qadın özü "Volbak" MMC-yə apararaq ödəyib. Hakim vəkilə sual verib dəqiqləşdirdi ki, pulu məhz 80 yaşlı qadın ora aparıb və ödəyib. Bundan sonra hakim aydınlaşdırdı ki, 3 milyon 682 min dollar təxminən 80 kiloqrama yaxındır. Vəkilə sual etdi ki, 45 kiloqrama yaxın çəkisi olan 80 yaşlı qadın belə ağır yükü necə daşı-



Rizvan Vahabov

yıb? Vəkil suala cavab verə bilmədi.

Növbəti prosesdə R.Vahabovun qayınanasının vəkili onun dilindən daha bir yalanı ifadə etdi. Dedi ki, A.Qoloveşkina həmin obyektlərə və mənzillərə görə pul ödəməyib. Torpaqla barter ediblər. Bakı Apelyasiya Məhkəməsi iddiaçı tərəfin yalanlarını, saxta sənədlərini araşdırıb bizim xeyrimizə qərar verdi. Bununla yanaşı, A.Qoloveşkinanın vəkili proses zamanı vəsatət verib onun mübahisə obyekti olan qeyri-yaşayış sahələrinə və mənzillərə görə pul ödəyib-ödəməməsini aydınlaşdırılmasını istəmişdi. Hakim xüsusi qərardadla həmin vəsatətin araşdırılması üçün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə (KQMİ) yolladı.

Qarşı tərəfin vəkili bu vəsatəti verərkən işin uzadılması məqsədini güdürdü. İstəyirdilər ki, iş uzansın, biz şikayətçilər bezib geri çəkilək. Lakin öz vəsatətlərinə əsasən özlərini ifşa etdilər. KQMİ-də aparılan araşdırma zamanı bir daha üzə çıxdı ki, A.Qoloveşkinanın adına olan "Volbak" MMC ilə bağlanmış müqavilələr, kassa mədaxil orderləri saxtadır. Bu qadın tərəfindən "Volbak" MMC-yə bir qəpik belə pul ödənilməyib. Rizvan Vahabov 80 yaşında qadını məcbur edir ki, yalan ifadə versin. O da məhkəmələrdə yalan danışır, deyir ki, 3 milyon 482 min dollar və 200 min dolları şəxsən nağd pulla ödəyib. Qadın KQMİ-də ikinci dəfə yalan ifadə verib ki, o, pul ödəməyib, bu müqavilədəki pulun əvəzinə torpaq verib. İdarədə bu məsələ də araşdırılıb. Məlum olub ki, həmin torpaq dövlətindir. A.Qoloveşkina iddiasında göstərdiyi mülklərə görə heç bir pul ödəməyib, heç bir əvəzləşmə də olmayıb. KQMİ-də aparılan araşdırmanın nəticəsində çıxarılan qərarla da A.Qoloveşkinanın iddiasında göstərdiyi mülklərə heç bir aidiyyətinin olmadığı təsdiqləndi. Bütün bunlara baxmayaraq qadının barəsində heç bir tədbir görülmədi. Baxmayaraq ki, qadın hər dəfə ifadə verməyə çağırılanda yalan ifadə verməmək barədə iltizama qol çəkib.

Rizvan Vahabov KQMİ-nin çıxardığı qərardan Binəqədi Rayon Məhkəməsinə şikayət verdi. Məhkəmə şikayəti araşdıraraq qərarın qanuni olduğunu təsdiqlədi. R.Vahabov məhkəmənin qərardadından apelyasiya şikayəti verdi. Apelyasiya instansiyasında qərardad qüvvədə saxlandı.

Bir daha R.Vahabovun qayınanasının iddiasının əsassız və saxta olduğu təsdiqləndi.

Qarşı tərəf Ali Məhkəməyə müraciət etdi. R.Vahabov əlaqələrindən istifadə edərək işi apelyasiya instansiyasına qaytartdırdı. Hakim Elnur Həsənov 2 ay müddətində işi yenidən araşdırdı və Yasamal Rayon Məhkəməsinin qətnaməsini qüvvədə saxladı. R.Vahabovun kürəkəni Elvin hər yerdə deyir ki, bizim arxamızda ədliyyə nazirinin müavini Azər Cəfərov dayanıb. Hesab edirik ki, məhkəmənin qanunsuz qərar verməsində nazir müavininin təsiri olub. Biz Ali Məhkəməyə müraciət edib əsassız və qanunsuz olan qərarın ləğvini tələb etmişik. Şikayətçilər prezidentə müraciət edərək R.Vahabovun qanunsuzluqlarının araşdırılmasını da istəyiblər.

İşə iyunun 19-da baxılacaq".

Şikayətçilər deyir ki, 4 ildir ki, məhkəmələrdədirlər və Rizvan Vahabovun qanunsuzluqları haqda çoxsaylı məlumatlar öyrəniblər.

Şikayətçilərin redaksiyamıza təqdim etdiyi sənədlərdə R.Vahabovun Ermənistana neft məhsulları satması kimi ciddi bir ittiham da yer alıb. Onun saxtakarlıqla deputat seçilməyə cəhd etməsini ifşa edən sənəd də redaksiyamıza təqdim olunub. Növbəti saylarımızda həmin şikayətləri təqdim edəcəyik.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Şeyxin Tərtərə helikopterlə qəfil səfərinin şok təfərrüatları

## Hakimiyyət bu rayondan Suriyaya döyüşməyə gedənlərin sayının artmasından narahat olduğu üçün QMİ sədrini təlimatlandırıb; Paşazadənin yerli İH başçısı və ruhanilərlə görüşdüyü deyilir

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə iyunun 10-da Tərtərə səfər edib. Yerli mənbələrdən aldığımız məlumata görə, Şeyx Tərtərə tək getməyib, onu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, eləcə də QMİ və QDİDK sədrlərinin müavinləri, tanınmış şərqşünas-alim Vasim Məmmədəliyev müşayiət edib. O da bildirilir ki, Şeyxülislam Tərtərə helikopterlə gəlib.**

Tərtərdə yerli icra başçısı ilə görüşən Şeyxülislam daha sonra ruhanilərlə bir araya gəlib və Tərtər Cümə məscidinə baş çəkib. Bizə verilən məlumata görə, Şeyx baxımsız qalan məsciddə günorta namazı qılıb, daha sonra məscidin otaqlarına baxış keçirib, binanın uçulub dağılmasından narahatlığını bildirib. Şeyx bildirib ki, öz şəxsi hesabından Tərtər məscidinin təmirinə 10 min manat ayırır. Eyni zamanda DQİDK sədrinə dövlətin müvafiq fondundan pul ayırmağı təklif edib. M.Qurbanlı Şeyxin təklifini dəstəkləyib, Tərtər məscidinin təmirinə yardım ediləcəyini bildirib. Mənbə bildirir ki, Şeyx Tərtərdə görüşlərdən sonra Bərdəyə yola düşüb.

Qeyd edək ki, Tərtər rayonundan son illərdə çoxlu sayda sakin Suriyaya gedərək radikal qruplara qoşulub. Mətbuatın yazdığına görə, son 3 ildə rayondan bir neçə nəfər Suriyada gedən döyüşlərdə öldürülüb, yaxud da yaralanaraq Türkiyəyə aparılıb. Hazırda Suriyada gedən döyüşlərdə onlarla rayon sakininin olduğu güman edilir. Tərtərdə 90-cı illərdə vəhhabilik geniş yayılıb və yerli əhali arasında tərəfdar toplaya bilib. Sonrakı illərdə də rayonda vəhhabilər, radikal islamçılar xeyli fəal olublar. Ancaq Suriyada başlayan iç savaş və bu savaşda çoxlu sayda azərbaycanlıların öldürülməsindən sonra hakimiyyət orqanlarının respublika səviyyəli tədbirləri Tərtərdə də həyata keçirilib. Hüquq-mühafizə orqanları Tərtərdə radikal qrupların üzvü olan bir neçə nəfəri həbs edib, eyni zamanda rayonda radikal qrupları dəstəkləyən, onlara yardım edən şəxslər son aylarda nəzarətə götürülüb. Məhz bu cür xəbərlərin yayılmasından sonra Şeyxülislamın Tərtərə səfər etməsi rayonla bağlı hakimiyyətin narahatlığının hələ də qaldığını göstərir.

Rayondan verilən məlumata görə, son bir ildə hüquq-mühafizə orqanları Tərtərdə radikal qrupların üzvləri, onlara maliyyə dəstəyi verən, himayə edən şəxsləri nəzarətə alıb. Mətbuatda hətta hakimiyyət orqanlarında təmsil olunan bəzi şəxslərin belə qrupları dəstəkləməsi ilə bağlı xəbərlərin yayılmasından sonra hakimiyyət orqanları rayonda fəal vəhhabilər və onların nüfuzlu himayədarlarını nəzarətə götürüb.

Görünür ki, Şeyxin səfəri dini vəziyyətlə yerində tanış olmaq, dini icmaların, ruhanilərin problemlərini dinləmək və müvafiq addımları planlamaq məqsədli olub. DQİDK sədrinin də Şeyxi müşayiət etməsi bununla əlaqələndirilir. Bu isə onu deməyə əsas verir ki, yaxın zamanlarda hakimiyyət orqanları Tərtərdə radikal qrupların dayaqlarını məhv etmək üçün genişmiqyaslı fəaliyyətə keçəcək.

❑ **MEHDİ**

YENİ MÜSAVAT
N 127 (6155) 12 iyun 2015

# Elektrik enerjisinin qiyməti ilə bağlı müəmma

**Azərbaycanın elektrik enerjisinin tarifi qaldırıla bilər. Bu məsələnin gündəmə gəlməsinə səbəb "Fitch" beynəlxalq reytinq agentliyinin yaydığı məlumatdır. Məlumatda qeyd edilir ki, son illər "Azərenerji" ASC-nin xərcləri artsa da, sonuncu dəfə elektrik enerjisinin tarifləri 2007-ci ildə dəyişib: "İnvestisiya qoyuluşlarının azaldılmasının təzminatı tariflərin artırılması ola bilər.**

Lakin bu, "Azərenerji" üçün çətinlik yarada bilər. Çünki şirkətin yanacağa xərclədiyi vəsait əməliyyat xərclərinin yarısına bərabərdir. 2013-cü ilin dekabrından etibarən "Azərenerji"yə satılan hər 1 000 kubmetr qazın qiyməti 63% artaraq 80 manata çatıb. Lakin həmin dövrdən əhaliyə satılan elektrik enerjisinin tarifi dəyişməyib. Şirkətin gözləntilərinə görə, ortamüddətli perspektivdə elektrik enerjisi və qaz tarifləri dəyişməyəcək". Fitch" beynəlxalq reytinq agentliyinin ekspertləri bu fikirdədirlər ki, əgər sərf olunan qazın qiyməti artıbsa, bu, elektrik enerjisinin maya dəyərinin də artması deməkdir və hazırkı tarifin qaldırılması üçün iqtisadi zəmin yaradır.

Qeyd edək ki, hazırda bütün istehlakçılar üçün elektrik enerjisinin pərakəndə satış tarifi 1 kVt/saat üçün 6 qəpik (ƏDV daxil) səviyyəsində müəyyənləşib.

Tarif Şurasından "APA-Economics"ə bildirilib ki, hazırda tarifin artırılması nəzərdə tutulmayıb.

Ancaq bununla belə, "Azərenerji" ASC-nin çətin vəziyyətdə olması fikri də əsassız deyil. Belə ki, bu qurumun Dövlət Neft Şirkətinə olan borcu ilbəil artmaqdadır. Son məlumatlara görə, 1 iyun 2015 tarixinə "Azərenerji" ASC-nin SOCAR-a olan borcu 485 milyon manata çatıb.

**"Azərişıq" ASC-nin nümayəndəsi Tanrıverdi Mustafayev "Yeni Müsavat"a bildirib ki, ümumiyyətlə quruma belə bir məlumat daxil olmayıb:** "Biz sadəcə enerjinin satışını həyata keçirən bir qurumuq. Elektrik enerjisinin tarifini biz müəyyənləşdirmirik, bizim səlahiyyətimizdə olan bir məsələ deyil. Biz icraçı qurumuq və hər hansı qərar olarsa biz onun icrasını həyata keçirəcəyik. Hələ ki bizə enerji tarifinin artacağı ilə bağlı məlumat daxil olmayıb. Bizim tərəfimizdən də Tarif Şurasına hər hansı müraciət olmayıb".

Tarif Şurası da hazırda belə bir məsələnin müzakirə olunmadığını bildirib.

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə elektrik enerjisinin qiymətinin artması ilə bağlı iqtisadi zəmin olmadığını bildirib:** "Mən bu məlumatı o qədər də əsaslandırılmış bir faktor hesab etmirəm. Çünki "Azərenerji" ASC-nin Dövlət Neft Şirkətinə olan 485 milyon manat borcu var və bu borcun yaranmasının səbəbi "Azərenerji"nin menecment, idarəçilik işinin düzgün qurulmaması səbəbindəndir. Bu reytinq agentlikləri də milyonlarla dollara dövlət qurumları üçün illik hesabatlar hazırlamaqla məşğuldur. Onlar özləri üçün yalnız biznes axtarırlar, əslində problemin mahiyyətindən xəbərləri yoxdur".

**Ekspert vurğulayıb ki, "Azərenerji"nin həyata keçirdiyi bütün layihələr dövlət tərəfindən maliyyələşir və bu səbəbdən bu qurumun tarifin qaldırılmasını tələb etməyə əsası yoxdur:** "2003-cü ildən 2013-cü ilə qədər dövlətin yardımı ilə "Azərenerji" həm istilik elektrik stansiyalarını, həm su elektrik stansiyalarını, həm də ki, alternativ enerjiyə ayrılan vəsaitlərin hesabına digər elektrik stansiyalarını da tikməkdə davam edir. Ancaq sual olunur ki, "Azərenerji" heç bir işə kapital qoymursa, dövlət vəsaitləri hesabına iş görürsə, hansı haqla elektrik enerjisi tariflərini qaldırmağı gündəmə gətirə bilər. O reytinq agentliklərindəki ekspertlər də ümumiyyətlə Azərbaycan iqtisadiyyatından xəbərsizdirlər və bu haqda təhlil verə bilməzlər. Elektrik istehsalı üçün sərf olunan qazın qiyməti neçə olursa olsun, "Azərenerji" aldığı qaza pul vermirsə, elektrik stansiyalarının tikintisinə belə vəsait vermirsə, o tariflərin qaldırılmasına necə iddia edə bilər? Bunun üçün iqtisadi əsas yoxdur. "Azərenerji"nin bu günə kimi dövlət qarşısında 700 milyon manat borc öhdəliyi var".

**Ekspert onu da bildirdi ki, elektrik enerjisinin tarifinin qaldırılması məsələsinin gündəmə gəlməsi "Bakıelektrikşəbəkənin" ləğv edilib səlahiyyətlərinin "Azərişıq" ASC-yə verilməsi ilə də bağlı ola bilər:** ""Azərişıq" 1 milyard manat kredit götürüb, hökumət də ona yardım edir ki, həmin vəsaitin geri qaytarılmasını asanlaşdırsın. Bu məsələnin gündəmə gətirilməsi də bununla bağlı ola bilər. Çünki satışı həyata keçirən qurum "Azərişıq"dır".



**Tanrıverdi Mustafayev: ""Azərişıq" ASC tərəfindən Tarif Şurasına belə bir müraciət olmayıb"**



**İlham Şaban: ""Azərenerji" dövlət vəsaitləri hesabına iş görürsə, hansı haqla elektrik enerjisi tariflərini qaldırmağı gündəmə gətirə bilər?"**

❑ **Nərgiz LİFTİYEVA**

# Satışda hələ də GMO məhsulları var

## **Azad İstehlakçılar Birliyinin sədri:** "Sərəncam GMO-nun qarşısını almaq üçün kafi deyil, laboratoriyalar da işə düşməlidir"

**Azərbaycan bazarında Genetik Modifikasiya Olunmuş (GMO) məhsullarının gətirilməsi, becərilməsi və satılması qadağan edilib. Belə ki, prezidentin imzaladığı son sərəncama görə, GMO məhsulların ölkəyə gətirilməsi və ölkədə becərilməsi ilə məşğul olanlar Cinayət Məcəlləsi ilə məsuliyyətə cəlb olunacaq. GMO məhsullarını satmaq məqsədilə ölkəyə gətirənlər 3 min manatdan 5 min manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə, onu ölkədə istehsal edənlər isə 4 min manatdan 6 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.**

Biz də prezidentin sərəncamına nə dərəcədə əməl edilib edilmədiyini öyrənmək üçün bir neçə bazar və marketlərə baş çəkib GMO məhsullarının satılıb-satılmaması ilə maraqlandıq.

İlk olaraq "Yaşıl bazar"a baş çəkdik. GMO məhsullarından elə də başımız çıxmadığı üçün satıcılardan və bazarda öz məhsullarını satan kəndlilərdən soruşmaq qərarına gəldik. Ancaq bir sıra məhsullarda gördüyümüz qeyri-adilik GMO məhsullarının hələ də satışda olduğunu deməyə əsas verirdi. Belə ki yerli, balaca çiyələklə yanaşı, hardasa alma böyüklüyündə olan çiyələklərə də rast gəldik. Piştaxtada olan iri yaşıl almalar da sanki adamın üzünə gülürdü. Almaların 3 ədədini çəkdirdik. 3 ədəd alma bir kilo gəldi. Satıcı bu almaların xaricdən gətirildiyi üçün belə böyük olduğunu bildirdi. Satıcı çox alıcıların almaları çəkdirib almadığından gileyləndi: "Yarım kilo alma ver deyirlər. Çəkirəm, bəzən bir alma yarım kilo gəlir. Elə bilirlər onları aldadıram. Axı bilmirlər ki, bu alma o almalardan deyil, fərqlidir. Geninin dəyişib-dəyişmədiyini bilmirəm. Bir onu bilirəm ki, xaricdən gətirilib. Mən də almışam satıram".

**Digər kartof soğan satıcısı isə bazarlarda GMO məhsullarının olmadığını dedi:** "Geni dəyişdirilmiş məhsulların ölçüləri böyük olur. Məsələn, əslində kartofun bir ədədi 70-80 qram olmalıdır. Amma geni dəyişdirilmiş kartofun bir ədədi 300 qram olur. Ölçüsü həddindən artıq böyük olduğuna görə bunlar insanda şübhə yaradır. Buna görə də geni dəyişdirilmiş kartofla yerli və ya təbii yetişən kartofu asanca ayırd etmək mümkündür".

Bazarda piştaxtaları bəzəyən qarpız və yemişlərin də vaxtından əvvəl yetişməsi diqqət çəkməklə yanaşı onların iriliklərı də bu məhsulların yetişməsində müəyyən əl qatıldığını deməyə əsas verirdi.

Baş çəkdiyimiz bir neçə iri marketlərdə də vəziyyət elə bazardakı kimi idi. Az da olsa GMO məhsullarına rast gəlinirdi. Satıcıların bəziləri ümumiyyətlə GMO-nun nə olduğundan xəbərsiz olsalar da, əksəriyyəti hər şeydən, o cümlədən də prezidentin sərəncamından xəbərdar idi. Mağaza satıcıları onların marketlərində heç bir GMO və ya xaricdən gətirilən məhsullara yer vermədiklərini deyirdilər. Müstəqil ekspertlər isə hesab edirlər ki, GMO məhsullarını adi gözlə də müəyyən etmək mümkündür və bunun üçün xüsusi laboratoriyaya ehtiyac yoxdur. Belə ki, GMO məhsulları görünüşcə saf olur və sanki heç bir nöqsanı olmur. Yerli məhsullardan isə iriliyi ilə seçilir, ancaq yerli məhsul kimi dadlı olmur.

Xatırladaq ki, GMO müasir biotexnologiya üsulu ilə müxtəlif mənşəli canlı orqanizmlərin geninin kombinasiyası vasitəsilə əldə edilmiş istənilən canlı orqanizmdir. Bu zaman heyvan geninin bitkiyə və əksinə, bitki geninin bitkiyə, heyvan geninin heyvana köçürülməsi baş verir. 20 ildən çoxdur ki, milyonlarla istehlakçı istər heyvan və quş, istərsə də bitki mənşəli GMO-dan istifadə edir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Azərbaycanda GMO əkinçiliyinin və toxumçuluğunun olduğunu dedi:** "Hamı bilir ki, ölkədə GMO var, əkilib-biçilir. Ölkə prezidenti bunun qarşısını almaq üçün sərəncam verdi və Azərbaycan BMT-nin sənədinə qoşulub. Lakin laboratoriya deyir ki, Azərbaycanda GMO yoxdur. Bu cür təzadlı bir vəziyyətdə mən isə deyirəm ki, GMO var. Sadəcə olaraq, ortalığa çıxarılmır. Azərbaycanda GMO əkinçiliyi, toxumçuluğu var. Əhali və əkin-biçinlə məşğul olan kəndlilər bilməlidir ki, o bitkidən ki, toxum götürəndə həmin toxum gələn ilə çıxmırsa, deməli, bu artıq GMO-nun birinci əlamətidir. Azərbaycanda satılan qarpızlar, pomidorlar bu cürdür. Sadə alıcı bilsin ki, soya deyilən şey harada varsa, o GMO-dur. Alıcı bilməlidir ki, sarı, qızılı düyülərin hamısı GMO-dur. Aylarla xarab olmayan bərk pomidorlar da GMO-dur. Sərəncam GMO-nun qarşısını almaq üçün kafi deyil. Laboratoriyalar da işə düşməlidir".





❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ vasitəçiliyi uğrunda yeni rəqabət

## Amerikalı həmsədr İrəvanda, Rusiya prezidenti Bakıda nə danışıqlar aparacaq?



**Üzeyir Cəfərov: "Son sözün məhz rəsmi Bakı tərəfindən deyiləcəyinə inanıram"**



**Arzu Nağıyev: "ABŞ təşəbbüsü öz əlinə almağa çalışır"**

**Birinci Avropa Oyunlarının Qarabağ probleminin ədalətli həllinə də təsir göstərəcəyi barədə proqnozların nə dərəcədə reallaşacağı hələ bəlli olmasa da, Qarabağ ətrafındakı proseslərdə hərəkətlilik müşahidə olunur.**

**Hər halda, ATƏT-in amerikalı həmsədri Ceyms Uorlikin İrəvana səfər etməsi, Ermənistan prezidenti və xarici işlər naziri ilə yanaşı, bu ölkənin Milli Məclisinin deputatları ilə də görüşməsi maraqlı haldır. Düzdür, bundan öncə həmsədrlərin çoxsaylı səfərləri və görüşləri olub, lakin bu dəfə Amerika diplomatının təkbaşına Ermənistanda görünməsinin alt qatında başqa mətləblərin olduğu gümanlar sırasındadır.**

Uorlik özü Ermənistan səfəri ilə bağlı AzadlıqRadiosuna müsahibəsində deyib ki, əgər Dağlıq Qarabağda genişmiqyaslı hərbi əməliyyatlar başlasa, münaqişənin sülh yolu ilə həlli mümkün olmayacaq". "168 jam" qəzeti yazıb ki, ilk dəfə ATƏT-in Minsk Qrupunun həmsədri səviyyəsində "genişmiqyaslı münaqişə" barədə bəyanat verilib. "Son zamanlar Rusiya-Azərbaycan əlaqələrinin genişlənməsi fonunda ilk növbədə Rusiya hakimiyyətyönlü ekspertləri Avropa Oyunlarından sonra mümkün hərbi əməliyyatlar barədə danışırlar. İstisna edilmir ki, Avropa Oyunlarının başlandığı bir ərəfədə Uorlik Ermənistan hakimiyyətini xəbərdarlıq etmək üçün İrəvana səfər edib" deyə, qəzet qeyd edib. Xatırladaq ki, Avropa Oyunlarından sonra Qarabağ cəbhəsində vəziyyətin ciddi şəkildə dəyişəcəyi barədə dəfələrlə xarici ekspertlər səviyyəsində proqnozlar verilib. Hesab edilir ki, beynəlxalq birliyin işğala və işğalçıya münasibəti dəyişməsə, Azərbaycan konkret hərəkətə keçəcək. Bu arqumenti gücləndirən digər məsələlər də var. Azərbaycanın Türkiyə ilə birlikdə genişmiqyaslı hərbi təlimlər keçirməsi, Azərbaycanın keçmiş döyüşçülərinin bir araya gələrək Avropa Oyunlarından sonra ümumrespublika konfransı keçirərək Ali Baş Komandana Qarabağ savaşına başlamaqla bağlı əmr vermək üçün müraciət ünvanlayacaqlarını xatırlatmaq olar. Avropa Oyunlarından sonra cəbhədə gərginliyin artacağına dair ekspertlərin fikrini şərh edən Uorlik isə bunun baş verməyəcəyinə ümid etdiyini bildirib: "Bu ilin yanvar ayında cəbhədə gərginliyin artması faktı qeydə alındı. Lakin bundan sonra həm təmas xətti, həm də Azərbaycan - Ermənistanla sərhəddə vəziyyət nisbətən sakitləşmişdi. Hesab edirəm bu yaxşı xəbərdir. Tərəflər atəşkəsə riayət və hörmət etməlidirlər. Münaqişə genişləndiyi təqdirdə biz sülhün əldə olunması istiqamətində işləyə bilmərik. Həmsədrlər, ABŞ tərəfləri atəşkəsə əməl etməyə və davamlı sülhün əldə olunması istiqamətində bizimlə birgə işləməyə dəvət edib".

Amerikalı diplomat deyib ki, "münaqişənin sülh yolu ilə həll olunması üçün danışıqları davam etdirməyin vaxtıdır". Uorlik öz twitter səhifəsində belə yazıb. (apa)

Diplomat münaqişənin sülh yolu ilə həlli üçün atəşkəsi pozmamağın vacibliyini də qeyd edib. Xatırladaq ki, C. Uorlik və Minsk Qrupunun digər həmsədrləri I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Bakıya gələcəklər.

Avropa Oyunlarının açılış mərasimində Rusiya prezidenti Putinin də iştirakı artıq rəsmiləşib. Putin Bakıda olarkən Türkiyə prezidenti Ərdoğan da Bakıda olacaq. Şübhə yoxdur ki, üç prezidentin görüşündə Qarabağ müzakirələri də aparılacaq. Bəzi müşahidəçilər hesab edir ki, belə bir zamanda C.Uorlikin İrəvana getməsi ABŞ-ın Qarabağ məsələsində ofsayda düşməməsinə hesablanıb.

Paralel olaraq Moskvadan növbəti dəfə 7 rayon bəyanatının gəlməsi də Qarabağ prosesində Qərb-Rusiya rəqabətinin getdiyini təsdiqləyir. "Dağlıq Qarabağ ətrafında olan yeddi rayon dərhal Azərbaycana qaytarılmalıdır". Azvision.az-ın məlumatına görə, bu barədə "sputnik"ə müsahibəsində **Rusiya - Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Rusiya Dövlət Dumasının deputatı Dmitriy Savelyev** Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfərini şərh edərkən bildirib.

"Hesab edirəm ki, bu məsələ Azərbaycan və Rusiya prezidentlərinin görüşü zamanı müzakirə ediləcək. Qarabağ münaqişəsi yaxın və orta müddətli perspektivdə həll oluna bilər" deyə, rusiyalı deputat qeyd edib.

**Savelyev vurğulayıb ki, Dağlıq Qarabağ ətrafında işğal olunan torpaqlar Azərbaycana qaytarılmalıdır:** "Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağ ətrafında yeddi rayon yaxın perspektivdə Azərbaycana qaytarılmalıdır, ortamüddətli perspektivdə isə bütün qaçqınlar Qarabağ ərazisinə qayıtmalı və bundan sonra legitim referendum keçirilməlidir. Yalnız Azərbaycan vətəndaşları qayıtdıqdan sonra Dağlıq Qarabağ statusunun həlli mümkündür" deyə, deputat vurğulayıb. Parlamentari, həmçinin qeyd edib ki, Qarabağ de-fakto olaraq Azərbaycanın tərkibinə qayıtmalıdır və Dağlıq Qarabağ münaqişəsinin həllində ilk öncə erməni xalqının özü maraqlıdır. Qeyd edək ki, Rusiya və Azərbaycan prezidentlərinin görüşü 12-28 iyun Bakıda keçiriləcək Avropa Oyunlarının açılış mərasimi çərçivəsində baş tutacaq. Görüş çərçivəsində Dağlıq Qarabağ münaqişəsi müzakirə ediləcək. Bir neçə gün əvvəl isə Rusiya hakimiyyətinin danışan dili Aleksandr Duqin demişdi ki, Azərbaycan Qarabağın qaytarılmasını istəyirsə, Avrasiya Birliyinə üzv olmalıdır. Fakt budur ki, Moskva vaxtaşırı Bakıya mesajlar verərək onu təzyiq altında saxlamağa çalışır. Belə bir durum isə təbii ki, Qərbi məmnun etmir. Ekspertlər də bu ərəfədə maraqlı gəlişmələrin olduğunu qeyd edirlər.

**Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, yaxın iki həftə ərzində dünyanın və xüsusən də Avropanın diqqətinin ölkəmizdə olacağı heç kimdə şübhə doğurmur:** "Ona görə ki, burada həm Birinci Avropa Oyunları keçirilir, həm də son dərəcə maraqlı siyasi gedişlərin olacağı gözlənilir. Mən Türkiyə prezidenti Ərdoğanla Rusiya dövlət başçısı Putinin görüşünü nəzərdə tuturam. Nəzərə alsaq ki, bu görüş üçün şimal qonşumuz çox böyük səbirsizlik nümayiş etdirirdi, bu, heç də səbəbsiz deyil. Aprelin 24-də Putinin Ermənistana səfəri əslində Türkiyə dövlətinə qarşı bir xoşagəlməz addım kimi qəbul olundu. Və şəxsi düşüncəmə görə, Putin bu addımı atmamalıydı. Dünyanın Rusiya üzərinə yeridiyi bir vaxtda məhz qardaş Türkiyə ruslara əl uzatdı və çox məyusedici bir addımla üzləşdi. Ona əl uzadan, ona qahmar çıxan Türkiyə kimi nəhəng bir dövləti saymayaraq hansısa qondarma "soyqırım tədbirinə" qatıldı. Məhz o vaxtdan haqlı olaraq Türkiyə dövlətinin də Rusiyaya münasibəti o qədər də əvvəlki səviyyədə deyil". **Ona görə də Ü.Cəfərov qeyd etdi ki, Birinci Avropa Oyunları Putinə Ərdoğanla münasibətləri yoluna qoymaq üçün bir gözəl şansdır:** "Üstəlik, Qarabağ məsələsi ilə bağlı da müzakirələrin olacağını da istisna etmirəm. Siyasi müstəvidə bu məsələnin həll ediləcəyini mən o qədər də ciddiyə almıram. Amma ola bilsin ki, Rusiya tərəfinin özünün də narahatlığı var ki, Azərbaycan, nəhayət, yaxın zamanlarda status-kvonun dəyişdirilməsi üçün lazım olan addımlara əl atsın. İndi guya 7 rayonun Azərbaycana qaytarılması kimi Rusiyanın müəyyən dairələrinin dövriyyəyə buraxdıqları bu məsələyə də mən sadəcə bir mülahizə kimi yanaşıram. Dəfələrlə söylədiyim və yazdığım fikirlərimdə israrla dayanıram ki, Qarabağ məsələsinin həlli sırf Moskvadan asılıdır. Əgər onlar istəsələr, öz vassalları olan Ermənistanı qısa müddətdə işğalçılıq siyasətindən çəkindirə bilərlər. Sadəcə, istəmirlər, qeyri-səmimi mövqe sərgiliyirlər". **Hərbi ekspert amerikalı həmsədr Uorlikə də inanmadığını qeyd etdi:** "Onun mikrobloqlarında yazdıqlarını bir yerə toplasaq, artıq çoxdan Qarabağ məsələsində irəliləyişlər də olmuşdu, məsələ müsbətə doğru da dəyişmişdi. Amma ortalıqda heç bir əməli, konkret iş yoxdur. İş o yerə çatıb ki, bu adı diplomat olan Uorlik, Kaspşik Ermənistan idmançıları ilə görüşüb onları Bakıdakı yarışlara yola salırlar. Sən demə, ATƏT-in Minsk Qrupunun mandatına belə "mühüm məsələlər" də daxil imiş... Mən onlara zərrə qədər inanmıram və son sözün məhz rəsmi Bakı tərəfindən deyiləcəyinə inanıram. Nə olursa-olsun, biz bu məsələnin bundan sonra da uzanmasına imkan verməməliyik".

**Politoloq Arzu Nağıyev ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlikin İrəvana gedərək Ermənistan xarici işlər naziri Nalbəndyan və prezident Sərkisyanla görüşməsinə diqqət çəkdi:** "Maraqlı məqamlardan biri də onun Bakıda keçiriləcək Avropa Oyunlarında iştirak edəcək erməni idmançıları ilə görüşməsi olub. Hakimiyyət nümayəndələri ilə görüşlərin əsas məqsədi əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqlarının yenilənməsi və davam etdirilməsi, atəşkəsə əməl edilməsi ola bilər. Uorlikin öz dediyi kimi, "sülhə nail olmaq üçün atəşkəs rejiminə riayət etmək və danışıqların davam etdirilməsinə qayıtmaq zərurəti yaranıb". Qeyd etmək lazımdır ki, görüşlərdə Anjey Kaspršik də iştirak edib. Yəni bu gün ATƏT-in Minsk Qrupu danışıqlarla bağlı hər hansı bir müsbət nəticə əldə edə bilmədiyi və bunun müqabilində öz nüfuzunu itirdiyinə görə daha ciddi addımlar atılması məqamının çatdığını yəqin ki, dərk edir və bu məqsədlə ABŞ təşəbbüsü öz əlinə almağa çalışır. Buna görə də öz nümayəndəsini İrəvana göndərir. Qeyd etmək lazımdır ki, bundan sonra Uorlik Bakıya dönəcək və oyunların açılışında iştirak edəcək. Onunla bərabər, digər həmsədrlər də tədbirə dəvətlidirlər. Rusiya prezidenti Putinin Bakıya gəlməsi isə oyunların açılışı ilə əlaqəlidir və eyni zamanda onun Türkiyə prezidenti Ərdoğanla görüşü nəzərdə tutulur. Bu görüşlərdə də əsas məsələ Türkiyədəki seçkilərin nəticələri, qaz layihələri və Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı fikir mübadiləsi ola bilər. Bundan başqa, ATƏT-in Minsk Qrupunun bütün həmsədrlərinin də Bakıda olması düşünürəm ki, münaqişənin həlli istiqamətində ancaq müsbət hal kimi dəyərləndirilə bilər".

Yeri gəlmişkən, məhz bu ərəfədə Azərbaycanın Belorusdan külli miqdarda silah-sursat, hərbi texnika və qırıcı təyyarə alması barədə xəbərlərin dövriyyəyə buraxılması da təsadüf sayılmamalıdır. Görünən budur ki, böyük güclər regionda Avropa Oyunlarından sonra Qarabağ münaqişəsinin alovlana biləcəyindən əndişəlidir. Hər halda ATƏT-in Minsk Qrupunun ölü quruma çevrildiyi bir dönəmdə Bakının əl atacağı başqa çarə görünmür...

**Politoloq Ərəstun Oruclunun feysbuk statusu da diqqət çəkir:** "Tiflisdə konfransdayam və Dağlıq Qarabağ münaqişəsi haqqında konfrans iştirakçıları qarşısında çıxış edən ATƏT rəsmisi üzərində "NKR" yazılmış xəritə nümayiş etdirdiyi azmış kimi, deyir ki, 60 min azərbaycanlı Dağlıq Qarabağ ətrafındakı rayonlarından məcburi köçkünə çevrilib. Üstəlik də adam bu rayonların işğalı barədə "armenians occupied" (işğal etdilər) əvəzinə "armenian troops conquered" (erməni qoşunları fəth etdilər) ifadəsini işlədir. Xahiş etdim ki, qalıb mənim çıxışımı dinləsin, qalmadı. Deyəsən, axı İlham Əliyev bu təşkilatı Azərbaycandan qovmaqda tam haqlıdır..."

Göründüyü kimi, beynəlxalq təşkilatlar açıq şəkildə ermənipərəstlik nümayiş etdirməkdədir. Deyəsən, hərb qərarı doğrudan da yeganə alternativ olacaq...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 127 (6155) 12 iyun 2015




**Cümə söhbətləri**

**Bismillləhir-Rahmənir-Rahim!**
**Artıq mübarək Ramazan ayının daxil olmasına sayılı günlər qalıb. Bu zaman insanı ən çox düşündürən suallar: "Mən bu aydan nə götürməliyəm?", "Bu ayda ən çox nələrə diqqət etməliyəm?", "Mübarək Ramazan ayının potensialında hansı nemətlər vardır?" kimi ayıldıcı tutumu olan məsələlər olmalıdır. Mübarək ayda həqiqi oruc tutanların orucunu tutmağı bizlərə nəsib etməsini Uca Allahdan diləyirik.**

# Mənəvi immunitetlər qazanmaq fürsəti

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Ramazan ayında halal olan nemətlərdən pəhriz etmənin mənası

Ramazan ayının hər gününün öz duası olsa da, bir neçə gündən sonra daxil olacaq bu mübarək ayda Rəbbimizdən orucla bağlı tofiqatını nəsib etməsini diləyirik. Bu ayda tutulan orucun mahiyyət etibarilə vacibliyi və əhəmiyyəti onunla bağlıdır ki, bizlər öz nəfs və istəklərimizi nəzarətdə saxlaya bilək. Bu ayda hətta digər vaxtlarda bizə halal olan başqa məsələlərindən belə, günün müəyyən hissəsində pəhriz edirik. Halal ruzidən hər zaman istifadə edə bilərik. Amma bu İlahi ziyafətdə günün böyük bir hissəsini həmişə bizə halal olan qidadan çəkinirik. Məqsəd isə budur ki, bizlər istəklərimizi nəzarətdə saxlaya bilək. Bizləri bizdən daha yaxşı tanıyan, bütün imkanlarımızı bilən Allah Təala bunu vacib bilib ki, digər aylarda halal olan nemətlərdən də belə, bu ayda pəhriz edək. Mahiyyət isə bundan ibarətdir ki, bir ay ərzində Allahın halal nemətlərindən də pəhriz etməyə öyrəşən bir kəs, digər aylarda haramlardan daha yaxşı çəkinmə qabiliyyəti qazanmış olar.

## İradəvi olaraq günahlardan çəkinməyi öyrənmək

Mübarək Qurani-Kərimin "Bəqərə" surəsinin 183-cü ayəsində görürük ki, Allah Təala tərəfindən bizlərə açıq-aydın bir əmr var. **"Ey iman gətirənlər! Sizlər üçün oruc yazıldı və qərar verildi, necə ki, sizlərdən öncəkilərə vacib yazılmışdı. Ola bilsin ki, təqvalı olasınız".** Uca Allah aydın bir işarə ilə orucun vacib olmasının səbəbini açıqlayır - bizlər təqvaya yetişək. Təqva - insanın özünü nəzarətdə saxlamasıdır. Təqvalı insan imkan baxımından günah edə bilər, amma bunu iradəvi olaraq etmir. Təqva - əqlin və iradənin bazasında formalaşan mənəvi immunitetdir ki, insan onun sayəsində iradəvi surətdə günahlardan çəkinir. Bəzi insanlar var ki, onlar onsuz da müəyyən günahları edə bilmir. Bu insana təqvalı insan deyilməz. Amma bir insan da var ki, onun günah etməyə gücü çatır, amma etmir. İradəvi surətdə günahlardan çəkinmək təqva adlanır. Mübarək



Ramazan ayında Rəbbimiz oruc tutmağımızın səbəbini onunla açıqlayır ki, bizlər bununla təqvaya çata bilərik.

## Həddini aşanda bədbəxtliyə aparan iki qüvvə

Qeyd edək ki, insanın günah etməsinin iki çox ciddi başlanğıcı var. İnsanın etdiyi günahların əksəriyyəti öz başlanğıcını bu iki məsələdən götürür. Bunlar - qəzəb və şəhvət qüvvəsidir. İnsanın etdiyi günahları sistemləşdirsək, görəcəyik ki, onların böyük əksəriyyəti qəzəb və şəhvət qüvvəsinin həddini aşmasından irəli gəlib. Mübarək Ramazan ayı qəzəb və şəhvət qüvvəsini nəzarətə almaq imkanını verir. Allah Təalanın bizlərdə qəzəb və şəhvət qüvvəsini qoymasının səbəbi və hikməti var. Əgər bu iki qüvvə yerində istifadə olunarsa, insanın kamalına vasitə olar. Amma onlar həddini aşanda insanı bədbəxtliyə aparır. Ramazan ayının ən mühüm əhəmiyyətlərindən biri budur ki, qəzəb və şəhvəti nəzarətə almaq digər aylarla müqayisədə olduqca asandır. Bu ayda bunun üçün zəmin yaranıb. Nəzərə alsaq ki, Ramazan ayı şeytanın (lən) əl-qolunun bağlı olduğu bir aydır, bu zaman bizim bəhanələrimizə də yer qalmır. Bu da bizə həmin iki qüvvəni nəzarətə almaq üçün fövqəladə fürsət yaradır.

## Bu ayda qəzəblər mərhəmət ilə əvəz olar

Nəzarətə alınmayan qəzəb qüvvəsi - insanı məhvə doğru aparan əsas amillərdən biridir. Qəzəb qüvvəsini nəzarətə almamağın cəzası olduqca böyük olduğu kimi, onu nəzarətə almağın da bir o qədər əcri və mükafatı var. İmam Baqir (ə) buyurur: **"Kim qəzəbini soyuda bilsə və onu udsa, Allah Qiyamət günündə onun qəlbini iman və rahatlıqla aşırıb-daşırar".** Mübarək Ramazan ayı qəzəbi soyutmaq, onu udmaq üçün ən gözəl fürsətdir. İnsanda əmələ gələn mənəvi hal Ramazan ayında qəzəbi yaxına buraxmaz. Qəzəb hissi, əksinə olaraq mərhəmət hissi ilə əvəzlənər. Bu ay ərzində iradəvi olaraq qəzəbi nəzarətdə saxlamağı öyrənsək, digər aylar üçün də bunu mələkə halına keçirə bilərik. Bu zaman Allah Təbarəkə və Təala Qiyamət günü qəlbimizi iman nuru ilə aşırıb-daşırar. Ramazan ayı bizə Qiyamət üçün azuqə qazanmağa imkan verir.

## Yerində edilmiş xatırlama

İmam Səccadın (ə) kənizlərindən biri onun əlinə su tökürdü. Qab onun əlindən düşür və Həzrətin (ə) üzünü yaralayır. İmam Səccad (ə) başını ona tərəf qaldırır. Bu zaman kəniz söyləyir: **"Allah Təala buyurur: "Qəzəbini udanlar...""** Elə bu buyuruşun əvvəlini deyən zaman İmam (ə) buyurur: **"Qəzəbimi uddum". Kəniz deyir: "İnsanların günahlarından keçən...". Elə bu İlahi buyuruşu kəniz dilinə gətirmişdi ki, Həzrət (ə) buyurur: "Səni bağışladım". Kəniz deyir: "Allah yaxşılıq edənləri sevər". İmam (ə) buyurur: "Get, səni Allah yolunda azad etdim".** Yəni bir bilikli, mərifətli insanın yerində məsələləri xatırlatması, azad olmasına səbəb olur.

## Nəfsi istəklərinin ardınca gedənin aqibəti

Bu ayın içərisində insanın diqqət etməli olduğu məsələlərdən biri də istəklərini nəzarətə almasıdır. İstəklər insanı məhvə apara bilər. Şəhvət qüvvəsi və bunun kökündə dayanan istəklər insanı o qədər bədbəxt edər ki, insan özü də təsəvvür etmədiyi səviyyəyə enər. Ramazan ayı istəkləri nəzarətə almaq ayıdır. Həzrət Əmirəlmöminin (ə) bizləri xəbərdar edirərək, buyurur: "Hər hansı bir eybdən pak və uzaq olmaq, şəhvət və nəfsi istəklərə hakim olmaqla mümkündür". İnsan bu ayda şəhvət və nəfsi istəklərə hakim olmağı öyrənməlidir. İstədiyinin ardınca getməməli, ürəyi istəyəni etməməli və s. Əgər buna nail ola bilərsə, eyblərdən pak olar. Ramazan ayı insanı eyblərdən pak edən aydır.

## Xeyrin hər zaman onlardan uzaq olduğu insanlar kimlərdir?

**Həzrət Əli (ə) buyurur: "Xeyir, himməti və fikri-zikri qarnı və şəhvəti olan şəxsdən nə qədər də uzaqdır".** Əli (ə) bizləri çox incə bir buyuruşla xəbərdar edir. İnsanın çalışması, fikri-zikri qarnı və şəhvəti olarsa, xeyir o insandan hər zaman uzaqda olar. Mübarək Ramazan ayı bizləri hər gün bütün bu məsələlərə birbaşa şəkildə nəzarət etməyi öyrədir. Bu baxımdan, xeyir və fəzilətlərin inkişafı üçün misilsiz bir aydır.

Allah Təala Həzrət İsaya (ə) öyüdlərindən birində buyurur: **"Ey İsa! Oyaq olanda günah etmə, ayıq olanda qəflətə düşmə, öz nəfsini məhvə səbəb olan şəhvətlərdən ayır və səni məndən uzaqlaşdıran hər bir şəhvətdən uzaqlaş".** Allah Təala sevimli peyğəmbərlərindən olan Həzrət İsaya (ə) öyüdlərini verəndə, əslində bizlərə xəbərdarlıq edir. İnsan oyaq olan zaman, onun ağlı, düşüncəsi var. Bu zaman insan ehtiyatlı olmalıdır ki, günah etməsin. Eyni zamanda Rəbbimiz çatdırır ki, nəzarətsiz şəhvət insanı Allahdan uzaqlaşdırır. Mübarək Ramazan ayı bir il üçün bizə bunun məşqini keçir. Əgər insan bu ayda halal olanlardan belə, çəkinə bilirsə, deməli digər aylarda haramlardan da çəkinə bilər.

## Şəhvət - öncə qul, sonra isə zəlil edər

Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Şəhvətlərin qəlbərinizə qalib və hakim olmasından çəkinin. Çünki onların əvvəli qula çevrilmək, sonu isə məhv olmaqdır".** İnsan öncə şəhvətinin quluna çevrilər, daha sonra isə məhv olar. Bir insan yoxdur ki, şəhvətin quluna çevrilsin və bununla da xoşbəxtliyə çatsın. Bu yolun sonu məhv və zəlalətdir. Mübarək Ramazan ayı bizləri qul olmaqdan azad edir. Ramazan ayının gündəlik dualarında da əsirlikdən, qulluqdan azad olmaq dilənir. Təbii ki, burada söhbət yalnız fiziki əsir olmaqdan getmir. Rəbbimizdən bu ayda nəfsi istəklərimizin, şəhvətimizin qulu olmamağı diləyirik. Bizlər bir çox şeylərin əsirinə çevrilirik. Ramazan ayı isə bizi bu əsirlikdən çıxarır. Çıxarır ki, bir il boyunca azad və firavan yaşayaq.

Çox təəssüflər olsun ki, bəzən Ramazan ayının günləri geridə qaldıqca, insanın mənəvi durumunda eniş başlayır. Əvvəlki günlərdə hər günün əməllərinə, ibadətlərə xüsusi diqqət ayrılırsa, getdikcə sanki bir adiləşmə müşahidə olunmağa başlayır. Bəzən insan bir həftəni və bir də əhyaları birtəhər yola verir və bununla da Ramazan ayının bitmiş olduğunu hesab edir. Amma, Ramazan ayının hər günündə, hər gecəsində özünəməxsus nemətlər, mükafatlar var.

## Özünəqayıdış fürsəti

Bəli, mübarək Ramazan ayı ərəfəsindəyik. Allahın ayı öz rəhmət, bərəkət və məğfirəti ilə üzərimizə gəlir. Özü də necə gəlir.

Dünya elə həmən dünyadır. İnsan da elə həmin insandır. Nəfsi də elə həmin nəfsdir. Arzuları da elə həmin arzulardır.

Texnolji inkişaf gedib. Sürət artıb. Əlaqələr rahatlanıb. Amma hər bir nemətlə düzgün davranılmayanda, o, fəsad amilinə çevrilir.

Bədənimizdəki nemətlər kimi. Dildən düzgün istifadə edilməyəndə, fəsada səbəb olur. Gözdən düzgün istifadə edilməyəndə, fəsada səbəb olur. Hər şey zatən o cürdür.

Bu dünyanın ən böyük işi budur ki, bizi qəflətdə saxlasın. Özümüzdən, Yaradanımızdan, ölümümüzdən, əvvəlimizdən, sonumuzdan.

Mübarək Ramazan ayı gəlir və gəlişi ilə bütün bu dünyanın qəflət quruluşuna zəlzələ kimi zərbə vurur. Allah ayı - "Şəhrullah" gəlir və öz qaydaları ilə iman əhlinin həyatını tənzimləyir.

Dünənəcən yeməksiz, susuz qala bilməyən toplumda birdən hər şey dəyişir.

Mübarək Ramazan ayı bir fürsətdir. Bağışlanma fürsətidir. Tövbə fürsətidir. İstiğfar fürsətidir. Özünəqayıdış fürsətidir. Peşmançılıq fürsətidir.

Necə ki, bizə bunu Məsumlarımız (ə) çatdırır: **"Ey insanlar! Allahın ayı bərəkət, rəhmət və məğfirətilə Sizə tərəf gəlməkdədir..."**

## Bu ayda misilsiz bağışlanma fürsəti var

Ariflər buyurur ki, cənab Hürrün Aşura gününə qədər günah yükü, cəhənnəmin yeddinci təbəqəsi həddində idi. Amma tövbə etdi - həqiqi tövbə. Allah Təala onun bütün günahlarını bağışladı. Allah Təala sanki buyurur ki, ey bəndəm, sən də gəl Məni imtahan et. Gəl, mənim bəndəm, gəl, tövbə et. Gəl, əziz bəndəm, gəl, gör necə səni bağışlayıram.

Qurani-Kərimin "Zümər" surəsinin 53-cü ayəsində buyurulur: "De: lEy Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!".

## Bir neçə təfsiri çalara diqqət edək

"Qul yə 'ibədiyəl-ləzinə əsrəfu alə ənfusihim lə təqnətu min rahmətilləh" - Bəlli olur ki, əziz Peyğəmbərimizin (s) ümid və rəhmət mesajını çatdırmaq missiyası var.

"Qul yə 'ibədiyəl-ləzinə əsrəfu" - Ayədə günahkarlar birbaşa müraciət ünvanı qərar verilməyib. Həzrət Peyğəmbərə (s) deyilir ki, onlara de. Deməli günah - İlahi təqərrübə mane olan amillərdəndir, bizi Rəbbimizdən ayıran mövzulardandır. Günah Allahla bağlantımızı kəsir, imkan vermir ki, birbaşa rabitə qurulsun.

"Qul yə 'ibədiyəl-ləzinə əsrəfu" - Günah bir növ israfdır və həddi aşmaqdır. Bu mənada ayədə "əsrəfu alə ənfusihim" gəlib.

"Qul yə 'ibədiyəl-ləzinə əsrəfu alə ənfusihim" - Günah - özümüzə qarşı cinayətdir və öz canımıza qəsd etməkdir.

"Qul yə 'ibədiyəl-ləzinə əsrəfu" - Allah Təalanin lütf və inayəti çox şiddətlidir. Günahkarlar insan da belə, "bəndə" və özü də "Mənim bəndələrim" kimi müraciət edir.

"İnnəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Allah Təala bəndələrinin bütün günahlarını - kiçikli-böyüklü - bağışlayandır. Həm günah sözü cəm halda gəlib (zunub), həm "əl" artikli gəlib günahın qabağında - ümumiyyət göstəricisidir, üstəlik hələ "cəmi'-ə" də ("cəm", "büsbütün") gəlib. Yəni bütün günahlar bağışlana bilər, bu, səmimi peşmançılığa və tövbəyə bağlıdır.

"Lə təqnətu min rahmətilləh innəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Bir halda ki, bütün günahları bağışlayandır, insan üçün ümidsiz olmaq doğru deyil.

"Lə təqnətu min rahmətilləh innəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Allahın rəhmətindən məyus olmaq haramdır.

"İnnəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Bəndələrin bütün günahlarını bağışlamaq Allahın müqəddəs zatından irəli gəlir.

"Lə təqnətu min rahmətilləh innəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Allahın rəhmətinə ümidli olmaq, günahların bağılanmasının zəminini yaradır.

"Lə təqnətu min rahmətilləh innəllahə yəğfiruz-zunubə cəmi'-ə" - Günahkar bəndələrini bağışlamaqda, Allahın rəhməti üzə çıxır, təzahür tapır.

"İnnəhu huvəl-ğafurur-rahim" - Yalnız Allah Təala Ğafur və Rəhimdir - bağışlayan, əfv edən və mehribandır.

"İnnəllahə yəğfiruz-zunubə cəmi'-ə innəhu huvəl-ğafurur-rahim" - Allah Təala niyə bəndələrinin bütün günahlarını bağışlayar? Çünki yalnız O, həqiq Ğafur və Rəhimdir.

Ayədən o də bəlli olur ki, Allah Təala günahkar bəndələrini tövbəyə təşviq edir. İnsan islah olunmağa israrla dəvət edilir. Hər zaman və hər məkanda. Üzümüzə gələn mübarək Ramazan ayı bu baxımdan fövqəladə fürsətlər təqdim edir.

Allah Təala bizə Ramazan ayını dərk edib, yaşadanlardan qərar versin! Amin!

# ANS-in üzrxahlığı və geriləməsi

## Telekanalın rəhbərliyi əvvəl "gözümüz aydın" dedi, sonra isə...

**ANS telekanalı və aparıcının üzr istəməsi, həmçinin təhqirə yol verilən "İncə maraqlar" verilişinin bağlanması barədə məlumat vermişdik. Artıq ANS-in vitse-prezidenti Mirşahin Ağayev və sözügedən verilişin siması Elnarə Təhməzovanın üzrxahlıq videosu yayılıb.**

Məsələ ilə bağlı ANS-ın Baş direktoru Mirşahin Ağayev də açıqlama verib. "Hesab edirik ki, efirdə elə fikirlər səslənib ki, bu doğrudan da həssas tamaşaçının hissiyyətinə toxuna, ən azı onları narahat edə bilərdi. Aparıcının fikirlərinə görə kanal rəhbərliyinin məsuliyyət daşıdığını biz dəfələrlə elan etmişik və bir daha bildiririk.

Fərqi yoxdur, aparıcı nəyi demək istəyirdi, necə alınıb, fakt artıq ortadadır, tamaşaçı hissiyyatına toxunulub və ANS rəhbərliyi kimi Biz tamaşaçılardan üzr istəyirik", - deyə M.Ağayev bildirib.

**Aparıcı Elnarə Təhməzova da səhvə yol verdiyini etiraf edib:** "Mən başa düşdüm ki, səhvim var və ifadələrimdə ehtiyatsız olmuşam, bir şey demək istəmişəm, başqa cür alınıb. Hər halda, çox sevdiyim, həmişə hörmətlə yanaşdığım tamaşaçımı incitmişəm, məni bağışlasınlar, onlardan və pis vəziyyətə saldığım telekanaldan üzr istəyirəm".

**Xatırladaq ki, E.Təhməzova verilişində hicablıların qara geyinməsinə etiraz edərək, belə geyinən xanımları "bayquş"a bənzədib. Üstəlik, o, qara çadra geyinənlərin neqativ enerji yaydığını bildirib. Bundan qəzəblənən bir qrup hicablı xanım ANS rəhbərliyinə etirazlarını bildiriblər. Onlar kanal rəhbərliyinə müraciət edərək Elnarə Təhməzovanın üzr istəməsini tələb edirlər:**

"Biz heç kimin geyiminə qarışmırıq. Kim istəyər başını bağlayar, kim istəyər çadra örtər. Bəs bizim çadramıza niyə qarışırlar? Biz onun efirdən uzaqlaşdırılmasını ya da efir vasitəsilə hicablılardan üzr istəməsini tələb edirik. Tələbimiz tez bir zamanda yerinə yetirilməsə, onda hüququmuzu başqa cür qoruyacağıq".

**Məsələ ilə bağlı ANS-in ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mais Məmmədov isə daha öncə bildirmişdi ki, aparıcı konkret kimisə təhqir etməyib:** "Çox adam çox şey yaza bilər. Xoşlarına gəlmir baxmasınlar. Hamı indi tələb edir. Gözümüz aydın, nə qədər kanal var, başqasına baxsınlar. O aparıcı konkret kimisə təhqir etməyib (?!-red.)".

**M.Məmmədov aparıcıya heç bir xəbərdarlığın olunmayacağını da demişdi:** "Mən başa düşmürəm, niyə aparıcıya xəbərdarlıq olunmalıdır ki? Azad şirkətin azad jurnalistidir. Sabah da deyərlər ki, paltarı xoşlarına gəlmir, buna görə biz kimisə işdən çıxarmalıyıq?"

Son gəlişmələr isə göstərir ki, ANS bu məsələdə geriləyib. Yəni rəhbərlik səviyyəsində verilən açıqlama daha sonra elə rəhbərlik səviyyəsində də təkzib olunub və onun əksi açıqlanıb.

Əldə etdiyimiz məlumatlara görə, ümumən son vaxtlar hakimiyyətin ANS-ə münasibətində bir neqativlik müşahidə olunur. Telekanalın hakimiyyətin hədəfinə çevrilməsinin səbəbi isə 98-cı ildə çəkilən, efirdə yayımlanmayan bir süjetin indi sosial şəbəkələrə yol tapmasıdır...

❑ **Sevinc TELMANQIZI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# "Nar" Bakı-2015 Avropa Oyunları ilə tərəfdaşlığa həsr olunmuş pavilyonu ictimaiyyətə təqdim etdi

## Pavilyonda mobil operatorla bu möhtəşəm idman yarışlarını birləşdirən ümumi dəyərlər ön plana çəkildi

**"Nar" özünün yeni brendi və Bakı-2015 ilk Avropa oyunları ilə rəsmi tərəfdaşlığa həsr olunmuş pavilyonu geniş ictimaiyyətə təqdim etdi. Pavilyonda "Nar" ilə Avropa Oyunlarının bölüşdükləri ümumi dəyərlər təşviq olunur. Mobil operatorun hər bir fərdə dəstək verdiyi, lakin birlik və bərabərliyi də yüksək qiymətləndirdiyi bu məkanda xüsusi vurğulanır. Avropa Oyunlarının əsas hədəflərindən biri də məhz insanların bu möhtəşəm idman bayramı ətrafında birləşmələrini təmin etməkdən ibarətdir. Hamılıqla bu mötəbər tədbirin daha unikal bir ab-havada keçməsini təmin etmək və idmançıların daha yüksək nəticə göstərmələrinə dəstək olmaq mümkündür, çünki güc birlikdədir.**

nar
Gəlin birlikdə böyüyək

**"Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili və Bakı 2015-in Əməliyyatlar üzrə baş direktoru Saymon Kleq qonaqları salamlayaraq, Avropa Oyunlarının Azərbaycan üçün olan əhəmiyyətindən söhbət açdılar və onları bu möhtəşəm idman tədbirindən zövq almağa dəvət etdilər. Cənab Maknili həmçinin "Nar" ilə Avropa oyunları arasındakı sıx tərəfdaşlıqdan bəhs etdi və qonaqlara "Nar" pavilyonu haqqında qısa məlumat verdi.**

**Rəsmi hissədən sonra Kent Maknili mobil operatorun yeni "Nar bağı" brend fəlsəfəsinə uyğun olaraq, tədbirin xüsusi qonaqları - tanınmış mətbuat nümayəndəsi Elnur Baimov, şoumen Murad Dadaşov və aparıcı Nərgiz Cəlilovanı pavilyonun kənarında simvolik ağac əkməyə dəvət etdi.**

**Qeyd edək ki, bu pavilyonda qonaqlar "Nar" brendinin yenilənmə tarixçəsi ilə yaxından tanış olacaq, su səthində unikal videogörüntü izləmək şansı əldə edəcək, Avropa oyunları atmosferinə qərq olacaq, fotolar çəkdirəcək və "Nar" operatorundan müxtəlif hədiyyələr alacaqlar.**

**Pavilyonun fəaliyyət saatları 14:00-dan gecəyarısı saat 00:00-dəkdir.**


## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**

**Telefon: 055 260 69 84.**





# Bakı 2015 və "Nar" sonuncu Şanslı qalibi elan edib

**Bakı 2015 və rəsmi tərəfdaş "Nar" cənab Fuad Həsənovun Avropa Oyunlarının dördüncü və sonuncu Şanslı qalibi olduğunu elan edib. Bilet nömrəsi cənab Fuad Həsənovun bəxtinə təsadüfü çəkilişlə düşüb və o, Azərbaycanın ən sürətlə inkişaf edən mobil operatoru olan "Nar "dan iPhone 6+, iPad Air 2, 3G Nar internet paketi, xüsusi nömrə və nəhayət ömürlük danışıq paketi qazanıb.**

**Bakı 2015-in "Şanslı qalib" kampaniyası "onlayn" bilet alan yerli tamaşaçılar üçün rəsmi tərəfdaşların təqdim etdiyi qiymətli hədiyyələr üzrə keçirilir. Əvvəlki Şanslı qaliblərə Azərbaycan Hava Yolları tərəfindən Nyu-York şəhərinə iki nəfərlik biznes-klas, gediş-gəliş uçuş bileti və 1500 AZN məbləğində cib xərcliyi, "Tissot"un xüsusi hazırladığı kişi və qadın saatı, bütün ailə üçün "P&G" məhsullarının illik tədarükü təqdim edilib. Bütün Şanslı qaliblər Bakı 2015-in açılış və bağlanış mərasimlərinə iki VIP bilet qazanıblar.**

**Şanslı qalib cənab Fuad Həsənov bildirib: "Mən idman azarkeşiyəm və ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi mənim üçün möhtəşəm fürsət oldu. Lakin belə möhtəşəm hədiyyəni udmaq gözlənilməz idi! Ölkənin ən sürətlə inkişaf edən mobil operatoru "Nar"dan ömürlük danışıq paketi qazanmaq mənim üçün böyük dəyişikliklər edəcək. Bakı 2015-in açılış və bağlanış mərasimlərini səbirsizliklə gözləyirəm."**

**"Nar"in Baş direktoru cənab Kent MakNili bildirib: "Bakı 2015 Avropa Oyunları ölkəmiz üçün tarixi anlar yaşadacaq və "Nar" Şanslı qalib kampaniyası vasitəsilə Azərbaycan xalqına həyəcanlı anlar yaşatdığı üçün fəxr edir."**

**Bakı 2015-in Əməliyyatlar üzrə baş direktoru cənab Saymon Kleq deyib: "Cənab Fuad Həsənovu Bakı 2015-in sonuncu Şanslı qalibi olduğu üçün təbrik etmək istərdim. Belə bir təbliğat Azərbaycan ictimaiyyəti arasında marağa səbəb olub və biz ilk Avropa Oyunlarına göstərdiyi davamlı dəstəyə görə "Nar"a minnətdarlığımızı bildiririk".**

### Redaktorlar üçün qeydlər

**Bakı 2015 Oyunları tarixdə ilk Avropa Oyunları olaraq, 12-28 iyun 2015-ci il tarixlərində baş tutacaq, çoxsaylı idman növünü əhatə edən, qitə üçün həyəcanlandırıcı və yenilikçi olan bir tədbirdir.**

**Bakı 2015 Oyunlarında cəmi 20 idman növü üzrə yarışlar keçiriləcək: 16 Olimpiya idman növü və dörd qeyri-olimpiya idman növü. Avropadan 6000 nəfərə yaxın idmançı 17 günlük yarış müddətində öz ölkələrini təmsil edəcəklər.**

**İdman növlərinin on ikisi Rio 2016 Olimpiya Oyunlarında iştirak hüququnu qazanmaq imkanı yaradacaq. Bu idman növləri kamandan oxatma, atletika, boks, velosiped idmanı, cüdo, atıcılıq, üzgüçülük, stolüstü tennis, taekvondo, triatlon, voleybol və güləşi özündə cəmləyir**

**Bakı 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitələri (AOK) tərəfindən bu Oyunları keçirmək hüququ ilə təltif edilib. Bakı Avropa Oyunlarının Təşkilat Komitəsi (BAOTK) bu Oyunları AOK ilə əməkdaşlıq şəraitində təşkil edəcək və həyata keçirəcək.**

**Bakı 2015 Oyunlarının məlumat arxivi vasitəsilə KİV-lərə verilə bilən və Avropa Oyunlarının açılış mərasiminə aid olan fotoşəkillər, videofilmlər və əlavə ümumi məlumatların geniş kolleksiyası mövcuddur. Bunları əldə edə bilmək üçün media@baku2015.com ünvanına elektron məktub yazın və sizi lazımi məlumatla təmin edəcəyik.**

**Bakı 2015 Oyunları üçün biletləri birbaşa satış məntəqələrindən əldə etmək və ya onlayn qaydada www.baku2015.com/tickets veb-saytından almaq olar. Onlayn alışı təsdiqləyən qəbzlər sonradan aşağıdakı ünvanlarda yerləşən şəhər bilet satışı məntəqələrinin hər hansı birində biletə dəyişdirilə bilər: Park Bulvar, 28 Mall Ticarət Mərkəzi, Metro Park, Bülbül prospektində yerləşən Heydər Əliyev Sarayı, A.Əlizadə küçəsində yerləşən Azərbaycan kinoteatrı, Nizami küçəsi və Bülbül prospektinin kəsişməsi, Azadlıq meydanı, Tofiq Bəhramov adına Respublika stadionu və ASAN Xidmətinin Abbas Mirzə Şərifzadə küçəsində yerləşən Yasamal şöbəsi, habelə Neftçilər, Əhmədli metro stansiyalarının yaxınlığında və Fəvvarələr meydanında yerləşən McDonald's restoranları.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# YENİ MÜSAVAT

Son səhifə

N 127 (6155) 12 iyun 2015




## Boşanmaq üçün 7,5 milyard dollar

Rus milyarder Vladimir Potaninin boşanmaq istədiyi 35 illik arvadı Natali ölkə mediasının gündəmindən düşmür. Məlumatlara görə, qadın ərindən boşanmaq üçün sərvətinin yarısını- 7,5 milyard dollar istəyir. Əgər Natali istədiyi pulu alarsa, onların ayrılması dünyanın ən bahalı boşanması olaraq tarixə düşəcək. Rus yatırım qrupu "İnterros"un sahibi olan Vladimir Potanin enerji, ticarət, media kimi bir çox sahədə çalışır. "Forbes" jurnalına görə, Putinin yaxın dostu olan Potanin 15 milyard dollarlıq sərvəti ilə dünyanın zəngin 60 iş adamından biridir. "Bild" qəzetinin xəbərinə görə, Potaninin sərvəti açıqladığından daha çoxdur. İş adamı Nataliyə boşanmaq üçün ayda 250 min dollar, Moskva, Nyu-York və Londonda olan evlərinin bir neçəsini təklif edib. Lakin qadın bunlarla razılaşmayıb. O, ərinin sərvətinin yarısını istəyir. 35 illik evlilikdən sonra bu qərarın ədalətli olduğunu deyən Natali hisslərini bu sözlərlə ifadə edib: "35 il sonra ayrılmaq məni çox incitdi. Onu çox sevmişdim. Bu ayrılıq mənim üçün böyük faciədir".

## 102 yaşında diplom aldı

Almaniyada Hitler rejimi hökm sürərkən 1938-ci ildə Hamburq Dövlət Universitetində tibb üzrə doktorluğu müdafiə edən İngeborg Syllm-Rapaport anasının yəhudi olduğu ortaya çıxdıqdan sonra universitetdən qovulub və diplomunu ala bilməyib. 102 yaşlı qadın həmin zaman yarımçıq qoyduğu universiteti bu il tamamlayaraq diplomunu alıb. Dünyanın doktorluq müdafiə edən ən yaşlı insanı olan Syllm-Rapoport üç professorun iştirak etdiyi salonda öz fikirlərini ifadə edib. Midern tibbdəki dəyişiklikləri təqib edən 102 yaşlı qadın diplomunu Hitler qurbanlarına hədiyyə edib.




## Zəlzələdə turistləri günahlandırdılar

Bir neçə gün əvvəl Malayziyada böyük bir zəlzələ baş verib. Malayziya hökuməti və xalqın fikrincə, bir çox insanın ölümünə səbəb olan zəlzələnin səbəbi çılpaq turistlərdir. Malayziyada müqəddəs qəbul edilən Kinabalu dağında 5,9 bal gücündə zəlzələ baş verib. Zəlzələdə 16 nəfər həyatını itirib. Açılmış məhkəmə nəticəsində 10 nəfər həbs edilib. Polislər onların dağa çıxarkən soyunduqlarını deyirlər.

Yerli xalq sözügedən dağın müqəddəs və ruhu olduğuna inanır. Dağda meydana gələn zəlzələ bir çox müəllimin və şagirdin ölümünə səbəb olub. Turistlərə cəza verən hakim fikirlərini belə ifadə edib: "Müqəddəs ruh çılpaq olan turistlərə əsəbiləşib. Bu hörmətsizliyə səbəb olan xalqı isə bu yolla cəzalandırıb. Onlar bizim müqəddəs dağımıza hörmət etməli idilər. Hörmətsizlik etdikləri üçün cəzalandırıldılar".



## Bir illik ömründə nələr edəcəyini siyahıya aldı

İngiltərənin Essex bölgəsində yaşayan və 1 illik ömrünün qaldığını öyrənən Channan Petrides adlı gənc qız ölmədən öncə edəcəyi şeylərin siyahısını hazırlayıb. Orqan nəqlini inkar edən Petrides ölmədən öncə safariyə getmək, vertolyot sürmək, qırmızı xalıda yerimək və İngilis müğənni Ed Şeranla görüşmək istəyir.

"Kstik fibrozis" xəstəliyindən əziyyət çəkən qız xəstəliyi haqda cəmiyyətə məlumat vermək üçün əlindən gələni edir. İnsanların onu anlaması üçün başlarını torbanın içinə salmalarını və kiçik bir dəlikdən nəfəs almalarını istəyir. Nəfəs yollarında və həzm sistemində problemlər yaradan "Kistik fibrozis" xəstəliyi nəfəs almağı imkansız hala çevirir. Xəstəlik üçün orqan nəqli önəmli olsa da sağalmasına qarantiya verilmir.




**QOÇ** - İxtiyarınızda olan bu əsrarəngiz təqvimdə daha çox səhhətinizə fikir verməlisiniz. Nahardan sonra isə işgüzar sövdələşmələrə başlamaq, yeni əlaqələr yaratmaq xeyirlidir.

**BUĞA** - Bir qədər gərgin gündür. Özünüzü istənilən təzyiq və təhlükələrdən qorumalısınız. Haqqınızın tapdanmasına yol verməyin. Yeri gəlsə, bu istiqamətdə sərt mövqe də nümayiş etdirin.

**ƏKİZLƏR** - Risk etməkdən qorxmayın. Amma bilin ki, bu riski hansı məqsəd uğrunda edirsiniz. Başınızı qoruyun. Ulduzların düzümü şəxsi büdcənizdə müəyyən artımların olacağını bəyan edir.

**XƏRÇƏNG** - Məqsədlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz. Bu isə Göy qübbəsinin xoşuna gəlmir. Özünüzdə təpər tapın. Hər adama bel bağlamayın. Çünki bu dövrdə heç nə boş-boşuna əmələ gəlmir.

**ŞİR** - Bu təqvimi bürcünüz üçün həftənin ən düşərli günü kimi dəyərləndirmək olar. Əlxüsus da əməkdaşlıq zəminində uğurlu məqamlarla rastlaşacaqsınız. Sizə aid olmayan işlərə müdaxilə etməyin.

**QIZ** - Astroloji göstəricilər nə qədər yeni simalarla rastlaşsanız, bir o qədər nailiyyət qazanacağınızı bəyan edir. Əgər işlə bağlı məşğul deyilsinizsə, axşam mütləq qonaq gedin.

**TƏRƏZİ** - Maddi firavanlığa qovuşmaq üçün geniş imkanlarınız var. Boş oturmağa çalışmayın. Pul qoxusu gələn istənilən ünvana və şəxsə müraciət edin. Qeybətcil adamlardan uzaq olun.

**ƏQRƏB** - Təzadlı bir gün yaşayacağınız gözlənilir. Ulduzlar sizə qarşı bir neçə istiqamətdən təzyiqlər olacağını, buna baxmayaraq, perspektivli təkliflər alacağınızı bildirir.

**OXATAN** - Sevgi münasibətlərində bir qədər anlaşılmazlıqlar mümkündür. Çalışın ki, bu amil mübahisə həddinə çatmasın. Səhvlərinizi etiraf etməyi bacarın. Bunun sizə yalnız xeyri dəyə bilər.

**OĞLAQ** - Müntəzəm surətdə rastlaşdığınız şəxslərlə davranışlarınıza fikir verin. Özünüzü mehriban aparın. Qabiliyyətsiz adamlarla ünsiyyəti səngidin. Varlanmaq üçün imkan qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə zəminində müəyyən xoşagəlməzliklər gözlənilsə də, bu, yalnız günün birinci yarısını əhatə edəcək. Nahardan sonra isə xoş təsadüflərlə rastlaşacaqsınız. Axşam qonaq getməyə çalışın.

**BALIQLAR** - Şəxsi həyatınızda önəmli dəyişikliklər etmək istəyirsinizsə, bu gündən maksimum bəhrələnin. Aldığınız təklifləri düşünmədən rədd etməyin. Axşam təzə xəbərlər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınların əl üstə tutulduğu ölkə



Afrika ölkəsi Ruanda qadınlara dövlət işi tapşırmaq sahəsində liderlərdən biridir. Məlumatlara görə, ölkədə parlamentin 64%-i qadınlardan ibarətdir. Qadınlar siyasətlə bərabər iqtisadiyyat və sosial sahələrdə də önəmli rola sahibdir. Ruanda Amerika, Almaniya və Fransa kimi inkişaf etmiş ölkələrə örnək göstərilir. Ölkədə verilən qərarların 30%-də qadınların söz haqqı tanınır. Təxminən 12 milyon əhalisi olan ölkədə 6 milyon qadın yaşayır. Qadınlar cəmiyyətə fərqli bir düşüncə qazandırıb. 2009-cu ildən bəri ölkənin xarici işlər naziri Louise Mushikabodur. O, dünyanın 50 siyasət qadınının sırasında ilk sıralardadır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.